**AZƏRBAYCAN RESPUBLİKASI**

**TƏHSİL NAZİRLİYİ**

**Jurnal 1970-ci ildən nəşr olunur.**

**2018, № 2 (223)**

# MƏKTƏBƏQƏDƏR
# VƏ
# İBTİDAİ TƏHSİL

**(elmi-metodik jurnal)**

**2**

**2018**

## РЕДАКСИЙА ЩЕЙЯТИ

**Баш редактор: проф.Й.Ш.Кяримов**

**Айдын Ящмядов** *Азярбайжан Республикасы Тящсил Назирлийинин Məktəbəqədər və цмуми тящсил шюбясинин мцдири;*

**Нярминя Алнаьыйева** *Азярбайжан Республикасы Тящсил Назирлийинин Мяктябягядяр тящсил секторунун мцдири;*

**Фаиг Шащбазлы** *Азярбайжан Республикасы Тящсил İnstitutu Elmi-Pedaqoji Mərkəzinin direktoru;*

**Видади Хялилов** *Азярбайжан Республикасы Тящсил Институтунун elmi məsləhətçisi, педагоъи елмляр доктору, профессор;*

**Рамиз Ялийев** *Азярбайжан Dövlət Pedaqoji Universitetinin ümуми психолоэийа kafedrasının мцдири, психолоэийа елмляри доктору, профессор ;*

**Асяф Заманов** *Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi işlər üzrə prorektoru, физика-рийазиййат елмляри доктору, профессор ;*

**Нурлана Ялийева** *Azərbaycan Slavyan Universitetinin rektoru, филолоэийа елмляри доктору, профессор ;*

**Вагиф Ямирасланов** *Бакы Сосиал-Педагоъи Коллежинин директору, тарих цзря фялсяфя доктору;*

**Миржяфяр Щясянов** *Азярбайжан Дювлят Педагоъи Университетинин профессори ;*

**Laləzər Cəfərova** *Азярбайжан Республикасы Тящсил İnstitutu məktəbəqədər təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru;*

**Азадхан Адыэюзялов** *Азярбайжан Дювлят Педагоъи Университетинин профессоrи, педагоъи елмляр доктору;*

**Щягигят Щажыйева** *Азярбайжан Дювлят Педагоъи Университетинин досенті, биолоэийа цзря фялсяфя доктору;*

**Земфира Ясядова** *Бакы шящяри, Низами району, 175 нюмряли кюрпяляр еви-ушаг баьчасынын мцдири;*

**Есмира Аьайева** *И. Яфяндийев адына Елитар Эимназийанын ибтидаи синифляр цзря директор мцавини;*

**Zemfira Ağayeva** *Бакы шящяри, Nərimanov rayonu, 69 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi;*

**Бибиханым Ибадова** (мясул катиб) *Азярбайжан Республикасы Тящсил Институтунун İбтидаи тящсиліп курикулуму шюбясинин мцдири, педагоэика цзря фялсяфя доктору.*

Йыğылмаьа верилмиш: 2018-ci il, iyun ayının 8-də.

Çапа имзаланмыш: 2018-ci il, iyun ayının 18 –də.

Каьыз форматы 60x84 1/8. Şярти чап вяряги 6,5.

Şифариш № 16. Тираъ 1000. Qиймяти 2 манат 50 гяпик.

Редаксийанын цнваны: АЗ 1010. Бакы, Зярифя Ялийева кцчяси, 96.

Тел. моб. (051) 623-01-15.

«РС Полиграф» ММЖ-нин мятбяясиндя щазыр диапозитивлярдян чап олунмушдур.

Üнван: Бакы, А.Мяммядов küçəsi, 113.

# MÜNDƏRİCAT

## *YUBİLEY ŞƏNLİYİ*


1. **İsgəndərov İ.** Bakı şəhəri, Nizami rayonu, 175 nömrəli körpələr evi-uşaq bağçasının 30 illik yubileyi........................................................................................4


## *ÜMUMPEDAQOJİ PROBLEMLƏR*


2. **Сиденко Е.А.** Мотивация достижений для преодоления затруднений учителей школ в условиях реализации инноваций...............................................6
3. **Sarıbəyli F.** Özünüqiymətləndirmə pedaqoji anlayış kimi...........................................10


## *MƏKTƏBƏQƏDƏR TƏHSİL*


4. **Baxışova Ş.** İnkişafetdirici təlim prosesində məktəbəqədər yaşlı uşaqların adaptasiya imkanları........................................................................................ 13
5. **Abdullayeva S.** Məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçilərinə verilən tələblər.......18
6. **Sadıxova A.** Məktəbəqədər müəssisələrdə təlim-tərbiyənin təşkili təcrübəsindən........21


## *FƏNLƏRİN TƏDRİSİ VƏ QABAQCIL TƏCRÜBƏ*


7. **Mahmudov N.** İbtidai sinif şagirdlərinin riyaziyyat və informatikadan bacarıq səviyyələrinin müəyyənləşdirilməsində formativ testlərdən istifadə.........28
8. **Мурадова Н.** Формирование национального самосознания младщих школьников на основе творчества Молла Панаха Вагифа......................................33
9. **Qasımova M.** Şagirdlərinin nitqinin inkişafında lüğət üzrə işin rolu ............................. 35
10. **Əhmədova N.** Fəal təlimlə qurulan dərslər şagird təfəkkürünü inkişaf etdirir. ...............39
11. **Kərimova A., Zeynalova İ .** Riyaziyyat təlimində inkişafetdirici oyunlar, və məntiqi çalışmalardan istifadənin xüsusiyyətləri..................................................42
12. **Cəbiyeva H.** İbtidai siniflərdə qeyri-standart dərslərin təşkilinə dair............................46
13. **Əliquluyeva F.** Mürəkkəb cümlənin tədrisi prosesində qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları.........................................................49


## *PSİXOLOGİYA VƏ DEFEKTOLOGIYA*


14. **Əliyeva M.** Şagirdin “psixoloji ərazisi”....................................................................53


## *TƏRBİYƏ PROBLEMLƏRİ*


15. **Həsənova S.** Tərbiyə elə bir xəzinədir ki, açarı milli ənənələrdir. ..............................56
16. **Sadıqova S.** Ekoloji mədəniyyətin formalaşdırılması uşaq şəxsiyyətinin sosiallaşmasının mühüm amili kimi.......................................................62
17. **Məmmədzadə F.** İbtidai siniflərdə tərbiyəvi işin mahiyyəti və pedaqoji-psixoloji ədəbiyyatda bu barədə fikirlərin təhlili..................................................67


## *YENİ NƏŞRLƏR*


18. **Abasova S.** İbtidai siniflərdə yazı işlərinə dair yeni vəsait...................................70

19. **Məmmədova K.** Y.A.Komenskinin “Ana qucağı məktəbi” əsəri və onun əsas ideyalarının Azərbaycanda yayılması....................................................71

## ***YUBİLEY ŞƏNLİYİ***

# BAKI ŞƏHƏRİ, NİZAMİ RAYONU, 175 NÖMRƏLİ “ŞƏNLİK” KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASININ 30 İLLİK YİBİLEYİ

**İlqar İsgəndərov,**
“Məktəbəqədər və ibtidai təhsil”
jurnalının şöbə redaktoru



**Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyeva bağçanın açılış mərasimində**

2017-ci il, oktyabr ayının 3-də Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyeva Nizami rayonunda əsaslı təmirdən sonra istifadəyə verilən 175 nömrəli “Şənlik” körpələr evi-uşaq bağçasının açılış mərasimində iştirak etmişlər.

Mehriban Əliyeva körpələr evi-uşaq bağçasının açılış rəmzi olan lenti kəsdi.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məktəbəqədər təhsil müəssisəsinin 2 korpusdan ibarət olduğunu bildirdi. Qeyd etdi ki, burada 6 qrup üzrə 110 uşaq tərbiyə alırdı. Bağçaya tələbatın çox olduğu nəzərə alınaraq bu il yeni korpus inşa edildi, əvvəlki korpusda isə əsaslı təmir işləri aparıldı. Bununla da körpələr evi-uşaq bağçasında qrupların sayı 6-dan 12-yə çatdırıldı, uşaqların sayı isə 230 nəfər oldu. Müəssisədə balacaların təlim-tərbiyəsi ilə 70 nəfərdən ibarət pedaqoji heyət məşğul olur. Məktəbəqədər müəssisədəki 12 qrupdan 10-u azərbaycandilli, 2-si isə rusdilli qruplardır. Burada 2 yaş qrupu – 2-3 yaş arası və 3-6 yaş arasında olan uşaqlara qayğı göstərilir.

Mehriban Əliyeva və Leyla Əliyeva bağçadakı Heydər Əliyev guşəsinə, həmçinin milli guşəyə baxdılar. Burada uşaqların və pedaqoqların əl işləri təsvir olunur. Bağçada uşaqların vətənpərvərlik ruhunda tərbiyəsi üçün “Vətənpərvərlik guşəsi” adlı otaq da var. Burada balacalara öz yaradıcı potensiallarını aşkara çıxarmaq imkanı verilir. Uşaqlar ingilis dili və kompüter biliklərinə yiyələnmək imkanı da qazanacaqlar. Bunu nəzərə alaraq ikinövbəli müəssisədə planetari guşəsi də yaradılıb. Burada balacalar ilkin, sadə astronomik biliklərə yiyələnə biləcəklər. Əsas məqsəd onları I sinifdə təhsil almağa hazırlamaqdır. Əsaslı təmir olunan binada idman zalı, mətbəx yerləşir. Həyətdə isə futbol, qolf meydança-

ları, uşaqların yol hərəkəti qaydalarını öyrənmələri üçün xüsusi meydança, istirahət guşələri var.

Mehriban Əliyeva məktəbəqədər müəssisədə şəraitin yüksək səviyyədə olduğunu bildirdi.

Azərbaycan Respublikasının Vitse-prezidentinə binanın ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verildi.

2017-ci il, noyabr ayının 25-də bağçanın 30 illik yubileyi münasibətilə tədbir keçirilmişdir. Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov, Milli Məclisin deputatları Sədaqət Vəliyeva və Rasim Musabəyov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatının rəhbəri Rasim Quliyev, Rayon İcra Hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova, Təhsil Nazirliyi Məktəbəqədər təhsil sektorunun müdiri Nərminə Alnağıyeva və di gər qonaqlar iştirak edirdilər.



**Balacalar 2018-ci ilin məzun buraxılışında**

Məktəbəqədər müəssisənin müdiri Zemfira Əsədova qonaqları salamladı, müəssisənin 30 illik fəaliyyəti haqqında məlumat verdi. 30 il əvvəl hər şeyin necə başlandığının əks olunduğu sənədli film nümayiş etdirildi.

“Şənlik” uşaq bağçasının istedadlı balacalarından ibarət Şən və Hazırcavablar qrupu müxtəlif səhnəciklər nümayiş etdirdilər.

“Şənlik” uşaq bağçasının məzunları – Q.Almaszadə adına Klassik və Milli rəqs üzrə I Beynəlxalq müsabiqənin laureatı Kamran Həsənov, Bülbül adına orta-ixtisas musiqi məktəbinin şagirdi, Habil Əliyev adına gənc kamança ifaçılarının I Respublika müsabiqəsinin laureatı Fatimə Hacızadə və Bakı Musiqi Akademiyasının məzunu, 2017-ci ildə Bakı caz müsabiqəsinin laureatı Tural Qasımlının ifaları alqışlarla qarşılandı.

Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Fəxri Fərman, hədiyyələr təqdim edərək, bağça kollektivinə gələcək fəaliyyətində uğurlar arzuladı. Məktəbəqədər müəssisənin hazırkı səviyyəyə gəlib çatmasında onun rəhbəri Zemfira Əsədovanın fəaliyyəti xüsusi qeyd olundu.

Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatının rəhbəri Rasim Quliyev çıxış edərək Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun sərəncamı ilə 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri Zemfira Əsədovanın Fəxri Fərmanla, kollektivin bir qrup üzvünün isə təşəkkürnamələrlə təltif olunduğunu bildirdi və onları təbrik etdi.

Gözəl şəraiti, pedaqoji kollektivinin elmi səviyyəsi və fəaliyyəti ilə Bakı şəhərində ad qazanan “Şənlik” körpələr evi-uşaq bağçası respublikanın məktəbəqədər müəssisələri üçün gözəl nümunədir.

# МОТИВАЦИЯ ДОСТИЖЕНИЙ ДЛЯ ПРЕОДОЛЕНИЯ ЗАТРУДНЕНИЙ УЧИТЕЛЕЙ ШКОЛ В УСЛОВИЯХ РЕАЛИЗАЦИИ ИННОВАЦИЙ

**Сиденко Елена Александровна,**
старший преподаватель Академии Повышения Квалификации и
Профессиональной Переподготовки Работников Образования, Москва, Россия
E-mail: 9653244543@mail.ru



**ключевые слова:** инновации, мотивация достижения, мотивация избегания неудач, личностный смысл, педагогический коллектив;
**açar sözlər:** innovasiyalar, nailiyyət motivasiyası, uğursuzluqlardan çəkinmə motivasiyası, şəxsiyyət anlayışı, pedaqoji kollektiv;
**key words:** innovations, motivation to achieve, motivation to avoid failures, personal meaning, teaching staff.

Реальными ориентирами общего образования в традиционной школе долгое время оставались конкретные знания и умения по отдельным учебным предметам. За этими предметными результатами терялась личность ребенка, развитие которой – смысл и цель образования. Осознание этого привело к формированию новых ценностей образования, к новому пониманию образовательных результатов, определяющих качество образования в его современном звучании.

Начиная с конца 1990-х годов, нарастает неудовлетворенность общества результатами школьного образования, их неадекватностью современным требованиям и ожиданиям. К этому времени начали не устраивать рейтинги отечественного школьного образования по оценкам сравнительных международных исследований учебных достижений учащихся, оценки уровня информационно-коммуникационной компетентности учителя [2].

Неудовлетворенность значительной части общества качеством общего образования, понимание того, что нынешние образовательные результаты не могут в полной мере стать основой для успешной профессиональной карьеры и реализации жизненных устремлений выпускников, выразились, в конечном счете, в стремлении общества и государства сформировать новую, опережающую модель развития российской школы. Для решения этих задач был создан Федеральный государственный образовательный стандарт второго поколения (далее ФГОС) [4].

Как определено в ряде исследований [1, 5], одним из существенных условий успешного внедрения инновации является подготовка управленческих и педагогических кадров. Несмотря на то, что существует значительное количество исследований и разработок, направленных на подготовку работников образования к реализации инноваций (внедрению ФГОС), недостаточно полно изученным и разработанным в рамках этих подходов остается вопрос влияния личностного смысла на формирование мотивации достижения участников образовательного процесса. Мотивация достижения необходима для успешного внедрения ФГОС, но несмотря на высокую степень разработанности теории

мотивации в отечественных и зарубежных исследованиях, руководители очень часто используют приемы влияния на поведение педагогов, которые вместо мотивирования приводят к демотивации профессиональной деятельности [1]. Таким образом, вместо мотивации достижения у педагогов формируется мотивация избегания неудач, что ведет к фиктивной деятельности, т.е. к формальному выполнению требований руководства во избежание административных наказаний.

Поскольку педагог не самоопределился относительно своей роли во внедрении ФГОС, у него не сформирован личностный смысл включения в деятельность по реализации ФГОС. При отсутствии административных мер он бы отказался от внедрения ФГОС, но поскольку административные меры присутствуют, педагог вынужден имитировать деятельность по внедрению стандарта. Мы можем говорить о том, что у педагога в данной ситуации преобладает мотивация избегания неудач (административных мер, выступающих в качестве наказаний).

Аналогична картина и для директорского корпуса. Руководители также не видят личностного смысла во внедрении ФГОС, и поэтому у них сформирована мотивация избегания неудач, приводящая к имитации внедренческой деятельности на уровне своего образовательного учреждения. Налицо противоречие между настоятельной необходимостью в подготовке управленческих и педагогических кадров к переходу на реализацию ФГОС и недостаточной разработанностью программ повышения квалификации, ориентированных на формирование у обучаемых осмысленной мотивации достижения положительных результатов.

В зарубежной и отечественной психологии имеется около 50 теорий мотивации. В качестве мотива называются самые различные психологические феномены, такие, как намерения, представления, идеи, чувства, переживания, потребности и многие другие. Однако ряд отечественных и зарубежных исследователей, в том числе А.Б. Бакурадзе [1] и Д. Макклелланд [3], приходят к выводу, что попытка найти при определении мотива одну единственную детерминанту – это тупиковый путь, поскольку человеческая деятельность является системным образованием и обусловлена системой детерминант, в том числе и на уровне мотивации. Поэтому монистический подход к пониманию сущности мотива не оправдывает себя, что вынуждает заменить его плюралистическим. Для правильного понимания психологического содержания мотива необходимо использовать все перечисленные выше психологические феномены, даже если этот подход представляется слишком сложным. Только при таком понимании правомерно рассмотрение мотива в качестве сложного интегрального психологического образования. Следовательно, **мотив личности** – это и потребность, и цель, и намерение, и побуждение, и свойство личности, детерминирующие поведение человека. [1,3,6].

В эксперименте, предполагающем диагностику сформированности у сотрудников общеобразовательных учебных заведений мотивации достижения, приняли участие 368 человек – педагоги и руководители учебных заведений.

Эксперимент проводился автором данной статьи в общеобразовательных школах городов Екатеринбурга, Нижнего Новгорода, Бора, Дзержинска, Домодедово, Москвы в 2012–2017 годах, состоял из нескольких этапов. При проведении констатирующего эксперимента нами была проведена во всех экспериментальных школах входная диагностика сформированности у педагогического состава образовательных учреждений мотивации достижения с помощью модифицированной методики А.Мехрабиана. Данная методика измеряет результатирующую тенденцию мотивации, то есть степень преобладания одного из двух основных мотивов к трудовой деятельности педагога— стремление к достижению успеха или избегание неудачи. Испытуемым было предложено ответить на вопросы данной методики, позже результаты были обработаны: по городам, по типам об-

разовательных учреждений (лицеи, гимназии, общеобразовательные школы), по категориям участников, усреднены и интерпретированы.

Результаты позволили сделать вывод о том, что у 87% педагогического состава опрошенных нами образовательных учреждений в мотивации трудового поведения доминирует стремление избегать неудачи; у 9% в мотивации трудового поведения доминирует стремление достижения успехов и у 4% мотивацию трудового поведения можно считать неустойчивой, т.е. в ней попеременно преобладают мотивы разных видов.

Поскольку входная диагностика на первом этапе эксперимента показала, что у большинства педагогов была выявлена устойчивая мотивация избегания неудач, нам предстояло выявить причины существования такой проблемы. Мы выявляли это через определение в ходе эксперимента уровня готовности педагогов к введению ФГОС в своем образовательном учреждении.

Нами было проведено анкетирование педагогического состава школ, участвовавших в эксперименте. Результаты анкетирования также были обработаны. Исходя из их интерпретации, мы разделили педагогов на пять групп:

1) обладающие достаточными знаниями и умениями для активного внедрения ФГОС – 3% педагогов;

2) выражающие интерес к внедрению Стандарта, но отметившие, что не обладают необходимыми для этого знаниями – 26%;

3) не знающие способов реализации ФГОС в своем образовательном учреждении – 11%;

4) выступающие против введения нового ФГОС – 42%;

5) выступающие против инновационной деятельности любого типа и являющиеся приверженцами классно-урочной системы – 18%.

Нами также было проведено анкетирование управленческого состава школ.

Относительно управленцев картина была аналогичная, но с несколько иными показателями. Исходя из интерпретации результатов, было возможно разделить руководителей на пять групп:

• обладающие достаточными знаниями, умениями, создающие условия для активного внедрения ФГОС в своем образовательном учреждении – 6% управленцев;

• выражающие интерес к внедрению Стандарта, но заявившие, что не обладают необходимыми для этого знаниями – 41%;

• не знающие способов реализации ФГОС в своем образовательном учреждении– 30%;

• выступающие против нового ФГОС – 9%;

• выступающие против инновационной деятельности любого типа и являющиеся приверженцами традиционной системы обучения – 12%.

Сравнивая данные этих категорий участников можно зафиксировать, что 97% педагогов и 58% управленцев отметили, что испытывают затруднения, связанные с переходом на ФГОС:

Данные эксперимента позволили сделать вывод, что на сегодняшний день педагогические коллективы школ еще не готовы к внедрению ФГОС. Эксперимент позволил выдвинуть предположение, что причиной недостаточной готовности является несформированность у педагогических работников *личностного смысла* относительно внедрения ФГОС. При этом зафиксирован низкий уровень самоопределения управленцев и педагогов относительно их роли и функций введения ФГОС в образовательных учреждениях; было выявлено, что учителя и руководители образовательных учреждений среднего звена не умеют ставить цели, связанные с реализацией Стандарта и не готовы принять новую образовательную парадигму.

Для изменения ситуации была разработана модель повышения квалификации, предполагающая разные способы воздействия на выделенные группы участников.

Модель повышения квалификации школьных коллективов *включала три модуля,* ориентированные на формирование у руководителей и педагогов мотивации достижения:

- *первый модуль* – курсовая подготовка, осуществляемая в активных формах, методах и приемах;
- *второй модуль* – межсессионный период, включающий консалтинг;
- *третий модуль* – рефлексивно-оценочный и экспертно-аналитический, по итогам которого были зафиксированы результаты изменения мотивации достижения.

Были получены следующие данные:

- у педагогов первой группы мотивация достижения практически не изменилась;
- второй группы мотивация стала стабильно высокой;
- третьей группы мотивация возросла до среднего уровня;
- четвертой группы мотивация стала высокой;
- пятой группы изменилась незначительно в сторону улучшения.

Относительно управленцев, картина была аналогичной.

В ходе эксперимента мы выявили, что проблема внедрения ФГОС связана с тем, что школьные коллективы не видят личностного смысла во внедрении ФГОС и у них преобладает мотивация избегания неудач. Необходимо искать дальнейшие способы повышения эффективности методов, приемов и технологий, влияющих на формирование мотивации достижения руководителей и педагогов, разрабатывать усовершенствованные модели повышения квалификации, основанные на приобретении личностного смысла, формирующего мотивацию достижения для школьных коллективов в условиях введения ФГОС как системной инновации.

**литература**

1. Бакурадзе А.Б. Влияние ценностей на мотивацию труда педагогов. // Инновационные проекты и программы в образовании. 2013, №1.

2. Кузнецов А.А., Хеннер Е.К., Имакаев В.Р., Новикова О.Н. Проблемы формирования информационно-коммуникационной компетентности учителя российской школы. // Образование и наука. Известия УрО РАО. 2010, № 7 (75).

3. Макклелланд Д. Мотивация человека. Санкт-Петербург: «Питер», 2007.

4. Сиденко А. С., Сиденко Е. А. Психолого-педагогические основы введения и реализации ФГОС в образовательных организациях. // Инновационные проекты и программы в образовании. 2015, №3.

5.Сиденко Е.А. О пути внедрения профессионального стандарта педагога на основе создания организационной культуры организации. // Эксперимент и инновации в школе. 2015, № 4.

6. Сиденко Е.А. От теоретических аспектов мотивации обучаемых в зарубежной и отечественной психолого-педагогической науке к практике ее изменения. // Инновационные проекты и программы в образовании. 2017, № 3.

**İNNOVASİYALARIN TƏTBİQ OLUNDUĞU ŞƏRAİTDƏ MÜƏLLİMLƏRİN ÇƏTİNLİKLƏRİN ARADAN QALDIRILMASI İLƏ BAĞLI UĞUR ƏLDƏ ETMƏ MOTİVASİYASI**

**xülasə**

Məqalədə müəllif orta ümumtəhsil səviyyəsi üzrə federal hökumət standartlarına keçidlə bağlı təhsil müəssisələrinin qarşılaşdığı çətinliklərdən söhbət açır və problemin həlli yollarını təklif edir. Bundan əlavə, müəllif pedaqoji kadrların müvafiq məsələ üzrə hazırlığını nəzərdə tutan təlimin mahiyyətindən bəhs edir. Bu təlimlərdə pedaqoji kadrlara uşaqlarda şəxsiyyət anlayışının formalaşdırılması yolları aşılanır.

**DISCOVERY OF INNOVATIONS IN SCHOOLS APPLICABLE SUCCESSFUL MOTIVATION OF TEACHERS**

**summary**

In the article, the author speaks about the difficulties encountered by educational institutions on transition to federal government standards on general secondary education and offers ways to address the problem. In addition, the author mentions the essence of the training, which involves the preparation of pedagogical cadres on the relevant issue. In these trainings pedagogical cadres are instilled in children the ways of shaping identity.

# ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ PEDAQOJİ ANLAYIŞ KİMİ

**Fidan Sarıbəyli,**
ARTİ-nin doktorantı
E-mail: fsaribeyli@mail.ru

**açar sözlər:** qiymətləndirmə, özünüqiymətləndirmə, təlim, müəllim, şagird, nəticə;
**ключевые слова:** оценивание, самооценивание, обучение, преподаватель, ученик, результат;
**key words:** assessment, self-assessment, learning, teacher, pupil, the result.

Özünüqiymətləndirmə anlayışının pedaqoji mahiyyətinin nədən ibarət olması diqqəti cəlb edir. Özünüqiymətləndirmə pedaqoji anlayışı onun psixoloji mahiyyəti ilə də sıx bağlıdır. İlk dəfə psixoloji anlayış kimi istifadə olunan *özünüqiymətləndirmə* termini insanın *mən* obrazını qiymətləndirməsi anlamına gəlir. Şəxsiyyətin formalaşmasında özünüqiymətləndirməyə böyük əhəmiyyət verən rus psixoloqu A.V.Petrovski qeyd etmişdir: "Özü haqqında artıq nə isə bilən insan başqa adama nəzər yetirir, özünü onunla müqayisə edir, həmin adamın da onun şəxsiyyət kefiyyətlərinə, əməllərinə laqeyd qalmadığını nəzərdə tutur. Bunlar şəxsiyyətin özünə verdiyi qiymətə aid olur və onun mənlik hissini müəyyən edir". [2]

Son illərdə təlim nəticələrinin qiymətləndirilməsi getdikcə böyük əhəmiyyət kəsb edir. Qiymətləndirməyə diqqətin artması həm təhsili tənzimləyən qanunvericiliklə, həm də yeni meyillərlə bağlıdır. Müasir dövrdə şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi onların təlimdə inkişafını təmin edən vəzifələrdən biridir.

Məktəbdaxili qiymətləndirmənin əsas vasitəsi olan *formativ qiymətləndirmə* şəxsiyyətyönümlü təhsilin ən səciyyəvi atributudur. Məhz bu qiymətləndirmə təlim prosesində müəllimin ənənəvi funksiyasının dəyişməsini, müəllim-şagird münasibətlərinin subyekt-subyekt əməkdaşlığı prinsipləri əsasında formalaşmasını şərtləndirir. "Formativ qiymətləndirmənin obyekti şagirdin öyrənmə prosesidir. Bu prosesdə şagird öz problemlərini şüurlu dərk edir və müəllimin köməyi ilə onun aradan qaldırılması istiqamətində fəaliyyətə qoşulur. Nəticədə nəzarət funksiyasının bir qismi şagirdə ötürülərək, ona öz fəaliyyətini qiymətləndirmək imkanı verir". (6)

Şagirdlərin təlim prosesində fəal iştirakı, onlarda öz fəaliyyətlərini müstəqil qiymətləndirmək bacarığının formalaşdırılması formativ qiymətləndirmənin əsas funksiyasıdır. "Özünüqiymətləndirmə formativ qiymətləndirmənin bir hissəsidir. Bu zaman şagird öz təlim fəaliyyəti barədə düşünür, onu qiymətləndirir, eləcə də müəyyənləşdirilmiş məqsəd və meyarlar haqqında mülahizələrə dair mühakimə yürüdür, öz işlərinin güclü və zəif tərəflərini müəyyənləşdirir, müvafiq dəyişikliklər edir". (1, səh.160).

Özünüqiymətləndirmə təlim prosesində şagirdin qazandığı bilik və bacarıqların keyfiyyətini yüksəltməyə imkan verir, onu öz uğur və uğursuzluqları üzərində düşünməyə, fəaliyyətində dönüş yaratmağa təhrik edir.

Pedaqoji ədəbiyyatda özünüqiymətləndirməyə böyük maraq göstərilməsi təlim konsepsiyasında nəzərdə tutulan dəyişikliklərdən qaynaqlanır. Özünüqiymətləndirmə ənənəvi qiymətləndirmədən nə ilə fərqlənir? Ənənəvi qiymətləndirmədə şagird sadəcə müəllimi məmnun etmək üçün tapşırığı yerinə yetirirdi. Özünüqiymətləndirmə kontekstində isə diqqət müəllimi məmnun etməkdən təlim fəaliyyətinə doğru dəyişib. Pedaqoq D.Boudun qeyd etdiyi kimi, "Qiymətləndirmə başqalarını deyil, özünü razı salmaq üçün həyata keçirilməlidir". (7, səh.3)

Təlimə müasir yanaşmalarda şagirdin təlim prosesində fəal iştirakına, təhsilalanın məsuliyyət hissinə, bacarıqlarına, dialoqa, eləcə də təlim fəaliyyətinin qarşılıqlı əməkdaşlıq modellərinə əsaslanaraq qurulur. Biliyin əməkdaşlıq yolu ilə əldə edilməsi metodunu tədris prosesində aparıcı xətt kimi görən müəllimlər qiymətləndirmə prosesində şagirdləri daha fəal iştiraka təşviq etməyin əhəmiyyətini anlayırlar. Özünüqiymətləndirmə şagirdləri öz təlim fəaliyyətləri haqqında düşünməyə sövq edir, onların məsuliyyət hissini və müstəqilliyini artırır.

"Şagirdin məsuliyyət hissini və mühakimə yürütmək bacarığını artıran özünüqiymətləndirmə ömür boyu öyrənmək üçün lazım olan bacarıqdır. Bundan başqa, özünüqiymətləndirmə prosesi şagirdləri yalnız cavabını bildikləri problemləri deyil, həm də cavabını bilmədikləri problemləri həll etmək üçün imkan yaradır. Belə ki, özünüqiymətləndirmə şagirdlərə nəzəriyyəni, təcrübəni öz həyatları ilə əlaqələndirməyi öyrədir". (7, səh.57)

Təəssüf ki, bir çox müəllimlər hələ də qiymətləndirmə prosesində bütün imkanları və hakimiyyəti öz əllərində saxlamağa meyillidirlər. Müəllimin bütün imkanları öz əlində saxlaması və təkbaşına seçim etməsi təhsilalanın inkişaf potensialını bir sıra aspektlərdə məhdudlaşdırır. Bəzi müəllimlər konstruktiv təlim prinsiplərini özündə ehtiva edən təlim mühiti yaratmağa çalışsalar da, qiymətləndirmə tapşırıqlarının hazırlanması və icrası zamanı onlar unudulur. Özünüqiymətləndirmə tapşırıqları şagirdləri təlim fəaliyyətinə yiyələnməyə həvəsləndirir.

Özünüqiymətləndirmə bu qədər əhəmiyyətlidirsə, onun səmərəli surətdə həyata keçirilməsi də maraq doğurur. "Özünüqiymətləndirmə bacarıqlarının inkişafı üçün şagirdlərin təcrübəyə və yardıma ehtiyacı var. Müəllim şagirdləri əvvəlcədən məlumatlandırmalı, bu barədə onlarla söhbətlər aparmalı, yarana biləcək problemləri müəyyən etməli və qabaqlayıcı tədbirlər görməlidir. Obyektiv qiymətləndirmənin təmin edilməsi üçün şagird öz fəaliyyətinin nəticələrinin necə qiymətləndirilməsini aydın təsəvvür etməli, əsas diqqəti təlim məqsədinə yönəltməyi bacarmalı, inkişaf etmiş tənqidi təfəkkür vərdişlərinə və yüksək obyektivlik hissinə malik olmalıdır". (6).

Şagirdlərin öz fəaliyyətlərində dürüst olması üçün narahatlıq doğuran amillər nəzərə alınmalıdır. Verdiyi informasiyanın sonradan onun əleyhinə yönəldiləcəyi fikri təhsilalanı narahat etməməlidir.

Psixoloq Elxan Bəylərov özünüqiymətləndirmə bacarıqlarının tədricən inkişaf etdirilməsi mərhələlərini aşağıdakı kimi göstərmişdir:

1. Müəllim şagirdin işini yoxlayır, səhvləri düzəldir və onu qiymətləndirmədən şagirdə qaytarır. Şagird yol verdiyi səhvləri təhlil edir və meyarlara əsasən onu özü qiymətləndirir.
2. Müəllim səhvlərin yerlərini qeyd edir,onları düzəltmədən işi şagirdə qaytarır. Şagird səhvləri özü düzəldir, müəllimlə razılaşdırmaqla işini qiymətləndirir.
3. Müəllim işləri yoxlayır və heç bir qeyd aparmadan buraxılan səhvlərin aid olduğu bölmələrə dair məlumatları uşaqlarla təkrarlayır. Sonra isə bu məlumatlara əsaslanaraq, onlara öz işlərini yenidən yoxlamağı və qiymətləndirməyi təklif edir.
4. Şagirdə, müəllimin müdaxiləsi olmadan, öz işini yoxlamaq və qiymətləndirmək təklif edilir.

Qiymətləndirmə metodlarının elementləri bunlardır:

- tələb olunan meyarların müəyyənləşdirilməsi;
- onların əsasında göstərilən fəaliyyətin keyfiyyəti haqqında mühakimənin yürüdülməsi.

Özünüqiymətləndirmə tətbiq edilərkən bu aspektlər nəzərə alınmalıdır. Şagird qiymətləndirmə meyarları ilə əvvəlcədən tanış edilməlidir. Təlim prosesində onlar daim şagirdlərin gözləri

önündə olmalıdır. Bu, tapşırıqlar üzərində işləyərkən onları əvvəlcədən müəyyənləşdirilmiş meyarlara nəzər salmağa və onlar əsasında öz fəaliyyətlərini yoxlamağa sövq edir. Meyarları nəzərə almaq təlimin keyfiyyətini təşkil edən amilləri daha yaxşı anlamağa imkan yaradır.

Şagirdlərin özünüqiymətləndirmə meyarlarının hazırlanması prosesinə cəlb edilmələri çox yaxşı olardı. Bu, onların müəyyən sahədə müsbət nəticə əldə etməyin yolları haqqında dərin anlayışa malik olmalarına imkan yaradacaqdır. Pedaqoq D.Boud və N.Falçikovun qeyd etdikləri kimi, qiymətləndirmə formaları, seçimləri və meyarlarının hazırlanmasında şagirdllərin fəal iştirakı və mühakimələri onların gələcək həyatına fasiləsiz hazırlıq prosesi hesab edilə bilər. Nəzərə alınmalıdır ki, təlimin davam etdirilməsi hansı bilikləri öyrənməyə ehtiyacın olduğunu müəyyən etdikdən sonra mümkündür. Şagirdlərin yiyələndikləri biliklər haqqında fikir bildirməsi həmin prosesin ayrılmaz hissəsi olmalıdır. Əgər şagird təlimdə əldə etdiyi inkişaf səviyyəsini müəyyənləşdirə bilirsə, onda təlimi davam etdirməyə motivasiya yaranacaq.

**ədəbiyyat**


1. Andrade, H., and Du, Y. Student responses to criteria-referenced self-assessment. Assessment & Evaluation In Higher Education. (2007). 32 (2)
2. Ümumi psixologiya. (A.V.Petrovskinin redaktəsi ilə). Bakı, 1983.
3. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. “Kurikulum” jurnalı, 2009, № 2.
4. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1981.
5. Bayramov Ə.S ., Əlizadə Ə.Ə. Sosial psixologiya Bakı : “Qapı-poliqraf”, 2003.
6. Bəylərov E. Formativ qiymətləndirmə. “Kurikulum” jurnalı, 2011, № 3 (15).
7. Boud D. Enhancing learning through self assessment. London: “Kogan Page”, 1995.
8. Boud D., Falchikov N. Aligning assessment with long-term learning. Assessment & Evaluation in Higher Education. 2006. 31(4).


**САМООЦЕНИВАНИЕ, КАК ПЕДОГОГИЧЕСКАЯ КОНЦЕПЦИЯ**

**резюме**


В статье самооценивание рассматривается как педагогическая концепция. Отмечается, что самооценивание привела к изменению традиционной культуры оценивания. В контексте самооценивания внимание сосредоточено на процессе обучения, но не на удовлетворении учителей. Самооценивание побуждает учащихся думать об учебной деятельности и повышает их чувство ответственности и независимости.


**SELF-ASSESSMENT AS A PEDIGOGIC CONCEPT**

**summary**


In the article, self-evaluation is seen as a pedagogical concept. It is noted that self-evaluation led to a change in the traditional culture of evaluation. In the context of self-evaluation, attention is focused on the learning process, but not on the satisfaction of teachers. Self-evaluation encourages students to think about learning activities and increases their sense of responsibility and independence.



**JURNAL AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ QƏRARI İLƏ TÖVSİYƏ OLUNAN NƏŞRLƏR SİYAHISINA DAXİL EDİLMİŞDİR.**

# İNKİŞAFETDİRİCİ TƏLİM PROSESİNDƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ADAPTASİYA İMKANLARI

**Şərafət Baxışova,**
ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası
və metodikası kafedrasının dosenti,
ped. üzrə fəlsəfə doktoru
E-mail: Sharafat_baxishova1960@mail.ru



**açar sözlər:** məktəbəqədər dövr, psixoloji və fizioloji uyğunlaşma, inkişafetdirici mühit, əməkdaşlıq, sosial mühit, sosiallaşma;

**ключевые слова**: дошкольный период, адаптация, развивающая среда, сотрудничество, психологическая и физиологическая адаптация, социальная среда, социализация;

**key words:** preschool period, adaptation, developing environment, cooperation, psychological and physiological adaptation, social environment, socialization.

Uşaqların idrak fəallığının izlənilməsi,inkişaf səviyyələrinin, nailiyyətlərinin təhlili, bilik, bacarıq və vərdişlərinin inkişafının tənzimlənməsi inkişafyönümlülük problemini meydana çıxarır. Uşaqlar bilikləri müxtəlif yollarla öyrənir, onları fərqli formalarda nümayiş etdirirlər. Ona görə də kiçikyaşlılar üçün səmərəli təlim prosesi təşkil olunmalıdır. Səmərəli təlim odur ki, hər bir uşağın inkişaf səviyyəsi və prinsipləri, maraq dairəsi nəzərə alınır, onların yeni məlumatlar əldə etmələri, hərtərəfli fəaliyyətləri təmin olunur. Bu proses o zaman səmərəli olar ki, uşağın göstəriciləri və tərbiyəçinin hazırlıq səviyyəsi inkişafetdirici təlimi reallaşdırmağa imkan versin.

İnkişafetdirici təlim bilik, bacarıq və vərdişlərin təmin olunması ilə yanaşı, uşaqlarda yeni biliklərin müstəqil əldə edilməsi metodlarını da formalaşdırır. Yalnız o zaman bu biliklər uşaqların müstəqil idrak fəallığının inkişaf etdirilməsi prosesində qabiliyyətlərin formalaşmasına təsir göstərir. Bu, həmçinin təhsil prosesinin məzmununa emosional-dəyərli münasibətin təmin olunmasına, humanist şəxsiyyətin formalaşmasına şərait yaradır.

Uşağın əqli inkişafını maksimum dərəcədə təmin edən biliklərin şüurlu surətdə mənimsənilməsinə səbəb olan və müstəqil fəaliyyətinə kömək göstərən təlim *inkişafetdirici təlim* adlanır. Təlimin qarşısında duran vəzifələrin müvəffəqiyyətli həlli üçün o, ilk növbədə inkişafetdirici olmalıdır. İnkişafetdirici təlim uşağın ümumi intellektual səviyyəsinin formalaşması ilə bağlıdır.

İnkişafetdirici təlimin əsas funksiyası uşaqların potensial imkanlarından maksimum istifadə etməklə onların gücləri çatan səviyyədə qurulması və sürətləndirilməsidir.

Tərbiyəçilər məktəbəqədər təhsil müəssisəsində uşaqların təhlükəsizliyinə,hər hansı işə cəlb olunmalarına, təlimdə iştirak etmələrinə, məsuliyyət hissinin tərbiyəsinə kömək göstərən mühit yaradırlar. Bu məqsədlə tərbiyəçilər, hər şeydən əvvəl, uşaqların təlimə adaptasiyasını həyata

keçirir, əsas təlim metodlarından istifadə edirlər. Onlar bunu həm oyunlarda, həm də məşğələlərdə yerinə yetirirlər.

Uşağın məktəbəqədər təhsil müəssisəsinə daxil olması, sosial mühitin başqa dəyişiklikləri kimi, onun psixi və fiziki vəziyyətində özünü göstərir. Bəzən bu, böyük çətinliklərlə müşayiət edilir, çünki uşaqlar erkən yaşlarda adaptasiya prosesinə daha həssas olurlar.

Müşahidələr göstərir ki, uşaqların məktəbəqədər təhsil müəssisələrinə adaptasiyasının üç dərəcəsi mövcuddur: ***yüngül, orta*** və ***ağır***. Bunların əsas göstəriciləri uşağın emosional vəziyyətinin normallaşmasının müddəti, yaşıdlarına və tərbiyəçiyə normal münasibətin yaranması, əşyavi mühitə maraq, kəskin xəstəliklərin təkrarlanması və davametmə müddətidir.

***Yüngül adaptasiya*** 1–2 həftə davam edir. Uşaqda yuxu və qidalanma rejimi tez normallaşır, insanlarla münasibət fəallaşır. Kəskin xəstəliklər yaranmır, orqanizmin immuniteti o qədər də aşağı düşmür. İkinci, üçüncü həftənin sonuna qədər vəziyyət normallaşır.

***Adaptasiyanın orta ağırlıq*** dərəcəsində uşağın ümumi vəziyyətində pozulmalar aydın ifadə olunur, müəssisəyə uyğunlaşma müddəti uzanır.Yuxu və qidalanma rejimi 15–40 günə bərpa olunur. Bu müddət ərzində uşağın əhvali-ruhiyyəsi sabitləşir.Vegetativ sinir sisteminin fəaliyyətində dəyişikliklər (dərinin solğunluğu, tərləmə, gözaltı kölgələr, səpgilər, mədə-bağırsaq sisteminin fəaliyyətində pozulmalar və s.) müşahidə edilir.

***Adaptasiyanın ağır vəziyyəti*** valideyn və tərbiyəçiləri daha çox həyəcanlandırır. Uşaq uzun müddət müxtəlif xəstəliklər keçirir, orqanizmin müdafiə funksiyaları pozulur. Bəzən uşağın qeyri-adekvat davranışı onu əsəbi vəziyyətə gətirir. Onun iştahası tamamilə pozulur, yeməkdən imtina edir. Bəzən uşağı məcburən yedizdirdikdə qidanı qaytarma halları baş verir. O, pis yatır, yuxuda diksinir, qışqırır, oyandıqda isə əzginliyi ilə seçilir, başqaları ilə ünsiyyətdən qaçır və aqressivlik nümayiş etdirir.

Uyğunlaşma dövrünün əsas məqsədi uşağın yeni mühitə mümkün qədər tez alışmasına, özünü rahat hiss etməsinə yardım göstərməkdir. Uşağın özünü rahat hiss etməsi yalnız yaşadığı mühitdə onun səmimi, qayğıkeş, mehriban insanların əhatəsində olduğunu başa düşdüyü zaman mümkündür. Uşaq bağçaya gəldiyi ilk gündən yarım il başa çatanadək onun fəaliyyəti bu məsələnin həllinə həsr olunur. Uşağın özünü rahat hiss etməsi, onda əminlik hissinin formalaşması üçün ilk tanışlığın oyun formasında baş verməsi məqsədəuyğundur. Bunun üçün tərbiyəçilərin uşaqlar və valideynlərlə ilk tanışlığı müsbət emosiyalarla zəngin şəraitdə həyata keçirilir. Tərbiyəçi ilk növbədə uşağı və onun valideynlərini qrupla tanış edir. Uşaq kollektivə təqdim olunduqdan sonra onun iştirakı ilə müxtəlif oyunlar təşkil edilir.

Uyğunlaşma dövründə təlim oyun–məşğələlər şəklində həyata keçirilir ki, bundan əsas məqsəd uşaqlarda stres vəziyyətlərin qarşısını almaq, emosional gərginliyi aradan qaldırmaq, həyəcanı, aqressiyanı azaltmaq, onların qarşılıqlı ünsiyyət bacarıqlarını inkişaf etdirmək, nitq fəallığı, anlama, diqqət, ümumi və kiçik motorikanı, hərəkət koordinasiyasını, oyun bacarıqlarını, səriştəliliyi inkişaf etdirməkdir.

Adaptasiya mexanizminin formalaşması ilk növbədə tərbiyəçinin qrupda rahatlıq, sevgi mühitini yaratma bacarığından asılıdır. Belə şəraitdə uşaq əmin olur ki, tərbiyəçi onun rahatlığı üçün bütün qayğıları öz üzərinə götürməyə hazırdır. Uşaqla ilk əlaqə yardım və qayğı ilə başlayır. Tərbiyəçinin əsas vəzifəsi uşağın inamını qazanmaqdır. Kiçikyaşlı uşaqlarla işləyən tərbiyəçinin onlara məhəbbəti davranışında da öz əksini tapmalıdır.

Müşahidələr göstərir ki, uşaqlar tərbiyəçidə emosionallıq və səmimiliyi, xeyirxahlıq və qayğıkeşliyi, şən əhvali-ruhiyyəni, onlarla birlikdə oynamasını, hekayələr, nağıllar fikirləşə bilməsini, normal tonda nitqi, mehriban, səmimi davranışını xoşlayırlar.

Peşəkar tərbiyəçi uşaqlarda mənfi emosiyaların qarşısını alma bacarığına malikdir. Adaptasiya dövründə tərbiyəçi uşaqlara inkişafetdirici funksiyaları həyata keçirən fəaliyyət növlərini təklif edir:

• qum və su ilə oyunlar (Uşaqlara müxtəlif həcmli qablar, qıflar, süzgəclər verir. Uşaq suyu bir qabdan başqasına süzür, oraya kürəciklər, balıqlar atır.);

• əllərlə monoton hərəkətlər (piramidaların və ya halqaların çubuğa keçirilməsi);
• əllərin sıxılması (Uşağa rezin oyuncaqlar verir ki, onu sıxıb, səsini çıxarsın.);
• flomasterlə, markerlə, boya ilə şəkil çəkmək;
• həzin musiqi dinləmək;
• gülüş terapiyası ilə məşğul olmaq.

Araşdırmalardan belə aydın olur ki, inkişafetdirici təlimin əsas komponentlərindən biri də qrup otağında emosional, xoş mühitin yaradılmasıdır. İnkişafetdirici mühitin yaradılmasında lazım olan psixoloji tələblər bunlardır:

• Mühit müasir, erqonomikanın bütün tələblərinə cavab verən, uşaq fəaliyyəti üçün rahat olmalıdır.

• Tərbiyəçi uşaq fəaliyyətinin inkişafında yeni, perspektivli səviyyəyə nail olmağı təmin etməlidir.

• Mühitin baza komponentləri uşaqların, böyüklərin fəaliyyətinin makro və mikromühitləri ilə mütənasib olmalıdır;

• Uşağın inkişafının, konkret fəaliyyət növlərinin əşyavi əsasının ***amplifikasiyasının*** *(təsviri gücləndirmək üçün eynimənalı söz və ifadələrin dalbadal işlənməsi)* tətbiqi ilə yaradıcı bacarıqların inkişafı üçün tələbatları təmin etməlidir.

• Uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalıdır. [3, səh.94 ]

Təcrübə göstərir ki, qrupda "ev mühitinin" yaradılması yaxşı nəticə verir. Hər bir uşaq ilk zamanlar qrup və yataq otaqlarındakı mebellərin ölçülərindən diskomfort hiss edir. Uşağın məktəbəqədər müəssisəyə məmnuniyyətlə gəlməsi üçün qrup otağını normal ev şəraitinə yaxınlaşdırmaq məqsədəmüvafiqdir. Müxtəlif yaş qruplarında iş təcrübəsinə ailə məişətinin elementlərini daxil etmək tərbiyəçilərin uşaqlarla fəaliyyətini əhəmiyyətli dərəcədə asanlaşdırır.

Məlumdur ki, bağçada uşağın hissi qavrayışını, təfəkkürünü, zehni özünüdərkini, ünsiyyət bacarığını, dünyagörüşünü inkişaf etdirən oyuncaqları olmalıdır. Müşahidələr göstərir ki, uşağın sevimli oyuncağını, boşqab və qaşığını qrup otağına gətirməsi ev mühitini xatırladır, onu sakitləşdirir. Bütün bunlar uşağa hisslərini ifadə etməyi, ətrafdakılarla ünsiyyət qurmağı və özünü dərk etməyi öyrədir.

Psixoloji komfort, müdafiə hissi yaratmaq, yataq otağına daha rahat görkəm vermək üçün çarpayının önünə xalça döşəyəndən, pəncərəyə pərdə asandan sonra bağça uşaq üçün evin bir hissəsinə oxşayır.

Məktəbəqədər təhsil müəssisələrinin təcrübəsinin öyrənilməsi göstərdi ki, uşaqların, onların valideynlərinin şəkilləri olan fotoalbomun qrup otağına gətirilməsi də yaxşı nəticə verir. Uşaq istədiyi vaxt sevimli valideynlərini, əzizlərinin şəkillərini görə bilir, darıxmır.

Qrup otağının sahəsini vizual olaraq kiçiltmək üçün mebel və oyun guşələri elə yerləşdirilir ki, kiçik "otaqlar" alınsın.

Qrupda yumşaq mebelin olması da rahatlığı təmin edir. Burada uşaq təklikdə qalıb, öz sevimli oyuncağı ilə oynaya bilir, xoşladığı kitaba baxır, yaxud sadəcə istirahət edir. İstirahət guşəsinin yanında canlı guşənin olması uşagın diqqətini cəlb edir və o, canlılara biganə qalmır. Bitkilərin yaşıl rəngi, akvariumlardakı balıqların hərəkəti uşaqların emosional vəziyyətinə xoş təsir bağışlayır.

Təcrübə göstərir ki, tərbiyəçilərin hər gün adaptasiya prosesində müşahidə aparmaları, onun nəticələrini xüsusi dəftərə qeyd etmələri, qiymətləndirmələri məqsədəuyğundur.

Davranış reaksiyası adaptasiya dövrü müddətində əks olunur. Davranış adaptasiyasının dörd əsas faktorunu qeyd etmək olar: *emosional vəziyyət, kommunikativlik, gündüz yuxusu, qidalanma.*

Tədqiqat prosesində uşaqların məktəbəqədər təhsil müəssisəsinə uyğunlaşma vəziyyəti öyrənilmiş və aşağıdakı cəhətlərə diqqət yetirilərək +3-dən – 3-ə qədər qiymətləndirilmişdir.

1. *Uşağın emosional vəziyyəti:*

• Şəndir, fəaldır, hərəkətlidir. + 3

• Gülümsəyir, yaxşı əhvali-ruhiyyəsi var, sakitdir. +2
• Bəzən fikirli olur, özünə qapanır. +1.
• Az ağlağandır, mızıldayır. –1.
• Ağlayır. –2.
• Yuxulu, ağlağan, pis əhvali-ruhiyyəlidir. –3.

2.*Uşağın sosial kontaktları:*

• Çoxlu dostları var, uşaqlarla həvəslə oynayır.+3
• Tərbiyəçinin əlindən tutmaq istəyir, uşaqlarla həvəssiz oynayır.+2
• Oyunlara laqeyddir, özünə qapanır.+1
• Şən deyil, hətta oyun zamanı da uşaqlarla kontakt yaratmır.–1
• Həyəcanlanır, oyunu yarımçıq qoyur.– 2
• Mehriban deyil, aqressivdir, uşaqların oyununa mane olur.–3

3.*Uşağın yuxusu:*

• Gec yatır, tez yuxuya gedir.+1
• Tez yuxuya gedir, yuxusu sakitdir, dərindir.+3
• Sakit yatır.+2
• Mızıldayaraq yatır, yuxuda həyəcanlanır.–1
• Yatarkən ağlayır, yuxuda uzun müddət narahat olur.–2
• Yatmır, ağlayır.–3

4.*Uşağın iştahası:*

• Yaxşı iştahası var, məmnuniyyətlə hər şeyi yeyir.+3
• Normal iştahası var, doyunca yeyir.+2
• Yeməkləri seçir.+1
•Yeməklərin bəzilərindən imtina edir.–1
• Gec, həvəssiz yeyir. Yeməsinə nəzarət etmək lazım gəlir.–2
•Yeməyə ikrah hissi var, yedirəndə ağlayır. –3

Beləliklə, yuxarıda göstərilən dörd amil üzrə +12 və –12 aralığında adaptasiya səviyyəsi müəyyənləşdirilmişdir.

Təcrübə göstərir ki, adaptasiya prosesi bir gün və ya uzun müddət davam edə bilər. Adaptasiya səviyyəsi uğurlu adaptasiya dövrü və davranışda qarşılıqlı əlaqələrin davametmə müddətindən asılıdır.

Uşağın adaptasiya olunmasının ilkin əlamətləri:

• yaxşı iştaha;
• sakit yuxu;
• uşaqlarla həvəslə ünsiyyət qurmaq;
• tərbiyəçinin müraciətinə müvafiq reaksiya vermək;
• normal emosional vəziyyət.

Tədqiqatdan belə qənaətə gəlmək olur ki, uşağın məktəbəqədər təhsil müəssisəsinə adaptasiyası psixoloji, sosioloji və fizioloji uyğunlaşmalardan irəli gəlir. Psixoloji uyğunlaşmanın ev mühitindən ayrılan uşağın yeni şəraitə daxil olması baxımından uşaq bağçalarının əsas problemi olması aşkarlandı. Uşaqların məktəbəqədər təhsil müəssisələrinə fizioloji uyğunlaşmasında da problemlər müşahidə edilmişdir.

Beləliklə, araşdırmalar nəticəsində uşaqların məktəbəqədər təhsil muəssisələrinə tam uyğunlaşmaları uçün aşağıdakı məsələlərə diqqət yetirilməsinin zərurililiyi sübut edilmişdir:

1. ***Psixoloji uyğunlaşma** prosesinin optimallaşdırılması:*

• həyəcan səviyyəsini azaltmaq ;
• komfort vəziyyət yaratmaq;
• sosial kommunikabelliyi formalaşdırmaq.

2. ***Fizioloji uyğunlaşma** prosesinin optimalaşdırılması:*

• məktəbəqədər təhsil müəssisələrində təhsilalanların xəstələnmə səviyyəsinin aşağı düşməsi;

• uşaqların fiziki inkişaf səviyyəsini yüksəltmək.

*3. Psixoloji və fizioloji uyğunlaşmanı həyata keçirmək.*

Yuxarıda göstərilən problemləri aşağıdakı prinsiplər əsasında həll etmək məqsədəuyğundur:

• yaş və psixoloji xüsusiyyətlərin uyğunluğu prinsipi;

• metodikaların həyata keçirilməsidə ardıcıllıq və mərhələlilik prinsipi;

• komplekslilik prinsipi;

• yaradıcı fəallıq prinsipi;

• uşaq, valideyn və tərbiyəçi arasında münasibətlərdə etibarlılıq prinsipi;

• valideynlərin maarifləndirilməsi, uşaqların təlimi və sağlamlaşdırılması;

• valideynlərin gün rejimi, uyğunlaşma dövrünün xüsusiyyətləri və onun gedişatından asılı olan faktorlarla tanışlığı.

Uşaqlara yanaşmanın fərdiliyi, diferensiasiyasının təminatı məqsədi ilə onların fizioloji vəziyyətlərinin və psixoloji hazırlıqlarının diaqnostikası aparılır. Bu məqsədlə aşağıdakı yollardan istifadə olunması məqsədəuyğundur:

• Uşaqların sağlamlıq kartları öyrənilir. Bu, hər bir uşağın fizioloji vəziyyəti haqqında rəy tərtib etməyə, müəyyən xəstəlikləri aşkara çıxarmağa və işin gedişində əldə olunacaq məlumatları nəzərə almağa imkan verir.

• Valideynlərlə söhbət və anketləşdirmə təşkil olunur. Uşağın sosiallaşması, gün rejiminə uyğunlaşması, psixoloji vəziyyətini, fərdi-şəxsi xüsusiyyətlərini aşkara çıxarmaq məqsədi güdür.

• Müşahidə, nəzarət edilir. Uşaq qrupa gələndən sonra onun məktəbəqədər təhsil müəssisəsinə uyğunlaşmasının xarakterini qiymətləndirmək üçün çox vacibdir.

Tərbiyəçinin uşağın üzərində apardığı bütün müşahidələr uyğunlaşma vərəqələrində qeyd olunur. Emosional rahatlıq həm uyğunlaşma dövrünün əvvəlində, həm də sonunda əsas parametr kimi xarakterizə olunur.

Belə kompleks araşdırmalar nəticəsində uşaq bağçasına daxil olan uşaqların emosional vəziyyəti haqqında fikir formalaşır. Bu zaman alınan məlumatlar uşaqların məktəbəqədər təhsil müəssisələrinə uyğunlaşmalarının xarakterinə uyğundur. Beləliklə, uyğunlaşma müddəti ilə emosional rahatlıq arasında əlaqə vardır.

İşin növbəti mərhələsində uşaqların uyğunlaşmalarının yüngülləşməsinə istiqamətlənmiş tibbi-pedaqoji-psixoloji tədbirlər sistemi həyata keçirilir.

Uyğunlaşma dövründə uşaqlarla aparılan işlər aşağıdakı istiqamətləri əhatə edir:

• qrupda rahat, emosional mühitin yaradılması;

• uşaqlarda arxayınlıq hissinin formalaşdırılması.

Tədqiqat göstərir ki, adaptasiya dövründə uşaq qəlbinə uyğun olan poetik, obrazlı, emosional nitqdən istifadə olunması, şeirlərin, laylaların, bayatıların, mahnıların köməyi ilə uşaqların yeni mühiti sevinclə qəbul etmələri, onlara məhəbbət və mərhəmət hisslərinin təmin olunması təhsil müəssisəsinə müvəffəqiyyətlə uyğunlaşma prosesini sürətləndirir.

Uşağın fizioloji vəziyyəti, onun ətrafdakılarla ünsiyyətinin formalaşması, əşyalarla fəaliyyətinin inkişafı adaptasiya dövrünün xarakterini müəyyənləşdirən mühüm amillərdir.

**ədəbiyyat**

1. Kərimov Y.Ş. Uşağın məktəbə hazırlanmasının ümumpedaqoji məsələləri.(Altıyaşlı uşağın məktəbə hazırlanması). Bakı: "Maarif", 1980.

2.Həmzəyev M.Ə. Altıyaşlıların təlimə psixoloji hazırlığı haqqında. Bakı, "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnalı, 1985, №4.

3. Əhmədova A., Əliyeva Ş.Q. Uşaqların emosional aləminin inkişafı. Bakı: "Elm və təhsil", 2012.

4.Антропов М.В.,Хрипков А.Г. Адаптация организма учащихся к учебной и физической нагрузкам. Москва: «Педагогика», 1982.

**ВОЗМОЖНОСТИ АДАПТАЦИИ ДЕТЕЙ ДОЩКОЛЬНОГО ВОЗРАСТА В РАЗВИВАЮЩЕМСЯ УЧЕБНОМ ПРОЦЕССЕ**

**резюме**

В статье указывается основная цель периода адаптации, которая заключается в помощи ребенку быстро и без дискомфорта привыкнуть к незнакомой среде и чувствовать себя комфортно. Ребенок чувствует себя непринужденно в том случае, когда понимает, что окружают его искренние, заботливые и ласковые люди. Для обеспечения заботы воспитателей и родителей в этой области необходима целенаправленная работа по повышению информаций по адаптации детей в детском саду.

**ADAPTATION OPPORTUNITES FOR PRESCHOOL CHILDREN IN THE DEVELOPINQ LEARNINQ PROCESS**

**summary**

The main objective the period of adaptation to help the child quickly and without discomfort to get used to the unfamiliar environment and to feel comfortable. The child feels easy in that case when he understands that sincere, careful and tender people surround it. Purposeful work on increase of information on adaptation of children in kindergarten is necessary for ensuring care of tutors and parents in this area.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNİN TƏRBİYƏÇİLƏRİNƏ VERİLƏN TƏLƏBLƏR

**Səidə Abdullayeva,**
ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası
və metodikası kafedrasının baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru



**açar sözlər:** məktəbəqədər təhsil, uşaq bağçası, tərbiyə, tərbiyəçi, kurikulum, şəxsiyyət, standartlar, peşə;

**ключевые слова:** дошкольное образование, детский сад воспитание, воспитатель (ница), куррикулум, личность, стандарты, профессия;

**key words:** preschool education, kinderqarten, education, educator, curriculum, personality, profession.

*Mən yer üzündə müəllimdən*
*yüksək və şərəfli ad tanımıram.*
**Heydər Əliyev**

Məktəbəqədər pedaqoji prosesin məqsədi uşaqların erkən yaşlardan mənəvi, psixi, əqli, fiziki inkişafını, ilkin bilik, bacarıq və vərdişlərinin formalaşdırılmasını təmin etməkdir. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda göstərilir: “Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun şəkildə uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnmələrini, istedad və qabiliyyətlərinin aşkara çıxarılmasını, sağlamlıqlarının qorunmasını, estetik tərbiyəsini, təbiət və insanlara həssas münasibətinin formalaşmasını təmin edir.” (maddə 18.1) Bu pillədə uşaqların təhsili, təlim-tərbiyəsinin müasir tələblərə müvafiq təşkili tələb olunur. Məktəbəqədər təhsilin məqsədi “Uşaqların ümumi inkişafı, onların şəxsiyyətinin formalaşdırılması, təlim-tərbiyənin səmərəliliyinin artırılması, inkışaf prosesində baş verə biləcəkləngimələrin, pozulmaların aradan qaldırılması, uşaq–uşaq, uşaq–tərbiyəçi, uşaq– valideyn, valideyn–tərbiyəçi münasibətlərini formalaşdırmaq və istedadlı uşaqların erkən yaşlardan aşkar olunmalarını təmin etməkdən ibarətdir”. (Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı ) ( 2, səh.4 ).

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda və digər normativ-hüquqi sənədlərdə qeyd olunur ki, məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsi sahəsində vəzifələrin uğurla həyata keçirilməsi pedaqoji kollektivin, tərbiyəçinin fəaliyyətindən, onun peşə səriştəliliyindən asılıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 iyul, 2010-cu il tarixli, 137 nömrəli qərarı ilə təsdiq olunmuş “Məktəbəqədər təhsilin dövlət standartı və proqramı”nda tərbiyəçinin keyfiyyət göstəriciləri belə qeyd olunur:

5.2. Tərbiyəçilər təhsilli olmalıdırlar. Onların keyfiyyət göstəricilərinə aşağıdakılar daxildir:

• yeni interaktiv təlim metodlarından, İKT-dən istifadə etmək bacarığı;
• uşaqların yaş psixologiyasını yaxşı bilmək;
• uşaqların meyil, maraq və qabiliyyətlərini inkişaf etdirmək;
• uşaqların yaş səviyyəsini, potensial imkanlarını nəzərə almaqla təlim metodlarını düzgün seçmək;
• uşaqlarla münasibətdə səmimilik, qayğıkeşlik, pedaqoji mədəniyyət taktlarına əməl etmək;
• tədris mühiti və işgüzar şərait yaratmaq bacarığı. (3, səh. 5)

Respublikamızda ziyalıların böyük bir hissəsini müəllim və tərbiyəçilər təşkil edirlər. Müəllim və tərbiyəçi əməyi şərəflidir, çünki onlar cəmiyyət üçün dəyərli, zəkalı, tərbiyəli vətəndaşlar hazırlayırlar. Dahi çex pedaqoqu Y.A.Komenski (1592–1670) müəllimi şüa saçan günəşə bənzətmişdir: "Günəş öz şüaları ilə təbiətə həyat verdiyi kimi, müəllim də saçdığı bilik şüaları ilə gənc nəsli həyata hazırlayır".

Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsində tərbiyəçinin rolu böyükdür. İctimai varlıq olan insan fəaliyyət prosesində başqaları ilə ünsiyyətə girir, müxtəlif sosial vəzifələri yerinə yetirir. Kollektivdə tutduğu mövqedən asılı olaraq, şəxsiyyətin mənəvi keyfiyyətləri formalaşır.

K.D.Uşinski qeyd edirdi: "Əgər biz həkimlərə öz sağlamlığımızı etibar ediriksə, pedaqoqlara uşaqlarımızın əxlaqını, ağlını, ruhunu və vətənimizin gələcəyini etibar edirik".

Cəmiyyətin sosial sifarişini yerinə yetirmək üçün tərbiyəçi-müəllim daim öz üzərində işləməli, tələbkar olmalıdır.

Kiçikyaşlıların tərbiyəsində tərbiyəçi həm ana, həm müəllim, həm də həkimdir. Ona görə də klassik pedaqoqlar tərbiyəçi şəxsiyyətini yüksək qiymətləndirmişlər. K.D.Uşinski belə hesab edirdi ki, hər bir uşaqda xarakter, əxlaq formalaşdırmaq və inam yaratmaq tərbiyəçinin işidir. Görkəmli tənqidçi və pedaqoq N.A.Dobrolyubov yazırdı: "Əvvəllər mənim tərbiyə, təlim haqqında biliklərim səthi idi. Pedaqoq olduqdan sonra belə qənaətə gəldim ki, uşaqlara bilik vermək üçün onları sevmək lazımdır".

Tərbiyəçi uşaqların lüğət ehtiyatını zənginləşdirir, nitqini inkişaf etdirir, onlara ətraf aləmdə baş verən hadisələri əlaqələndirməyi, fikrini müstəqil ifadə etməyi, ümumiləşdirməyi, nəticəyə gəlməyi öyrədir.

Tərbiyəçi uşaqların həyatı, təhlükəsizliyi üçün məsuliyyət daşıyır. O, uşağın fiziki və psixoloji sağlamlığının qoruyucusudur, gün rejiminin dəqiq yerinə yetirilməsinə cavabdehdir.

Tərbiyəçi yüksək əxlaqi keyfiyyətlərə malik olmalı, uşaqlar arasında heç bir fərq qoymamalı, davranışı və mədəni səviyyəsinə görə onlara nümunə göstərməlidir. Uşaqlar tərbiyəçinin səsini, yerişini, başqaları ilə münasibətini təqlid edərək, öz oyunlarında, yoldaşları ilə rəftarında ona oxşamağa çalışırlar. Ona görə də tərbiyəçi öz hərəkətlərinə, davranışına və danışığına diqqət yetirməlidir.

Tərbiyəçi ilə uşağın ünsiyyəti fəaliyyət prosesində yaranır. Tərbiyəçi sadə, təvazökar olmalı, uşaqlarla mehriban davranmaqla yanaşı, yeri gəldikdə onlara tələbkarlıq göstərməlidir. Bu xarakter xüsusiyyətləri ünsiyyət prosesində özünü göstərir.

Azərbaycanın görkəmli maarifçi pedaqoqu S.M.Qənizadə müəllimlik peşəsini yüksək qiymətləndirmişdir. O yazırdı: "Müəllimin dövləti kitabxanalar, istirahəti dəftər yoxlamaq, musiqisi uşaqların səs-küyü, qazancı isə el məhəbbətidir". Azərbaycan təhsili və pedaqoji fikrinin görkəmli nümayəndələrindən biri, professor Nurəddin Kazımov tədqiqatlarında müəllim, tərbiyəçi peşələrinin aşağıdakı prinsiplərini müəyyənləşdirmişdir:

• vətənpərvərlik prinsipi;
• peşə fədakarlığı prinsipi;
• humanizm prinsipi;
• həmrəylik və kollektivçilik prinsipi;
• pedaqoji nikbinlik prinsipi (3, səh.24).

Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyəçidən müəyyən peşələri, musiqi, loqopediya, surdopedaqoqika və s. ixtisasları bilmək tələb olunur. Tərbiyəçilik peşəsi məzmununa görə aşağıdakı tələblərə cavab verir:

• ictimai-siyasi tələblər;
• şəxsi, sosial-psixoloji və etik-pedaqoji tələblər;
• pedaqoji-psixoloji, nəzəri və metodik hazırlıq.

Tərbiyəçi öz işinin öhdəsindən gəlmək üçün bir sıra şəxsi keyfiyyətlərə malik olmalıdır. O, şəxsiyyət kimi, aşağıdakı keyfiyyətlərə yiyələnməlidir:

• yüksək nüfuz sahibi olmaq;
• peşəsi üzrə dərin biliyə yiyələnmək;
• yüksək mənəviyyata malik olmaq;
• ədalətli və xeyirxah olmaq.

Tərbiyəci yüksək səviyyədə əxlaqlı vətəndaş olmalı, vətən sevgisini nümayiş etdirməli, uşaqlara vətənpərvərlik hissi aşılamalıdır.

Tərbiyəcinin qarşısında aşağıdakı vəzifələr durur:

• Öz peşəsini dərindən bilməlidir.
• Uşaqların davranışına nəzarət etməlidir.
• Nitqinin səlistliyi, səsinin ahəngi ilə uşaqların diqqətini cəlb etməlidir.

Tərbiyəçinin pedaqoji fəaliyyətinin xüsusiyyətləri aşağıdakılardır:

• Tərbiyəçilik çətin və məsuliyyətli peşədir. O, kiçikyaşlı uşaqların tərbiyə və inkişafının təməlini qoyur.
• Tərbiyəçilik mürəkkəb peşədir. Məktəbəqədər yaş dövründə– uşaqların sürətlə dəyişdiyi inkişaf dövründə tərbiyəçi onlarla çoxsahəli təlim-tərbiyə işi aparır.
• Tərbiyəçilik yaradıcı işdir. O, yalnız hazır metodika ilə şablonlarla işləyə bilməz.
• Tərbiyəçi fəaliyyətində müstəqil və yaradıcı olmalıdır.

Tərbiyəçi aşağıdakı bacarıqlara malik olmalıdır:

• pedaqoji nəzəriyyəni bilmək və ondan yaradıcı istifadə etmək;
• özünün və yoldaşlarının təcrübəsini ümumiləşdirmək, qabaqcıl pedaqoji təcrübədən istifadə etmək;
• elmi tədqiqatla məşğul olmaq;
• psixologiyanı bilmək və fəaliyyətində ondan istifadə etmək və s.

Qeyd olunan bacarıqların lazımi səviyyədə yerinə yetirilməsi tərbiyəçinin təşkilatçılıq qabiliyyətindən çox asılıdır. Təşkilatçılıq bacarıqlarına aşağıdakılar daxildir:

• uşaqları ictimai işlərə cəlb etmək;
• uşaqları faydalı əməyə cəlb etmək;
• uşaqların boş vaxtlarını səmərəli keçirmələrini təmin etmək və s.

Tərbiyəçi uşağın yaş və fərdi xüsusiyyətlərini, fiziki, psixi sağlamlığını nəzərə alaraq, onun hərtərəfli inkişafı, təlim-tərbiyəsini səmərəli şəkildə həyata keçirmək üçün məsuliyyət daşıyır.

Tərbiyəçi uşaqlara şəxsi nümünəsi ilə təsir göstərir. Yüksək təqlidçilik bacarığına malik olan, dünyanı yenicə dərk etməyə başlayan uşaqlar tərbiyəçidən həyat dərsi alırlar.

Məktəbdə müəllim, uşaq bağçasında tərbiyəçi işləmək olduqca müqəddəs fəaliyyət sahəsidir. Onlar öz gərgin və qiymətli əməyi ilə cəmiyyət üçün yeni ruhlu vətəndaşlar hazırlayırlar. Uşaqların mədəni inkişafına, əxlaqlarının kamilləşməsinə, dünyagörüşünün inkişafına çalışmaq çox şərəfli işdir. Müasir tərbiyəçi əxlaqlı, yaradıcı, peşə vərdişlərinə, pedaqoji ustalığa malik və yenilikçiliyə meyilli şəxsiyyət olmalı, təhsilin əhəmiyyətini anlamalı, mədəni olmalı, şəxsiyyətyönümlü pedaqoji tərbiyə metodlarından istifadə etməli, öz intellektual səviyyəsini inkişaf etdirməyə çalışmalıdır. Tərbiyəçi pedaqoji prosesdə hər bir iştirakçının yerini görməli, onların fəaliyyətini təşkil etməli, nəticələrini qiymətləndirməlidir.

**ədəbiyyat**

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: "Hüquq ədəbiyyatı", 2009.
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu), Bakı, 2013.
3. Məktəbəqədər təhsilin standartları və proqramı. Bakı, 2010.
4. Rəhimova S. Məktəbəqədər yaşlı uşaqların sosial-mədəni tərbiyəsinin təşkili. Bakı, 2010.
5. İlyasov M. Müəllim və tərbiyəçinin pedaqoji ustalığı. Bakı, 2013.
6. Nəzərov A. Pedaqoji ustalıq. Bakı, 2011.

**ТРЕБОВАНИЯ ВЫДВИГАЕМЫЕ ПЕРЕД ВОСПИТАТЕЛЯМИ ДОШКОЛЬНЫХ УЧРЕЖДЕНИЙ**

**резюме**

В статье расказывается о требованиях выдвигаемых перед воспитательями дошкольных образовательных учреждений. Так же излагаются требования относящиеся к личности и деятельности воспитателя в современном этапе.

**REQUIREMENTS REQUIRED BEFORE THE TRAINERS PRESCHOOL INSTITUTIONS**

**summary**

In the article it is told about the requirements of pre-school educational institutions put forward before the teachers. It also sets out the requirements relating to the personality and activities of the caregiver in the contemporary stage.

# MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ TƏLİM-TƏRBİYƏNİN TƏŞKİLİ TƏCRÜBƏSİNDƏN

**Aybəniz Sadıxova,**
Xırdalan şəhəri, 23 nömrəli "Günəş"
körpələr evi–uşaq bağçasının müdiri



**açar sözlər:** məktəbəqədər müəssisə, məktəbəhazırlıq qrupu, məktəbəqədər yaşlı uşaq, məktəbəqədər təhsil, sağlam təlim mühiti, kadr potensialı, müasir idarəetmə modeli;

**ключевые слова:** дошкольное учреждение, подготовительная группа, дошкольное образование, здоровая среда обучения, ребенок дошкольного возраста, кадровый потенциал, современная модель управления;

**key words:** preschool, preparatory group, preschool education, healthy learning environment, pre-school child, human resource potential, modern management model.

"Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu Azərbaycan Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, məktəbəqədər təhsilin təmin olunması sahəsində dövlət siyasətinin prinsiplərini, hüquqi, iqtisadi əsaslarını, təhsilin təşkili məsələlərini müəyyən edir. Müasir tələblərə uyğun fəal maarifçilik kursunun həyata keçirilməsi, intellektual potensialın gücləndirilməsi, mütərəqqi islahatların tətbiqi ilə milli təhsil sisteminin yeniləşdirilməsi, Avropa təhsilinə inteqrasiya ölkədə reallaşdırılan dövlət siyasətinin tərkib hissəsidir.

Təhsilin bütün istiqamətlərdə inkişafı ciddi investisiya tələb etdiyindən son illərdə dövlət tərəfindən bu sahəyə sərmayə qoyuluşu qlobal layihələrə başlamaq üçün əlverişli şərait yaratmışdır. Ölkəmizin sosial-iqtisadi və mədəni inkişaf yollarını müəyyənləşdirən "Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası"nda ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatı"na keçidin əsasının qoyulması, bunun üçün həlledici amil olan insan kapitalının inkişafının ön plana çəkilməsi nəzərdə tutulmuşdur. Bu, təhsil sistemində köklü dəyişikliklər edilməsini, əlavə təhsil, ömür boyu təhsil kimi komponentlərin əhəmiyyətini artırır. Bu baxımdan "Təhsilin istiqamətləri üzrə Dövlət Strategiyası"nın prioritet istiqamətləri üzrə ciddi tədbirlər həyata keçirilir.Təhsil sistemində şəffaflığın təmin edilməsinə, yeni yanaşmaların tətbiqinə, müasir idarəetmə modelinə keçilməsinə, kadr potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilir. Müəllim, tərbiyəçi peşələrinin ictimai nüfuzu yüksəlir.

Dünyanın qloballaşması və informasiya bolluğu şəraitində, cəmiyyətin digər sahələrində olduğu kimi, təhsilin də vəzifələri dəyişir. Müasir dövrdə demokratik, hüquqi, dünyəvi dövlət kimi formalaşan Azərbaycanın təhsil sisteminin mütərəqqi ölkələrin təhsil sisteminə inteqrasiya olunması mühüm əhəmiyyət kəsb edir. "Təhsil sahəsində İslahat Proqramı" təhsilalanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, fəaliyyəti təhsilalanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılmasını mühüm vəzifə kimi irəli sürür. Bütün bunlar təhsil sahəsində yeni məzmun və struktur dəyişiklikləri ilə nəticələnir.



Azərbaycan Respublikasında gedən inkişaf öz təsirini təhsil sahəsinə də göstərir. Təhsil sistemində aparılan islahatlar nailiyyətlərin artmasına səbəb olur. Məktəbəhazırlıq qruplarının yaradılmasından əsas məqsəd beşyaşlıların tələb və imkanlarını nəzərə almaqla, ilkin mərhələdə onların tərbiyəsi, təhsili və inkişafı prosesini təşkil etməkdir.

Məktəbəhazırlıq qruplarının təşkili "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (3–6 yaş)" əsasında həyata keçirilir. Məktəbəhazırlıq qrupları məktəbəqədər təhsil müəssisələrində, məktəblərdə və qısamüddətli təlim qruplarında təşkil oluna bilər.

Məktəbəhazırlıq qruplarının fəaliyyəti aşağıdakı hüquqi sənədlərlə tənzimlənir:

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu;
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı;
3. Məktəbə hazırlığın təşkili qaydaları.

Bu sənədlərin təhlili göstərir ki, məktəbəhazırlıq qruplarının təşkilinə dövlət tərəfindən ardıcıl və sistemli nəzarət olunur.

Təlim prosesində kiçikyaşlıların fəaliyyəti eşidib yadda saxlamaq, oxuyub nəql etmək, nümunələrə uyğun misal və məsələlər həll etməklə məhdudlaşmamalıdır. Təlim materialı şagirdləri yaradıcı düşünməyə, tədqiqat aparmağa, təfəkkürün inkişafına istiqamətləndirməlidir. Beləliklə, təlim prosesinin müvəffəqiyyəti şagirdlərin fəallıq göstərərək, tədris materialı üzərində səmərəli işləyərək onu mənimsəmələrindən çox asılıdır. Gələcək ibtidai sinif şagirdinin belə bacarıqlara nail olması onun məktəb mühitinə hazırlığını təmin edir.

Bütün bunları nəzərə alaraq, məktəbəhazırlıq üzrə nəzərdə tutulan istiqamətlərin şərhini verə bilərik. Məktəbəhazırlığın əsas istiqaməti *fiziki hazırlıqdır*. Bu istiqamət aşağıdakıları əhatə edir:

- fiziki qabiliyyətlərin inkişafı;
- uşağın sağlamlığının vəziyyəti, orqanizmin morfofunksional yetişkənliyi;
- hərəki fəaliyyətin, xüsusilə kiçik motorikanın koordinasiyasının inkişafı.

Məktəbəhazırlığın ikinci istiqaməti *şəxsiyyətyönümlü təhsildir*. Bu istiqaməti müstəqillik, məsuliyyətlilik, ünsiyyət, fəallıq, təşəbbüskarlıq, başqasını dinləmək, öz hərəkətlərini onunla razılaşdırmaq, müəyyən edilmiş qaydalara riayət olunması, qruplarda işləmək bacarığı, ünsiyyətin, özünüqiymətləndirmənin formalaşması təşkil edir.

Məktəbəhazırlığın intellektual tərəfini obrazlı və məntiqi təfəkkürün inkişafı, ana dilində nitqin əsas formalarına yiyələnmək, prosesləri və ya obyektləri müqayisə etmək, ümumiləşdirmək, qruplaşdırmaq, nəticə çıxarmaq, qiymətləndirmək bacarıqları təşkil edir.

*Sosial hazırlıqda* isə yüksək əxlaqi təsəvvürlərin, vətənpərvərlik, humanistlik hisslərinin inkişafı; böyüklər və yaşıdlarla ünsiyyət prosesində mədəni davranış qaydalarının mənimsənilməsi; öz hərəkətlərində əxlaqi normaların rəhbər tutulması, onlara riayət olunması əhatə edilir.

Məktəbəhazırlıq proqramında verilən bu istiqamətlər uşaqların ilkin həyati bacarıqlarının formalaşmasını nəzərdə tutur.

Biz, Xırdalan şəhərində yerləşən 23 nömrəli "Günəş" körpələr evi-uşaq bağçasının kollektivi, deyilənləri fəaliyyətimizdə rəhbər tutaraq, dövlətimizin məktəbəqədər tərbiyə sahəsində qarşıya qoyduğu tələbləri yerinə yetirməyə çalışırıq. Kollektivimizin üzvlərindən Kifayət Xəlilova (metodist), Bikə Mehdiyeva, məktəbəhazırlıq qrupunun tərbiyəçiləri Səadət Saadova, Xumar Hüseynova, Leyla Əhmədova, Vüsalə Nəsibova, Günay Eynullayeva, Sevil Zeynalova, musiqi rəhbəri Vüsalə Qarayeva müəssisəmizin nailiyyətlərinə öz töhfələrini verən qabaqcıl pedaqoqlardır. Kollektivdə sağlam rəqabətə əsaslanan iş prosesi bərqərardır.

Tərbiyəçilərimiz uşaqlarla nitq inkişafı, riyazi təfəkkür, diqqət, hafizə, düşüncə ilə bağlı testlər yerinə yetirir, onların intellektual səviyyələrinin yüksəlməsini diqqət mərkəzində saxlayırlar. Uşaqlara riyaziyyat, ətraf aləmlə tanışlıq, musiqi, rəsm, əmək və s. fənlərin ilkin əsasları öyrədilir.

Tərbiyəçilərin və uşaqların müxtəlif əşyalardan, təbiət materiallarından hazırladıqları əl işləri divarları bəzəyir. Dəniz və səmanı xatırladan, mavi çalarları ilə otaqların interyerini tamamlayan rəngarəng əşyalar onlara xüsusi yaraşıq verir. Uşaqlar müxtəlif oyun guşələrində inşaat alətlərindən, məişət əşyalarından necə istifadə etməyi, maqnit lövhələrdə yol hərəkəti qaydalarını öyrənirlər.

Bizim bir amalımız var: uşaqları – gələcəyin vətəndaşlarını ailəsinə, vətəninə məhəbbət ruhunda böyüdüb, tərbiyə etmək! Ailəsini, valideynlərini, doğmalarını, dostlarını sevməyən insan heç vaxt vətəninin təəssübünü çəkə bilməz. Belə sevgi ilə böyüyən uşaqlar üçün vətən həmişə müqəddəs olacaq.

Hər il 1918-ci il mart qırğınları günündə, 20 Yanvar –Hüzn günündə, Xocalı şəhidlərinin anım gününndə uşaqlarımız Şəhidlər Xiyabanını, Xocalı abidəsini ziyarət edir, bağçada şəhidlərə həsr olunmuş guşəyə qızılgüllər, qərənfillər düzürlər. Bu tədbirlər uşaqların yaddaşında dərin izlər buraxır. 2016-cı ildə bizim məktəbəqədər müəssisə Abşeron rayonu üzrə "İlin bağçası" adına layiq görülmüşdür.

Məktəbəhazırlıq qrupunda uşaqlar üçün sağlam təlim mühitinin yaradılmasında tərbiyəçilərin rolu əvəzsizdir. Onların qarşısında aşağıdakı tələblər qoyulur:

1. Tərbiyəçi uşağın yaş psixologiyasını bilməlidir.
2. O, uşağın meyil, maraq və qabiliyyətlərini aşkara çıxarıb, inkişaf etdirməlidir.
3. Tərbiyəçi təlim metodlarını seçərkən uşağın yaş səviyyəsini, potensial imkanlarını nəzərə almalıdır.
4. O, pedaqoji mədəniyyətə malik olmalı, uşaqlara səmimi, qayğıkeş münasibət nümayiş etdirməlidir.
5. Qrup otağında səmərəli təlim mühiti və işgüzar şərait yaratmalıdır.
6. O, interaktiv təlim metodlarından, informasiya və kommunikasiya texnologiyalarından istifadə etməyi bacarmalıdır.

Məktəbəhazırlıq qruplarında uşaqların məktəbə uyğunlaşmaları əsas vəzifə kimi qarşıya qoyulur. Uşaqların fəaliyyəti standart nəticələrlə, digər uşaqların nailiyyətləri ilə müqayisə edilməməlidir. Ən mühüm yanaşma uşağın nailiyyətlərinin özü tərəfindən düzgün müqayisə edilməsidir. Uşağın eyni fəaliyyət formasında bu gün dünənkindən az səhvə yol verməsi onun uğuru kimi qiymətləndirilməlidir.

Təlim prosesində uşaqlarda özünəinam hissi yaradılmalıdır. Bu, onların nailiyyət qazanmalarına kömək edən əsas amillərdən biridir.

Məktəbəhazırlıq qrupunda təlim-tərbiyə alan uşaqlara səbrlə yanaşmaq lazımdır, çünki onlar oyun fəaliyyətini daha az əyləncəli təlim fəaliyyəti ilə əvəz edirlər. Bu baxımdan uşaqların məktəb fəaliyyətinə hazırlığının səmərəliliyi oyunlardan nə dərəcədə istifadə olunmasından asılıdır. Pedaqoq beşyaşlıların oyun fəaliyyətindən istifadə edərək təlim məqsədlərini həyata keçirməyi bacarmalıdır. Oyunların təlim prosesində tətbiqi ilə həm təlim, həm də oyun vəzifələri

yerinə yetirilir. Aşağıda tərbiyəçi Xumar Hüseynovanın "Nərgiz" məktəbəhazırlıq qrupunda bir məşğələ nümunəsini təqdim edirik.

**Qrup:** məktəbəhazırlıq ;

**Məşğələ:** sadə riyazi təsəvvürlərin inkişafı;

**Mövzu:** 10 dairəsində sayın möhkəmləndirilməsi; 10 dairəsində məsələ, misal həlli;

**Məqsəd:** 10 dairəsində hesablama;

**İnkişaf sahəsi:** 2. idrakın inkişafı;

**Standart: 2.2.1**. • On dairəsində sayma, hesablama və ölçmə əməliyyatlarını yerinə yetirir.

- Məsələ tərtib etməyi və həllini öyrənir.
- Ədədləri saymaq bacarığı möhkəmlənir.

**İnteqrasiya.** S.ə. 4.1.2. Məsələnin həllini axtararkən özünəinam, təşəbbüskarlıq və müstəqillik nümayiş etdirir.

**Es. 3.2.1.**Rəsmetmə bacarıqları nümayiş etdirir.

**Es. 3.2.2.** Müstəqil yaradıcılıq (təsviri fəaliyyət, musiqi, rolların ifası) qabiliyyətləri nümayiş etdirir.

**İş forması:** qruplarla iş

**Metodlar və priyomlar:** oyun, əlaqə, əks-əlaqə, beyin həmləsi, söz assosiasiyası;

**Resurslar:** paylayıcı və nümayişetdirici vəsaitlər.

**Məşğələnin gedişi**

**I mərhələ. Motivasiya.** Uşaqlar salamlaşıb əyləşirlər. Bu zaman əlində kitab, arxasında çanta olan bir uşaq oxuya-oxuya qrupa daxil olur.

Uşaq: – Kitab aldım əlimə,
Çanta atdım belimə.
Döndüm bilik evinə,
Ax, Çoxbilmişəm mən, lap çox bilmişəm mən.

Onun qarşısına bir uşaq çıxıb soruşur:

–Sən kimsən, ay uşaq?

–Bəs sən kimsən?

–Mən çoxbilmişəm.

–Mən də Çoxbilmişəm.

–Sən nəyi çox bilirsən?

–Bəs sən nəyi çox bilirsən?

–Mən saymağı, toplamağı, hesablamağı, bir sözlə – riyaziyyatı çox sevirəm, həm də yaxşı bilirəm. İndi də özümə riyaziyyatı yaxşı bilən dostlar axtarıram.

–Mən də riyaziyyatı çox sevirəm. Gəl mənimlə dost olaq.

–Mən sənə bir neçə sual verəcəyəm. Əgər cavabını düz tapsan, biləcəyəm ki, sən də çoxbilmişsən. Onda səninlə dost olacağam.

Çoxbilmiş:

–Nadir dedi ki, nənə,
Gəl nağıl danış mənə!
Əvvəl Cırtdandan danış,
Sonra yumru Qoğaldan.
Ondan sonra Keçidən,
Sonra Məlikməmməddən.
Məəttəl qaldı nənə.

Soruşdu nəvəsindən:
– Neçə nağıl danışım
Mən bir gecəyə sənə?
Nadir sayana qədər
Nağılların sayını,
Bəlkə sən söyləyəsən
Sualın cavabını?

Uşaq sualı cavablandırır.

– Afərin sənə. Mən sənə bir sual da verəcəyəm. Ağacda 10 qarpız yetişmişdi. Bağban onun 2-ni dərdi. Ağacda neçə qarpız qaldı?

Uşaq qarpızın ağacda yetişmədiyini söyləyərək sualı cavablandırır.

–Afərin sənə, ay uşaq. Bəs de görüm, dairənin neçə bucağı var?
Uşaq:
– Heç dairənin də bucağı olar? Üçbucağın, kvadratın bucağı var.
Çoxbilmiş:
– Afərin sənə, ay uşaq. Bəs sən bütün bunları harada öyrənmisən?
Uşaq:
–Mən bunları bağçada öyrənmişəm. Bu gün bizim məşğələmiz var. Gəl sən də gedək. Özünə çoxlu dostlar qazanarsan.
Onlar tərbiyəçiyə yaxınlaşırlar, uşaq deyir:
–Bu, Çoxbilmişdir. O, özünə bilikli dostlar axtarır. Mən də buraya gətirdim.
Tərbiyəçi:
– Xoş gəlmisən, Çoxbilmiş. Buyur, məşğələmizdə iştirak elə. Mən inanıram ki, sən özünə çoxlu dostlar tapacaqsan. Uşaqlar, gəlin bildiklərimizi göstərək ki, o, sizin də dostunuz olsun.

**II mərhələ. Dərketmə.**

Tərbiyəçi:
– Biz sizinlə riyaziyyat məşğələlərində nələri öyrənmişik?
– Saymağı, hesablamağı, həftənin günlərini, həndəsi fiqurları, "az-çox", "böyük-kiçik" anlayışlarını müqayisə etməyi, məsələ qurmağı öyrənmişik.
Tərbiyəçi:
– Dediniz ki, saymağı öyrənmişik. Neçəyə qədər saymağı bilirik?
– 10-a qədər.
– Belə bir tapşırığımız var. İlbiz öz yuvasına getmək istəyir, amma yolu tapa bilmir. Siz çoxdan aza doğru sayaraq ilbizi yuvasına gətirməlisiniz.
Bir uşaq yazı taxtasında tapşırığı yerinə yetirir: çoxdan aza doğru sayır. Başqa bir uşaq rəqəmləri azdan çoxa doğru düzüb sayır.
Tərbiyəçi:
– Uşaqlar, 10 ədədi hansı rəqəmlərin cəmindən əmələ gəlir? (Uşaqlar sualı cavablandırırlar.)
Çoxbilmiş:
– Müəllimə, mən uşaqlara bir tapşırıq gətirmişəm: Lalənin güldanı var. Onun güldanı nə böyükdür, nə balaca. İçində gülü də yoxdür.
Uşaq güldanların içindən əlamətlərə uyğun olan güldanı göstərərək cavab verir.
Tərbiyəçi:
–Mən də Çoxbilmişə bir tapşırıq verəcəyəm. Tapşırıqda misallar verilib. Səhv cavabları göstərsin.
Çoxbilmiş tapşırığı yerinə yetirir. Tərbiyəçi onu tərifləyir.
Çoxbilmiş:
–Ay uşaqlar, bəs siz dediniz ki, rəqəmləri tanıyırsınız? Deyin görüm, bu rəqəmlər sizə nələri xatırladır?
Uşaqlar 3, 4, 7, 8, 9 rəqəmlərinin nələri xatırlatdığını söyləyirlər.
3 rəqəmi – Bayrağımızın üç rəngli olduğunu xatırladır. Hər fəsildə 3 ay var.
4 rəqəmi – Bir ildə 4 fəsil var.
7 rəqəmi – Bir həftədə 7 gün var. Göy qurşağının 7 rəngi var.
8 rəqəmi – Bayrağımızın üzərində səkkizguşəli ulduz var.
9 rəqəmi – Noyabrın 9-da "Bayraq günü"nü qeyd edirik.
Çoxbilmiş uşaqları tərifləyir:
–Afərin sizə, uşaqlar.
Tərbiyəçi:
–Uşaqlar, siz bu il məktəbə gedəcəksiniz. Dərslərinizi əla oxumaq üçün neçə qiymət almalısınız?

Uşaqlar sualı cavablandırır, 5-ə aid şeir söyləyirlər. Sonra başqa rəqəmlərə aid şeirlər də söyləyirlər.

Tərbiyəçi:

–Afərin sizə, uşaqlar. İndi isə kartlar üzərində tapşırığa keçirik. "Sevincin 9 yaşı tamam olurdu. Atası ona yaşı qədər gül almışdı. Evə gələndə gördü ki, 5 qırmızı gül, 3 sarı gül var. Cəmi neçə gül oldu? Satıcının yadından çıxmış, güllərin hamısını qoymamışdı. O, neçə gülü unudub? Qırmızı gülləri yuxarı zolağa, sarı gülləri aşağı zolağa düzün."

Uşaqlar tapşırığı yerinə yetirirlər.

**İdman dəqiqəsi.**

Bir az yorulmuşuq biz,
Gəlin azca dincələk.
Sonra qalxıb ayağa,
Sağa, sola yellənək:
Əllər uzaq, əllər yaxın,
Siz hoppanın, mən də baxım.

**III mərhələ. Düşünmə.**

Bu mərhələdə test tapşırığı verilir: "Misalları həll edin". Test tapşırığı yoxlanılır, uşaqlar alqışlanırlar.



Qrup işləri təqdim edilir.

"Üçbucaq" qrupu – Əyani vəsaitə baxaraq məsələ qurun.

"Dairə" qrupu – Nağıl qəhrəmanlarını öz mərtəbələrinə yerləşdirin.

"Kvadrat" qrupu – İşarələrə (< , >, =) uyğun olaraq əşyaların şəklini çəkin.

"Düzbicaqlı" qrupu – Bostan məhsullarına aid məsələ qurub həll edin.

Qruplar öz işlərini təqdim edir və alqışlanırlar. Daha sonra "Öz rəqəmini tap" oyunu keçirilir. Kartlarda verilən misalları həll edəndən sonra halqanın içindəki rəqəmin yanına hoppanaraq arxasında dayanır və öz kartını göstərir. Uşaqlar cavabların düzgün olub-onmadığını yoxlayırlar. Rəqəmlər azdan çoxa doğru düzülür. Sonda rəqəmlərin arxasındakı hərflər açılır və "Azərbaycan" sözü oxunur. Çoxbilmiş "Riyaziyyat" mahnısı oxuyur. Uşaqlar onu yola salırlar.

Məşğələ yekunlaşdırılır, tərbiyəçi rəğbətləndirmə, qiymətləndirmə aparır.

Yeni məktəbəqədər təhsil proqramının tətbiqi zamanı ənənəvi texnologiyaların özünü doğrultmuş ayrı-ayrı elementlərindən də istifadə etmək lazımdır. Yeni pedaqoji innovasiyalardan və ənənəvi texnologiyalardan paralel istifadə mövcud proqramların üstünlüklərini azaltmır, əksinə, inkişaf etdirir.

**ədəbiyyat**


1. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası. "Kurikulum", 2008, № 3.
2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. (AR Prezidentinin 1999-cu il, 15 iyun tarixli, 168 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir).
3. Məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı.(AR Pezidentinin 2007-ci il, 12 aprel tarixli, 2089 nömrəli Sərəncamı ilə təsdiq edilimişdir.)
4. Məktəbəqədər təhsilin dövlət standartları və proqramı (kurikulumu).(AR Nazirlər Kabinetinin 2010-ci il, 16 iyul tarixli, 137 nömrəli qərarı ilə təsdiq edilmişdir).


**ОБ ОПЫТЕ ОРГАНИЗАЦИИ ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ В ДОШКОЛЬНЫХ УЧРЕЖДЕНИЯХ**


**резюме**

В статье рассказывается об опыте организации обучения и воспитания в дошкольных учреждениях. Отмечается, что обучение и воспитание в ДОУ предотворяется в жизнь на основании соответствующих законопроектов. Приводится пример занятия по математике в подготовительной группе.


**ON THE EXPERIENCE OF THE ORGANIZATION OF TRAINING AND EDUCATION IN PRESCHOOL INSTITUTIONS**

**summary**

The article tells about the experience of organization of education and upbringing in preschool institutions. It is noted that education and upbringing in the pre-school is being implemented on the basis of relevant bills. An example of a math class in the preparatory group is given.

# ***Konfutsi demişdir :***

- ***Quyu dərin deyil, ip qısadır.***
- ***Ədalət qütb ulduzu kimi yerində dayanır, qalan hər şey onun ətrafında fırlanır.***
- ***Əgər qüsurların varsa, onlardan xilas olmağa çalışmalı, bundan qorxmamalısan.***
- ***Heç kim uğur nərdivanına əlləri cibində çıxmayıb.***
- ***Hər şeydə bir gözəllik var, lakin bunu hamı görməz.***
- ***İnsanlar sahib olduqlarını kiçik hesab edir, sahib ola bilmədiklərini isə böyüdürlər.***
- ***Ağılla hərəkət etmək üçün insanın üç yolu var: birinci, ən nəcib yol – düşüncə, ikinci, ən asan yol–təqlid, üçüncü, ən ağır yol– təcrübə-dir.***
- ***İnsanların ümidləri ilə oynama, bəlkə də tək sahib olduqları şey odur.***
- ***Kiçik nailiyyətlərin arxasınca gedərkən, böyük uğurları əldən qaçıra bilərsiniz.***
- ***Qaranlığı lənətləməkdənsə, bir şam tapıb yandır.***
- ***Bilik insanı şübhədən, yaxşılıq dərd çəkməkdən, qərarlı olmaq qorxudan qurtarar.***
- ***Bir milləti kölə etmək istəsəniz, onun musiqisini məhv edin.***
- ***Almaz yonulmazsa, insan yanılmazsa, mükəmməlləşməz.***
- ***Oxudum – unutdum, gördüm–xatırladım, etdim – öyrəndim.***
- ***Öyrətmək iki dəfə öyrənmək deməkdir.***
- ***Ya bir yol tap, ya bir yol aç, ya da yoldan çəkil.***

# ŞAGİRDLƏRİN RİYAZİYYAT VƏ İNFORMATİKADAN BACARIQ SƏVİYYƏLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNDƏ FORMATİV TESTLƏRDƏN İSTİFADƏ

**Nəbi Mahmudov,**
Bakı şəhəri, 83 nömrəli məktəb-liseyin direktoru,
riyaziyyat üzrə fəlsəfə doktoru
E-mail: nabimm@mail.ru



**açar sözlər**: riyazi və informatik bacarıqlar, şagirdlərin bacarıq səviyyələri, qiymətləndirmə səviyyələri, formativ test, doğru cavab, yarımdoğru cavab, səhv cavab;
**ключевые слова:** умения по математике и информатике, уровни умений учеников, уровни оценивания, формативный тест, правильный ответ, наполовину правильный ответ, неправильный ответ;
**key words**: skills in mathematics and computer science, levels of students' abilities, levels of assessment, formative test, correct answer, half the right answer, wrong answer.

Yeni təhsil standartları və proqramlarının tətbiq olunduğu ibtidai siniflərdə təhsilalanların bacarıqları təhsilverənlər tərəfindən reallaşdırılan alt məzmun standartlarına əsasən müəyyənləşdirilən təlim məqsədlərinə uyğun fəaliyyət istiqamətləri, qiymətləndirmə aspektləri üzrə nəzərdə tutulan səviyyələrlə müəyyən edilir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda deyilir: "Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri onun akademik bacarıqlarından, tədris təcrübəsindən, peşəkarlıq səviyyəsindən xeyli asılıdır." [2, səh. 4–5]

Məktəbdə təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olunması təhsilalanın yiyələndiyi biliklərin bacarıqlara çevrilməsini, təhsilverəndən təlim prosesində onun məzmun alt standartı üzrə bacarıq səviyyəsini müəyyənləşdirmək üçün formativ testlərdən istifadə onların müvafiq səviyyələr əsasında qiymətləndirilməsini zəruri edir. Göstərilənlər təhsilverənin qiymətləndirmə vasitələrini dəyərləndirmək, düzgün nəticə çıxarmaq və ondan səmərəli istifadə bacarıqlarına yiyələnmək tələbini qarşıya qoyur.

Biz ibtidai siniflərdə təhsilalanın riyaziyyat və informatikadan bacarıq səviyyələrinin müəyyənləşdirilməsində formativ testlərin mühüm əhəmiyyət daşıdığını, onun müəllimlər üçün bəzi çətinliklər yaratdığını, bu sahədə kifayət qədər təcrübənin olmadığını, təhsilverənin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xidmət etdiyini nəzərə alaraq, ondan istifadə olunmasına dair nümunələr veririk. Bu prosesin aşağıdakı sxem üzrə həyata keçirilməsini lazım bilirik:

**sxem № 1**



**Nümunə 1** (riyaziyyat 1). Təhsilalanın 1.3.4 – alt məzmun standartı üzrə bacarıq səviyyəsini ona uyğun müəyyən olunmuş təlim məqsədi əsasında göstərək. Bunun üçün əvvəlcə təhsilalanın təlim məqsədləri üzrə qiymətləndirmə səviyyələrinə nəzər salaq.

| | |
|---|---|
| **alt məzmun standartı** | 1.3.4 . Şagird toplama və çıxmaya aid müxtəlif növ sadə məsələləri həll edir. [1, səh.120] |
| **təlim məqsədi** | Şagird toplama və çıxmaya aid müxtəlif növ sadə məsələlərin həllini bacardığını nümayiş etdirir. |
| **qiymətləndirmə səviyyələri** | 1. Məsələnin şərtini oxuyub anlayır.<br>2. Məsələnin şərtində verilən "əlavə etdi", "gəldi", "götürdü", "getdi" kimi sözləri fərqləndirir.<br>3. Məsələnin şərtində verilən sözlərə uyğun toplama və çıxma əməllərindən istifadə edir. |

Təhsilalanların aşağıdakı məsələni necə yerinə yetirdiklərini aydınlaşdıraq:

**Məsələ 1:** Qabda 3 alma var idi. Sabir qaba daha 2 armud əlavə etdi. Qabda cəmi neçə meyvə oldu?

A) 5; B) 4; C) 2 və ya 3; D) Bilmirəm!

İndi isə tapşırığın açıq və ya qapalılığından asılı olmayaraq, təhsilalanın məsələnin həllinə, yaxud seçdiyi cavaba görə bacarıq səviyyəsini müəyyən edək (Səviyyələr əvvəlcədən məlum olduğu üçün şagird tapşırığı müstəqil icraetmə dərəcəsini aydınlaşdıra bilər):

**1-ci variant.** Şagird *A) doğru* cavabını seçib. Bu halda şagirdin məsələnin şərtini anladığı (1-ci səviyyə), "əlavə etdi" sözünün mahiyyətini başa düşdüyü, toplama əməlinə uyğun gəldiyini bildiyi (2-ci səviyyə) və onu tətbiqini (3-cü səviyyə) bacardığı müəyyən olunur. Göstərilənlərə əsasən, şagirdin bacarıqları ən yüksək 4-cü səviyyə ilə, sözlə "Afərin, məsələnin şərtini, sözlərin mahiyyətini anlamısan, sözə uyğun riyazi əməli düzgün müəyyənləşdirib tətbiq etmisən, təşəkkür edirəm" kimi qiymətləndirilir.

**2-ci variant**. Şagird *B) yarımdoğru* cavabını seçib. Bu halda şagirdin məsələnin şərtini başa düşdüyü (1-ci səviyyə), lakin "əlavə etdi" sözünün toplama əməlinə uyğun gəldiyini anlamadığı (2-ci səviyyə), bu səbəbdən də toplama deyil, çıxma əməlindən istifadə etdiyi aydın olur. Şagirdin bacarıqları 3-cü səviyyə ilə, sözlə "Sən bacarıqlısan, amma məsələnin şərtində "əlavə etdi" sözünün toplama əməlinə uyğun gəldiyinə diqqət yetirməyin vacibdir" şəklində qiymətləndirilir və ona bu tipli bir neçə məsələ həll etmək tövsiyə olunur.

**3-cü variant**. Şagird *C) səhv* cavabını seçib. Bu halda şagirdin məsələnin şərtini anlamadığı (1-ci səviyyə), həmin səbəbdən verilənləri fərqləndirmək (2-ci səviyyə) və onlardan istifadə etmək (3-cü səviyyə) bacarıqlarının olmadığı müəyyən edilir. Onun bacarıqları 2-ci səviyyə ilə və sözlə: "Sən məsələnin məzmununu diqqətlə oxumalı, verilən sözlərin məzmununu anlamağa və ədədlərdən istifadə olunmasına diqqət yetirməlisən" kimi qiymətləndirilir. Məsələ müəllimin köməyi ilə həll edilir.

**4-cü variant**. Şagird *D) Bilmirəm!* cavabını seçib. Bu halda şagirdin məzmunla bağlı biliklərinin zəruri minimumdan aşağı olduğu müəyyənləşdirilir, bacarıqları isə ən aşağı – 1-ci səviyyə ilə qiymətləndirilir. Ona sadə məsələnin məzmununu başa düşməsi üçün fərdi yanaşma tətbiq edilir və müvafiq tövsiyələr verilir.

Aşağıda şagirdlərin məsələ həllinə dair bacarıq səviyyələri cədvəli verilir:

| **cavab** | **qiymətləndirmə səviyyələri** | **seçdiyi cavab və ya distraktor** | **bacarıq səviyyələri** |
|---|---|---|---|
| A) | Tam əsaslandırılmış, doğru cavabı seçib. | doğru | IV |
| B) | Yarıəsaslandırılmış, yarıdoğru cavabı seçib. | yarıdoğru | III |
| C) | Müəyyən təsəvvürə malikdir, lakin səhv cavabı seçib. | səhv | II |
| D) | Heç bir təsəvvürü yoxdur. | Bilmirəm! | I |

Biz müəllimin hər bir təhsilalanın yerinə yetirdiyi qiymətləndirmə tapşırığını bu nümunəyə əsasən qiymətləndirməsini təklif edirik. Təhsilalanın aşağıdakı tapşırıqlar üzrə fəaliyyət səviyyəsinin qiymətləndirilməsi də nümunə 1-ə uyğun olaraq həyata keçirilir.

Qeyd edək ki, müəllim bu cədvəl əsasında təhsilalanın nailiyyət səviyyələrini də müəyyən edə bilər. Bundan kiçik və böyük summativ qiymətləndirmə zamanı da istifadə etmək mümkündür. "Bu zaman təlim məqsədlərinin qiymətləndirmə səviyyələri məzmun standartlarının qiymətləndirmə sxeminə uyğun qəbul olunur. Birinci səviyyəyə 0, ikinciyə 1, üçüncüyə 2, dördüncü səviyəyə 3 bal verilir". [4, səh. 67].

Beləliklə, müəllim təhsilalanın cavabına görə onun bilik səviyyəsini və uyğun fərdi yanaşmanı müəyyən edir, məsləhətlər verir. Təhsilalan isə verilən tövsiyələrə əsasən nəyə diqqət yetirməli olduğunu özü üçün aydınlaşdırır.

**Nümunə 2** (riyaziyyat 2). Təhsilalanın 1.1.6 – alt məzmun standartı üzrə bacarıq səviyyəsini ona müvafiq təlim məqsədi əsasında müəyyənləşdirmək üçün əvvəlcə qiymətləndirmə dərəcələrini aşağıdakı şəkildə göstərək:

| | |
|---|---|
| **alt məzmun standartı** | 1.1.6 Şagird 100 dairəsində ədədin cüt və ya tək olduğunu müəyyənləşdirir. [1, səh.122] |
| **təlim məqsədi** | Şagird 100 dairəsində ədədin cüt və ya tək olduğunu müəyyənləşdirməyi bacardığını nümayiş etdirir. |
| **qiymətləndirmə səviyyələri** | 1. Rəqəmləri tanıyır.<br>2. Cüt və tək rəqəmləri fərqləndirir.<br>3. Cüt rəqəmlə qurtaran ədədin cüt, digərlərinin tək olduğunu müəyyən edir. |

**Tapşırıq 2.** 7, 18, 31, 55, 60, 86 ədədlərindən cüt olanları seçib yazın.

A) 18, 60, 86; B) 18, 86; C) 18, 31, 55, 60, 86; D) Bilmirəm.

Təhsilalanların seçdikləri cavaba əsasən onların bacarıq səviyyələrini müəyyən edək:

**1-ci variant.** Şagird *A) doğru* cavabını seçib. Bu halda şagirdin rəqəmləri tanıdığı (1-ci səviyyə), onları fərqləndirmək (2-ci səviyyə) və cüt rəqəmlə qurtaran ədədin cüt, tək rəqəmlə qurtaranın tək olduğunu müəyyən etmək bacarığına (3-cü səviyyə) yiyələndiyi müəyyənləşdirilir. Şagirdin bacarıqları 4-cü səviyyə ilə qiymətləndirilir, məktəbli kitabçasında müvafiq qeydlər aparılır. [5, səh.30–31]

**2-ci variant**. Şagird *B) yarımdoğru* cavabını seçib. Bu halda şagirdin rəqəmləri tanıdığı (1-ci səviyyə), onları fərqləndirməkdə (0-ın cüt rəqəm olduğunu müəyyənləşdirməkdə çətinlik çəkdiyi (2-ci səviyyə), buna görə də 60 ədədinin cüt ədəd olduğunu müəyyən edə bilmədiyi (3-cü səviyyə) məlum olur. Şagirdin bacarıqları 3-cü səviyyə ilə qiymətləndirilir və ona müvafiq məsləhətlər verilir. [5, səh.30–31]

**3-cü variant**. Şagird *C) səhv* cavabını seçib. Bu halda şagirdin məsələnin şərtini anlamadığı, cüt ədəd dedikdə, ikirəqəmli ədədləri başa düşdüyü və bu səbəbdən də onları seçmək bacarığının olmadığı (3-cü səviyyə) aşkarlanır. Şagirdin bacarıqları 2-ci səviyyə ilə qiymətləndirilir və ona yerinə yetirilməsi zəruri olan tövsiyələr verilir.

**4-cü variant**. Şagird *D) Bilmirəm* cavabını seçib, yaxud heç bir cavabı qeyd etməyib. Bu halda şagirdin ədədin cüt və ya təkliyini müəyyənləşdirmək üçün zəruri, minimum bilik və bacarıqlara yiyələnmədiyi məlum olur. Bacarıqlar 1-ci səviyyə ilə qiymətləndirilir, ona xüsusi fərdi yanaşma tətbiq edilir.

**Nümunə 3** (informatika 3**).** Təhsilalanın 3.4.1– alt məzmun standartı üzrə bacarıqlarını müvafiq təlim məqsədi əsasında araşdırmaq üçün əvvəlcə onun qiymətləndirmə səviyyələri aşağıdakı şəkildə müəyyənləşdirilir:

| | |
|---|---|
| **alt məzmun standartı** | 3.4.1 Şagird yığdığı və ya hazır mətnlər üzərində müvafiq əməliyyatları (müəyyən sözləri tapıb, yenisi ilə əvəz etmək) yerinə yetirir. [1, səh. 125] |

| | |
|---|---|
| **təlim məqsədi** | Şagird yığdığı və ya hazır mətnlərdə lazımi sözləri tapıb, yenisi ilə əvəz edir. |
| **qiymətləndirmə səviyyələri** | 1. Mətndə sözləri tapmaq və yenisi ilə əvəz etmək üçün *Find and Replace* panelindən istifadə olunduğunu bilir.<br>2. Mətndə sözləri tapmaq üçün *Find and Replace* panelindən istifadə edir.<br>3. Mətndə sözləri tapmaq və yenisi ilə əvəz etmək üçün *Find and Replace* panelindən istifadə edir. |

**Tapşırıq 3:** Mətndə sözləri əvəz etmək üçün seçilir: [8, səh. 36]

A) *Find what, Replace with ;* B) *Find and Replace, Find what;*

C*) Find what, Go To;* D) Bilmirəm.

Təhsilalanın cavablarına əsasən, onun bacarıq səviyyəsini müəyyən edək:

**1-ci variant.** Şagird *A) doğru* cavabını seçib. Bu zaman onun mətndə sözləri tapmaq və yenisi ilə əvəz etmək üçün *Find and Replace* panelindən istifadə olunduğunu bildiyi (1-ci səviyyə), nümunələr əsasında sözü tapmaq (2-ci səviyyə), həmçinin açılan panel üzərində *Find what*-dan sağda görünən sahədə (sətirdə) əvəz ediləcək, *Replace with*-dən sağda görünən sahədə isə əvəz edəcək sözü yazmaq, bunu nümayiş etdirmək, şərh vermək (3-cü səviyyə) bacarıqlarına yiyələndiyi müəyyən olunur. Şagirdin bacarıqları 4-cü səviyyə ilə qiymətləndirilir.

**2-ci variant**. Şagird *B) yarımdoğru* cavabını seçib. Bu zaman şagirdin mətndə sözləri tapmaq üçün *Find and Replace* panelindən istifadə edildiyini bildiyi (1-ci səviyyə), həmin məqsədlə sözü tapmağı bacardığı (2-ci səviyyə), lakin onu yenisi ilə əvəz etməkdə qismən çətinlik çəkdiyi müəyyənləşdirilir. Şagirdin bacarıqları 3-cü səviyyə ilə qiymətləndirilir və ona müvafiq məsləhətlər verilir.

**3-cü variant**. Şagird *C) səhv* cavabını seçib. Bu zaman şagirdin mətndə sözləri tapmaq üçün *Find and Replace* panelindən istifadə edildiyini bildiyi (1-ci səviyyə), lakin ondan istifadə etmək bacarığının olmadığı müəyyənləşdirilir. Onun bacarıqları 2-ci səviyyə ilə qiymətləndirilir və ona yerinə yetirilməsi zəruri olan tövsiyələr verilir.

**4-cü variant**. Şagird *D) Bilmirəm!* cavabını seçib, yaxud heç birini qeyd etməyib. Bu zaman şagirdin *Find and Replace* panelindən istifadə ilə bağlı minimum bilik və bacarıqlarının olmadığı müəyyənləşdirilir. Şagirdin bacarıqları 1-ci səviyyə ilə qiymətləndirilir və ona digərlərindən tamamilə fərqli, fərdi yanaşma tətbiq edilir.

**Nümunə 4** (informatika 4). Təhsilalanın 1.1.4– alt məzmun standartı üzrə bacarıq səviyyəsini ona uyğun müəyyən olunmuş təlim məqsədi əsasında göstərək. Bunun üçün əvvəlcə təlim məqsədinin qiymətləndirmə dərəcələrini müəyyən edək:

| | |
|---|---|
| **alt məzmun standartı** | 1.1.4. Şagird informasiyanın ötürülməsi vasitələrindən müvafiq şəraitə uyğun istifadə edir. [1. səh. 126] |
| **təlim məqsədi** | Şagird informasiyanın ötürülməsi vasitələrindən müvafiq şəraitə uyğun istifadə edir. |
| **qiymətləndirmə səviyyələri** | 1) İnformasiyanın ötürülməsi vasitələrini tanıyır.<br>2) İnformasiyanın ötürülməsi vasitələrini fərqləndirir.<br>3) İnformasiyanın ötürülməsi vasitələrindən məqsədəuyğun istifadə edir. |

**Tapşırıq 4.** Elektron poçt adi poçtdan necə fərqlənir? [3, səh.9]

A) fasiləsiz işləməsi və bir məktubun eyni vaxtda bir neçə ünvana göndərilməsi ilə;

B) poçt ünvanının olması və fasiləsiz işləməsi ilə;

C) poçt ünvanının olmaması ilə;

D) Bilmirəm!

Təhsilalanın cavablarına əsasən bacarıq səviyyəsini müəyyən edək:

**1-ci variant.** Şagird *A) doğru* cavabını seçib. Bu zaman şagirdin informasiyanın ötürülmə vasitələrini tanıdığı (1-ci səviyyə), onun elektron poçtu adi poçtdan fərqləndirmək (2-ci səviy-

yə), onlardan məqsədəuyğun istifadə etmək, məktubu və surətini eyni vaxtda bir neçə ünvana göndərmək kimi (3-cü səviyyə) bacarıqlara malik olduğu müəyyənləşdirilir. Şagirdin bacarıqları 4-cü səviyyə ilə qiymətləndirilir.

**2-ci variant**. Şagird *B) yarımdoğru* cavabını seçib. Bu zaman şagirdin informasiyanın ötürülməsi vasitələrini tanıdığı (1-ci səviyyə), elektron poçtu adi poçtdan fərqləndirməyi bacardığı (2-ci səviyyə), lakin ondan məqsədəuyğun şəkildə istifadə etməkdə çətinlik çəkdiyi müəyyən edilir. Şagirdin bacarıqları 3-cü səviyyə ilə qiymətləndirilir və ona müvafiq məsləhətlər verilir.

**3-cü variant**. Şagird *C) səhv* cavabını seçib. Bu zaman şagirdin informasiyanın ötürülməsi vasitələrini tanıdığı (1-ci səviyyə), lakin onları fərqləndirməkdə çətinlik çəkdiyi müəyyən olunur. Şagirdin bacarıqları 2-ci səviyyə ilə qiymətləndirilir və ona zəruri tövsiyələr verilir.

**4-cü variant**. Şagird *D) Bilmirəm!* cavabını seçib. Bu zaman şagirdin səviyyələrə uyğun zəruri, minimum bilik və bacarıqlarının olmadığı müəyyən edilir. Bacarıqlar 1-ci səviyyə ilə qiymətləndirilir və ona alqoritm əsasında yerinə yetiriləcək fərdi yanaşma müəyyən edilir.

Beləliklə, dərsin gedişində təhsilalanın bacarıq səviyyələrinin müəyyənləşdirilməsi üçün alt məzmun standartlarının qiymətləndirmə səviyyələrinə uyğun (I–IV səviyyələr) hazırlanan qiymətləndirmə vasitələrindən – formativ testlərdən istifadə olunması, onların müvafiq qiymətləndirmə səviyyələri əsasında dəyərləndirilməsi prosedurunun şəffaflığını təmin etməklə təhsilalanın bilik və bacarıq səviyyələrini müəyyənləşdirməyə, müvafiq fərdi yanaşmanı həyata keçirməyə, təhsilalana öz üstün və zəif tərəflərini bilməyə, inkişafı üçün fəaliyyət istiqamətlərini müəyyənləşdirməyə, ümumilikdə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət göstərir.

**ədəbiyyat**


1. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Bakı, 2009.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.
3. Mahmudov N. M. və b. İnformatikadan qiymətləndirmə vasitələri. (4-cü sinif üçün vəsait). Bakı, 2012.
4. Mahmudov N. M. İbtidai təhsil səviyyəsində riyaziyyatdan qiymətləndirmə tapşırıqlarının qiymətləndirilməsinə yeni yanaşma. Bakı: Bakı Qızlar Universitetinin elmi əsərləri, № 2 (16), 2013.
5. Mahmudov N.M. Ümumi təhsil səviyyəsində qiymətləndirmə. Bakı, 2012.
6. Mahmudov N. M. və başqaları. İbtidai siniflərdə şagirdlərin riyaziyyatdan bacarıq səviyyəsinin qiymətləndirilməsi üçün rubrik nümunələri. Bakı, 2014.
7. Mahmudov N. M. və b. İnformatikadan qiymətləndirmə vasitələri. (3-cü sinif üçün vəsait). Bakı, 2012.
8. Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti təlimat. Bakı: “Azərbaycan müəlimi”, 2013, № 34.
9. Ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün fənn kurikulumları. Bakı: 2008.


**ИСПОЛЬЗОВАНИЕ ФОРМАТИВНЫХ ТЕСТОВ ДЛЯ ОПРЕДЕЛЕНИЯ УРОВНЯ СПОСОБНОСТЕЙ УЧАШИХСЯ ПО МАТЕМАТИКЕ И ИНФОРМАТИКЕ В НАЧАЛЬНЫХ КЛАССАХ**

**резюме**


В статье раскрывается роль и важность использования формативных тестов для определения уровня способностей учащихся по математике и информатике на основе подстандартов в начальных классах. Отмечается, что формативные тесты важны для определения уровня способностей у учащихся начальной школы по математике и информатике.


**USING FORMATIVE TESTS FOR DETERMINING LEARNERS' SKILLS LEVEL IN MATHEMATICS AND INFORMATICS IN PRIMARY SCHOOL**

**summary**


The article elucidates the role of using formative tests for determining learners’ level of skills in mathematics and informatics according to sub-content standard in primary school. It is noted that, formative tests are important for determining the level of abilities in elementary school students in mathematics and computer science.

# ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ МЛАДШИХ ШКОЛЬНИКОВ НА ОСНОВЕ ТВОРЧЕСТВА МОЛЛА ПАНАХА ВАГИФА

**Нигяр Мурадова,**
доктор философии по педагогике, доцент,
ведущий научный сотрудник ИОАР
Email: rita-nigar@mail.ru

**ключевые слова:** национальное самосознание, творчество Вагифа, формирование и развитие, младшие школьники;

**açar sözlər**: milli özünüdərketmə, Vaqifin yaradıcılığı, formalaşma və inkişaf, kiçik yaşlı məktəblilər;

**key words:** national self-consciousness, creativity Vagif, formation and development, younger schoolchildren.

В обществе все берет начало
со школы, с воспитания.
***Г.А. Алиев***

Современная система отечественного образования стремится дать вступающему в жизнь новому поколению глубокие знания в сфере национальных идей независимой государственности, опираясь на древнюю культуру своего народа. В связи с этим «обязанность учителей заключается в доведении до учеников богатейших исторических, культурных, нравственных моральных устоев азербайджанского народа, воспитании детей на этих традициях» [1].

Культурное наследие Азербайджана очень богато. Однако написание данной статьи будет основано на творчестве Молла Панаха Вагифа. Это поясняется тем, что в республике отмечается юбилей Молла Панаха Вагифа – известного политического и общественного деятеля Азербайджана XVIII века, выдающегося поэта. Его поэтическое наследие и ныне продолжает служить духовно-нравственному совершенствованию молодежи, в котором особое место занимает гошма, взятое им из ашыгского творчества, где с большим мастерством описаны обычаи, традиции и национальный быт азербайджанского народа, нравственно-эстетические каноны века как основы высшей духовной ценности жизни.

Жизненность, активность нации в значительной мере определяется характером и уровнем национального самосознания. С точки зрения педагогической науки творчество Вагифа служит полезным педагогическим материалом, предусматривающим плодотворный процесс формирования и развития у школьников национальное самосознание.

Воспитание национального самосознания предполагает осознание младшими школьниками своей этнической общности, национальных ценностей (языка, культуры, территории), ощущение своей причастности к развитию государственности, патриотизма, что способствует утверждению его собственного национального достоинства, внутренней свободы, гордости за свою землю.

С научно-философской позиции в стихах Молла Панаха Вагифа отражаются педагогические идеи, связанные с содержанием воспитания, насыщенные мотивами борьбы с несправедливостью и жизни, склонной к радости, с эстетической красотой. Все это в целом дает основание обосновывать педагогические основы его творчества.

Анализируя педагогические основы его творчества обнаруживается, что по Молла Панаху Вагифу целью воспитания является подготовить достойного человека-патриота с жизнелюбивыми взглядами, добросердечного, любящего свой народ, гордого за свою родину, ненавидящего зложелателей, борющегося против чужеземных врагов как главное условие для становления истинного человека и его счастливой жизни. Это дает научное основание, позволяющее сформулировать следующий вывод:

– педагогические идеи в творчестве Молла Панаха Вагифа базируют теоретические основы полезного материала, реализация которого позволяет сформировать смысложизненные ориентиры у младших школьников, определить критерии в этом направлении, разработать проектные модели, которые будут оказывать продуктивное воздействие на нравственно-эстетическое воспитание личности младших школьников и развитие их творческо-поэтических способностей.

Уроки чтения и занятия внеклассного чтения научно обоснованы и педагогически значимы, на которых специальная роль отводится поэтическому слову. Почему? Потому что диалог с текстом всегда вызывает эмоциональный отклик читающего, пробуждает его мысль, приобщает его к культуре поэтического языка. И еще, потому, что именно в школьный период у каждого из них в глубине души таятся сокровенные чувства, раскрывающиеся только поэзией. «Ещё с раннего детства я находился под сильным влиянием творчества Вагифа. Его прекрасные стихи, ясный и народный язык оказали на моё творчество большое влияние. Под влиянием могучего поэтического обаяния Вагифа я писал первые свои стихи» [2, стр.13].

Культура поэтического языка Молла Панаха Вагифа содержит главное ключевое слово – это «душа», которое пронизывает его поэзию. Его стихи приводят к поиску нравственных ориентиров, помогают им понять и принять этот мир, заставляют их размышлять и о сегодняшнем Азербайджане, а также и о своей причастности к её судьбе. В соответствии с этим в начальной школе в этом направлении «учитель обязан искать новые приемы, испытывать их. Любой учитель должен помнить, что каждый примененный метод – это ступень, которая ведет его далее» [3].

Возникает вопрос: Какие формы воспитательной работы по творчеству Молла Панаха Вагифа можно использовать среди младших школьников?

Ответ на данный вопрос, сформированный на основе вышеуказанного вывода, схематично представляем следующим образом:

**схема № 1**

| **Педагогические основы творчества Вагифа в формировании национального самосознания** | |
|---|---|
| № | ***Формы воспитательной работы*** |
| 1 | Литературно-музыкальная композиция по поэзии Молла Панаха Вагифа «Мир добра и зла» с участием юных ашугов и певцов среди школьников. |
| 2 | Конкурс на лучшее исполнение сценической роли героев из стихов Молла Панаха Вагифа. |
| 3 | Выставка рисунков «Путешествие в мир любви, красоты и радости Молла Панаха Вагифа». |
| 4 | Круглый стол по теме «Стихи Молла Панаха Вагифа и их значимость в XXI веке». |
| 5 | Мини викторина: «Знаешь ли ты Молла Панаха Вагифа?» |
| 6 | Утренник поэзии Молла Панаха Вагифа – «Мастер слова». |
| 7 | Общешкольная конференция «Молла Панах Вагиф и мои духовно-нравственные ценности глобальном мире». |
| 8 | Просмотр и анализ фильма о творчестве Молла Панаха Вагифа. |

Таким образом,вышеуказанные воспитательные формы приобщают младших школьников XXI века к изучению творчества поэта XVIII века и тем самым реализуют ряд следующих задач:

– учить их быть сознательными участниками в поисках истины гуманистических ценностей (жизни, любви, красоте, радости, дружбе, порядочности, справедливости);

– формировать их критическое мышление и развивать их философские суждения о смысле жизненных понятий;

– основывать в них гражданскую и идейно-нравственную позиции;

– осваивать специальные теоретические знания и совершенствовать личные речевые умения для чтения стихов Молла Панаха Вагифа;

– осмысливать особенности его лирической поэзии и обучаться анализировать его стихи.

Резюмируя содержание всего вышеизложенного, следует, что творчество Молла Панаха Вагифа является целенаправленным историко-педагогическим материалом в формировании национального самосознания подрастающего поколения – истинных патриотов, обладающих интеллектуальным потенциалом и нравственными принципами.

**литература**


1. Алиев Г.А. heydar-aliyev-foundation.org/ru/.
2. Kərimov Y.Ş. Seçilmiş əsərləri. (IX cild. Pedaqogika və metodika tarixi problemləri). Bakı: "Kövsər" nəşriyyatı, 2013.
3. Гулиев А. Материал из Википедии – свободной энциклопедии.
4. Туран А. Корифеи азербайджанской культуры.
5. Агости Э. Литература как выражение национального самосознания. Москва, 2011.



**Molla Pənah Vaqifin yaradıcılığı əsasında kiçikyaşlı məktəblilərdə milli özünüdərketmənin formalaşması**

**xülasə**

Məqalədə Molla Pənah Vaqifin yaradıcılığından istifadə edərək kiçikyaşlı məktəblilər arasında milli özünüdərketmənin formalaşdırılmasından söhbət gedir. Kiçikyaşlı məktəblilərdə milli özünüdərketmənin formalaşmasında Vaqif yaradıcılığının pedaqoji əsasları müəyyənləşdirilir, bu istiqamətdə aparılan tərbiyə işlərinin formaları göstərilir.



**Based on the creativity of Molla Panah Vagif in younger schoolchildren formation of national self-determination**

**summary**

The article deals with the formation of national self-determination among younger pupils by using Molla Panah Vagif's creativity. The pedagogical foundations of Vagif's creativity are defined in the formation of national self-discipline in small-scale schoolchildren, and the forms of educational work in this direction are shown.


# ŞAGİRDLƏRİN NİTQİNİN İNKİŞAFİNDA LÜĞƏT ÜZRƏ İŞİN ROLU


**Maya Qasımova,**
ADPU-nun müəllimi,
filologiya üzrə fəlsəfə doktoru





**açar sözlər:** nitq inkişafı, lüğət ehtiyatı, lüğət üzrə işin metod və priyomları, sistematiklik və ardıcıllıq, şifahi və yazılı nitqin səmərəliliyi;

**ключевые слова**: развитие речи, словарный запас, методы и приемы словарной работы, систематичность и последовательность, еффективность обучения;

**key words:** the development of speech, the headroom, methods and techniques of vocabulary work, systemic and predictive, effective learning .


Təlimin nəzəri və praktik cəhətdən təkmilləşdirilməsi müasir təhsil prosesinin vacib istiqamətlərindən biridir.

İdrak prosesində əvəzedilməz rolu olan Azərbaycan dili dərslərində doğma dilə məhəbbət hissi aşılanır, təfəkkür formalaşır, ümumbəşəri dəyərlər dərk olunur.

Şagirdlərdə Azərbaycan dilini öyrənməyə maraq oyadılması va-

cib məsələlərdən biridir. Məktəbə yenicə qədəm qoymuş uşaqlar ətraf aləm haqqında müəyyən bilik və təsəvvürlərə malik olsalar da, onların əhatə dairəsi məhdud xarakter daşıyır. İbtidai məktəbdə şagirdlərin lüğət ehtiyatı, adətən, birtərəfli inkişaf edir, terminlərə, ümumiləşdirici sözlərə az rast gəlinir. Şagirdlərin nitqi monotonluğu, qeyri-ifadəliliyi, bir cümlədə eyni sözün bir neçə dəfə təkrarlanması ilə xarakterizə olunur. Onların çoxunun leksikasında obrazlı ifadələrə, demək olar ki, rast gəlinmir. Məktəbin vəzifəsi uşağın dünyagörüşünü, lüğət ehtiyatını genişləndirməklə məhdudlaşır.

Uşaqların nitqinin inkişaf etdirilməsinin, onlarda doğma dilə rəğbət hissinin tərbiyə olunmasının vacibliyi haqqında görkəmli pedaqoqlar müxtəlif fikirlər söyləmişlər. K.D.Uşinski uşaqlarda "söz istedadının" inkişaf etdirilməsinə xüsusi əhəmiyyət vermiş və onların əqli inkişafında, təlim nəticələrində bunun rolunu vurğulamışdır: "Sözün məna cəhətinə vara bilməyən, əsl mənasını dumanlı anlayan, ya heç anlamayan, ondan şifahi və yazılı nitqdə asanlıqla istifadə etmək vərdişinə yiyələnməyən uşaqlar həmişə, istənilən fənn üzrə biliklərin mənimsənilməsində bu əsaslı qüsurdan əziyyət çəkəcəklər". Şagirdlərin məntiqi cəhətdən dəqiq, əsaslandırılmış, obrazlı şifahi və yazılı nitqləri onların əqli inkişafının göstəricisidir. Buna görə də nitq inkişafı uşaqların ümumi təlim sistemində, digər fənlərin mənimsənilməsində müvəffəqiyyəti təmin edən vacib halqadır. Məktəbdə ana dili təlimin yalnız obyekti deyil, həm də vasitəsidir.

Uşaqların nitqini inkişaf etdirmək onun məzmunu üzərində müntəzəm iş aparmaq onlara gördükləri əşya, hadisə haqqında cümlə qurmağı, məqamına görə lazımi sözü seçməyi, onlardan istifadə yolu ilə öz fikirlərinin qrammatik cəhətdən düzgün ifadəsini öyrətmək deməkdir. Uşaqlar heç vaxt lüğətin zənginləşdirilməsinə müasir dövrdə olduğu qədər ehtiyac duymamışlar. Müasir həyat hərtərəfli inkişaf edir, dəyişir, çoxsaylı yeni sözlərin yaranması və dilimizin lüğət tərkibinə daxil edilməsi tələbini irəli sürür.

Kifayət qədər söz ehtiyatı olmadan nitqi inkişaf etdirmək mümkün deyil. Buna görə də şagirdlərin leksikasını formalaşdırmaq, toplanmış söz ehtiyatı əsasında məlum sözlərin mənasını dəqiqləşdirmək və onların istifadə dairəsini genişləndirmək lazımdır. İbtidai siniflərdə lüğət üzrə iş spesifik xüsusiyyətlərə malik olmaqla praktik xarakter daşıyır. Belə ki, burada əsas məqsəd şagirdləri şifahi və yazılı nitqə praktik cəhətdən yiyələndirmək olduğundan, sözsüz ki, Azərbaycan dilinin leksikasını tam öyrətməyə ehtiyac yoxdur. Buna görə də, ibtidai məktəbdə leksikanın təlimi zamanı ana dilinə praktik cəhətdən yiyələnmə ilə bağlı məsələlərə diqqət ayırmaq məqsədəuyğundur.

Təlim prosesində sözlərin semantikasına xüsusi fikir verilməlidir. Sözün məna çalarlarının düzgün başa düşülməsi və nitqdə ondan istifadə edilmə imkanlarının dərk olunması məhz bununla bağlıdır. Düzgün nitqə malik olmaq sözün mənasını, işlənmə sahəsini bilmək deməkdir. Söz o zaman fəallaşmış hesab olunur ki, şagird nəqletmə zamanı, ifadə və esse yazılarında ondan istifadə etsin.

Müşahidələr göstərir ki, bu gün ibtidai siniflərdə lüğət üzrə iş sistemsiz aparılır. Bu sahədə metodik vəsaitlər azlıq təşkil edir, dərslik və təlim vəsaitlərində Azərbaycan dilinin leksikasının öyrədilməsi metodikası ilə bağlı məlumatlar məhdud miqdardadır. Bu çatışmazlıqların aradan qaldırılmasının əsas şərti lüğət üzrə işin elə bir sistemini işləyib hazırlamaqdır ki, sözün vahid leksik-semantik səviyyədə mənimsənilməsini təmin etsin. Bunun üçün Azərbaycan dili dərslərində ibtidai sinif şagirdləri ilə lüğət üzrə işin optimal yollarını, metod və priyomlarını, hər yaş dövrünə uyğun lüğət minimumunu müəyyənləşdirmək, təlimin kommunikativ istiqamətini nəzərə almaqla, elmi cəhətdən əsaslandırılmış praktik çalışmalar sistemini işləyib hazırlamaq lazımdır.

Azərbaycan dili dərslərində sözün leksik mənasının izahı şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi prosesinin yalnız ilkin mərhələsidir. Sözün şagirdin fəal lüğətinə daxil olması üçün çox iş görmək lazımdır. Təcrübə göstərir ki, burada şablonlara və düşünülməmiş fəaliyyətə yol verilməməlidir. Hər bir dərs üçün lüğət üzrə iş planlaşdırılmalı, dilimizin leksik zənginliyindən daha geniş şəkildə istifadə edilməlidir. Müəllim nəzərə almalıdır ki, dilimizdə *"yaxşı",*

*"əla"* sözlərindən başqa, çoxsaylı digər rəğbətləndirici sözlər (*gözəl, mükəmməl, möhtəşəm, fövqəladə, bənzərsiz, xoş, orijinal* və s.) də var.

Metodikada çətin sözlərin mənasının izahı üçün bir sıra priyomlar işlənib hazırlanmışdır. Bəzən çətin sözün mənası mətn daxilində açılır. Bu zaman şagirdə əlavə izahat verməyə ehtiyac qalmır. Mətni oxuduqdan sonra şagird heç bir kömək olmadan sözün mənasını başa düşür.

Konkret əşya adları ilə bağlı sözlərin öyrədilməsi əyani izahla, yəni əşyanın özünün, şəklinin, modelinin nümayişi ilə müşayiət olunarsa, daha yaxşı nəticə verər. Əyani izah mümkün olmadıqda isə sözün məzmunu ilə bağlı qısa şərh vermək, onun sinoniminin (*səma–göy*), antoniminin (*yoxuş–eniş*), rus dilində qarşılığının (*atəşfəşanlıq – salyut*), növ–cins münasibətlərinin (*taxt, dolab, divan, çarpayı, kreslo – mebel*) yada salınması, etimologiyasına müraciət olunması, morfoloji strukturunun təhlili priyomlarından da istifadə etmək mümkündür.

Söz nitqdən kənarda, ayrılıqda mənimsənilə bilməz. Sözün əsl mənasının dərk olunması üçün onun söz birləşməsi, cümlə daxilində işlənməsi lazımdır. Bu, həm də şagirdlərdə sözdən yerində, dəqiq istifadə etmək bacarıqlarının formalaşdırılması baxımından faydalıdır. Yeni öyrənilmiş sözlər nitqdə müntəzəm təkrar olunmalı, möhkəmləndirilməlidir. Əks təqdirdə lüğət üzrə iş, lüğətin zənginləşdirilməsi ilə bağlı istifadə olunan çalışmalar öz əhəmiyyətini itirər. Çalışmalar yalnız o zaman arzu olunan nəticəni verə bilər ki, müəyyən ardıcıllıqla, əsas didaktik və metodik tələbləri gözləməklə, mütəmadi icra edilmiş olsun. Elə çalışmalardan istifadə etmək olar ki, onlar kompleks şəkildə nitqin müxtəlif cəhətlərinin inkişafına – ədəbi tələffüzün təkmilləşdirilməsinə, qrammatik kateqoriyaların düzgün tətbiqinə, lüğətin fəallaşdırılması və rabitəli nitqin inkişafına, orfoqrafik qaydaların mənimsənilməsinə istiqamətlənmiş olsun. Görkəmli rus dilçisi və metodisti A.V.Tekuçev yazırdı: "Lüğət üzrə iş müəllimin fəaliyyətində epizodik bir iş deyil, dilin bütün bölmələri – qrammatika, orfoqrafiya, orfoepiya ilə bağlı olan, müntəzəm, mütəşəkkil, pedaqoji cəhətdən məqsədyönlü şəkildə təşkil olunan və I sinifdən son sinfədək aparılan bir işdir" (5).

İbtidai sinif müəllimləri lüğət üzrə işin vacibliyini başa düşməli və dərsdə ona kifayət qədər vaxt ayırmalıdırlar. Lüğət üzrə iş də qrammatika, orfoqrafiya, orfoepiya üzrə işlər kimi, planlaşdırılmalıdır. Bu məqsədlə ibtidai sinif müəllimi:

• Şagirdlər tərəfindən müntəzəm olaraq bu və ya digər sözün mənimsənilmə dərəcəsi öyrənilməlidir. Bu məqsədlə onların şifahi nitqini daim izləməli, yaradıcı yazılarını təhlil etməlidir.

• Şagirdlərin fəal lüğətinə daxil etmək üçün sözlərin seçilməsi üzrə müntəzəm iş aparmalıdır (Müəllim bunu oxu dərsində öyrənilən bədii mətnlərdən, digər fənlərin dərsliklərindən, ibtidai sinif şagirdləri üçün nəzərdə tutulmuş lüğətlərdən seçməlidir).

Leksik vahidlərin fəal nitqdə istifadə olunacaq dərəcədə mənimsənilməsini təmin edəcək lüğət üzrə iş mətnlərdə yaxınmənalı, əksmənalı, çoxmənalı sözləri, omonimləri, frazeoloji birləşmələri, obrazlı söz və ifadələri özündə birləşdirən leksik mikrosistemin seçilib, şagirdlərə öyrədilməsi əsasında mümkün olur.

Təlimdə yeni texnologiyaların, metodların tətbiqi şagirdlərin dərsə marağını artırır. Dərs boyunca uşaqların əldə etdikləri məlumatlar onların yaddaşında qorunmalıdır ki, istənilən anda onu yada salıb, təcrübədə tətbiq edə bilsinlər. Ən səmərəli yaddasaxlama məhz öyrənilən qrammatik materialın təcrübədə tətbiqi zamanı baş verir. Buna görə də, ibtidai sinif müəllimi Azərbaycan dili dərslərində lüğətin zənginləşdirilməsi və möhkəmləndirilməsi məqsədilə şagirdlərin marağını, idrak fəallığını artıra biləcək rəngarəng leksik çalışmalardan, didaktik oyunlardan istifadə etməlidir. Bunların bəzilərinə aid nümunə göstərək:

1.Verilmiş cümlələrdəki ***daş*** sözünün işləndiyi mənaları müqayisə edin:

*a) Daş ürəkli insan heç kimə mərhəmət göstərə bilməz.*

*b) Usta Sadiq daşları hasarın kənarına yığdı.*

2. Verilmiş sözlərdən hansı birinci, hansı ikinci cümlədəki ***daş*** sözünə uyğundur?

*qəlbsiz, mərmər, zalım, kərpic, qəddar*

3. Aşağıdakı isimlərin hansına *qəddar*, hansına *bərk* sözü uyğun gəlir?

*insan, külək, düşmən, şaxta, hökmdar, bünövrə, döşək, çörək, münasibət*

4. Yarımçıq qalmış cümləni *istiqanlı* sözünün antonimi ilə bitirin:

*Nigar istiqanlı qızdır, Nərgiz isə ...*

5. Sinonim sözlərdən cümlədəki *bacı* sözünə daha uyğun olanını seçin:

*Cəlalın* (*iri, yekə, böyük, nəhəng*) *bacısı həkimdir.*

6. Cümlələrdəki *gedir* sözünün mənalarını izah edin:

*Kamran gedir. Veriliş gedir. Zaman gedir.*

**Hərfi imla.** Müəllim şagirdlərə tapmacalar deyir və onların cavablarının ilk hərflərini xanalara yazmağı tapşırır. Əgər cavablar düzgün tapılmışsa, lazımi söz alınır. Şagirdlərdən alınmış sözün mənasını izah etmək tələb olunur. Komandalar yaradaraq bu oyuna yarış xarakteri verilir. Tapşırığı tez və düzgün yerinə yetirən komanda qalib hesab olunur.

**"Bir sözlə əvəz et".**

Müəllim şagirdlərə söz birləşmələrini bir sözlə ifadə etmək tapşırığını verir:

• həftənin altıncı günü – ... (*şənbə*);
• hündür yerə çıxıb-düşmək üçün istifadə edilən pilləli alət – (*nərdivan*);
• külək, qar və ya yağışla müşayiət olunan hava durumu – (*çovğun*);
• insanın yaşadığı və məktub yazarkən zərfin üzərinə yazdığı sözlər – (*ünvan*);
• adəti üzrə günorta qəbul edilən yemək – (*nahar*);
• yüz il – (*əsr*).

**"Heyvanlar, quşlar, həşəratlar necə səs çıxarır?"**

Məqsəd şagirdlərin söz ehtiyatını quşların, heyvanların, həşəratların çıxardığı səsləri ifadə edən təqlidi sözlərlə zənginləşdirməkdir.

Sərçə .....*(cikkildəyir),* pişik .....*(miyoldayır),* xoruz .....*(banlayır),* at..... *(kişnəyir),* quzu .....(*mələyir*), qarğa ....(*qarıldayır*), ağcaqanad.... *(vızıldayır),* it ......*(hürür),* şir .......*(nərildəyir),* inək........*(böyürür).*

**"Hansı heyvanın balasıdır?"**

Məqsəd şagirdlərin lüğət ehtiyatını heyvan balalarının adı ilə zənginləşdirməkdir. Şagirdlər oxlarla hansı balanın hansı heyvana aid olduğunu göstərməli, analarının adlarını deməlidirlər.

| | | | |
|---|---|---|---|
| at | cücə | it | qoduq |
| keçi | buzov | dəvə | quzu |
| inək | oğlaq | eşşək | çoşka |
| camış | qulun | ayı | küçük |
| pişik | balaq | qoyun | kösək |
| toyuq | mavri | donuz | pota |

**"Sözlərdə hansı sözlər gizlənib?"**

Şagirdlərə verilmiş sözlərin tərkibindəki hərflərdən yeni sözlər düzəltmək tapşırılır. Bu oyun-tapşırıq şagirdlərin lüğət ehtiyatını zənginləşdirməklə yanaşı, onlarda diqqətliliyi də inkişaf etdirir:

y**arpa**q – *arpa, yar, ar, para, ara, qar, yaraq, ay, pay, qap, qara, apar, paya, qaya;*
**sərin** – *ər, sinə, sər;*
**sahil** – *ah, sil, sal, hil, il, hal;*
**qaşıq** – *qaş, aş, aşıq, qış, qaşı;*
**külək** – *kül, kəl, lək, ək;*
**yağış** – *ağ, ağı, yağ, yağı, yaş, yaşa;*
**dovğa** – *ov, dağ, , vağ, ağ, doğ;*
**balta** –*alt, bala, tala, bal, ata, ala, bat, tab;*
**canavar** – *ana, can, avar, var, an, cavan, nar, ar, aran, ac,ara;*
**boyun** – *yun, boy, oyun, un, yon;*
**albalı** – *al, ala, bal, bala, balı, lal, ballı, Alı ;*
**çiyələk** – *çiy, ələk, kəl, lək, iy,çək, iç, iki, çil;*
**yorğan** – *yor, an, , ar, nar, ana, ara, ağ, yağ, yan, ana, ay* və s.

Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi, nitqinin inkişaf etdirilməsi Azərbaycan dili tədrisinin əsas linqvodidaktik vəzifəsidir. Bu vəzifənin yerinə yetirilməsi yeni sözlərin mənimsənilməsinə imkan yaradan rəngarəng əyani vəsaitlərdən (şagirdlərin rəsmləri, illüstrasiya,

qrafika, fərqli mövzularla bağlı videoçarxlar) istifadəni özündə birləşdirən fərqli yanaşma tərzi tələb edir. İbtidai sinif müəlliminin başlıca vəzifəsi müxtəlif metod və priyomlardan, vasitələrdən məqamında istifadə etməklə, şagirdlərin nitqinin inkişafı üçün əlverişli təlim mühiti yaratmaqdır.

**ədəbiyyat**

1. Айдарова Л.И. Формирование лингвистического отношения к слову у младших школьников. Возрастные возможности усвоения знаний. Москва: «Просвещение», 1966.
2. Kərimov Y.Ş. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: "Səda", 2013.
3. Kərimov Y.Ş. İbtidai siniflərin Azərbaycan dili dərslərində lüğət işinin əsasları. Bakı: "Maarif", 1978.
4. Скороход Л.К. Словарная работа на уроках русского языка. Москва: «Просвещение»,1990.
5. Текучев А.В. Методика преподавания русского языка в средней школе. (издание 2-е). Москва: «Просвещение»,1986.

**РОЛЬ СЛОВАРНОЙ РАБОТЫ В РАЗВИТИИ РЕЧИ УЧАЩИХСЯ**

**резюме**

В статье изложены методы развития речи учащихся с помощью словарной работы. С этой целью рекомендуется испозловать упражнения и дидактические игры лексического характера. Отмечается, что они должны способствовать расширению словарного запаса, умению выбирать из него слова, наиболее соответствующие содержанию высказывания и тем самым делать речь правильным, точным и выразительным.

**THE ROLE OF WORK ON VOCABULARY IN THE DEVELOPMENT OF THE PUPILS SPEECH**

**summary**

İn this article was talked about the methods of development of students` speech by the help of work on vocabulary. For this purpose was noted that the use of lexical exercises and didactic games are reasonable. By allowing to enrich vocabulary reserve, the development of the ability of choosing compatible word according to content they provide accuracy, exactness and expressiveness of speech.

# FƏAL TƏLİM ŞAGİRD TƏFƏKKÜRÜNÜ İNKİŞAF ETDİRİR.

**Nahidə Əhmədova,**
Bakı Modern Təhsil kompleksinin müəllimi,
nahide_ehmed@mail.ru



**açar sözlər:** tədqiqat, fəal təlim, təfəkkür, dərs formaları, metodlar, motivasiya, fəaliyyət, fərdi iş, cütlərlə iş, qruplarla iş, kollektivlə iş;

**ключевые слова:** исследования, активное обучение, мышление, формы урока, методы, мотивация, действия, индивидуальная работа, работа с парами, работа с группами, коллективная работа;

**key words:** research, active learning, thinking, forms of the lesson, methods, motivation, actions, individual work, working with couples, working with groups, teamwork.

Fəal təlim dialoq, qarşılıqlı fəaliyyət göstərməklə səciyyələnir. İnteraktiv təlimdə istifadə olunan metod və priyomlar tədris prosesini xeyli intensivləşdirir, onu şagirdlər üçün maraqlı edir, onların fəallığının artmasına zəmin yaradır. Bu keyfiyyətlər təlimin inkişafetdirici aspektini xeyli gücləndirir.Təlim-tərbiyə prosesində inkişafetdirici metodların tətbiqi müasir dövrdə fəaliyyətə, əməkdaşlığa, təhsilin məqsəd və vəzifələrinə yeni münasibəti əks etdirir.

Şagirdlərin bilikləri müxtəlif metodlarla öyrənmələri, tədqiqat aparmaları səmərəli nəticə verir. Tədris prosesini interaktiv şəkildə həyata keçirmək üçün şagirdləri yaradıcılığa həvəsləndirmək, onların fəallığına nail olmaq, müxtəlif metod və vasitələrdən istifadəni, düşüncə qabiliyyətlərini inkişaf etdirmək lazımdır.

Müxtəlif formalarda aparılan dərslər əlavə motivasiya yaradır, şagirdləri stimullaşdırır. Fəal təlimdə 4 iş forması (kollektiv, qruplarla, cütlərlə və fərdi iş formaları) nəzərdə tutulmuşdur.

Hər təlim forması dərsin məqsədindən asılı olaraq seçilir və şagirdlərin fəaliyyəti bunun üzərində qurulur.

**Fərdi iş** prosesində şagirdlər verilən tapşırıqlar üzərində sərbəst çalışırlar. Bu tip öyrənmədə şagirdin rəqibi yalnız özüdür. Bu iş formasının əsas xüsusiyyətlərindən biri odur ki, müəllim hər şagirdin öz nailiyyətlərini müqayisə edir. Bu prosesdə müəllimin rolu bələdçilik etmək və şagirdə kömək göstərməkdən ibarətdir.

**Cütlərlə iş** öyrənmə formalarından biridir. Adından da məlum olduğu kimi, bu öyrənmə formasında şagirdlər cütlərə ayrılır və verilən tapşırıqları birlikdə həll edirlər. Bu zaman cütlərdə birləşdirilmiş şagirdlərin bilik səviyyələri təxminən eyni, tapşırıqlar da onların səviyyələrinə uyğun olmalıdır. Cütlərin işi təhlil olunur. Fəal, tapşırığı tam və düzgün yerinə yetirən cütlər qalib elan olunurlar.

**Qruplarla iş.** Sinifdə müxtəlif qabiliyyətli, fərqli bilik səviyyəsinə malik şagirdlərdən qruplar yaradılır. Qrupda bütün şagirdlərin qarşılıqlı ünsiyyəti təmin olunmalıdır. Şagirdlər bir-birinə kömək göstərir, fikirlərini təsdiq və ya inkar edir, tapşırıqları birlikdə yerinə yetirirlər. Müəllim prosesin tənzimləyicisi, köməkçi, bələdçi rolunda çıxış edir. Əməkdaşlıq yolu ilə, qruplarla iş formasında öyrənmə şagirdlər üçün əhəmiyyətli hesab edilir.

**Kollektiv formalı** dərslərdə problem bütün şagirdlərin iştirakı ilə araşdırılır, yeni fəaliyyət bacarıqlarının bünövrəsi qoyulur. Şagirdlərdə ünsiyyət bacarıqlarının təşəkkülü və inkişafı təmin edilir.

Təlim formaları ilə yanaşı, mövzuya uyğun interaktiv metodlar da müəyyənləşdirilir. Metodlar müxtəlifdir. Müəllim metodları seçərkən mövzunun məqsədini, vəzifəsini, şagirdlərin yaş və inkişaf səviyyələrini, veriləcək bilik, bacarıqların həcmini, məşğələnin keçirilmə şəraitini nəzərə almalıdır.

Deyilənləri bir dərs nümunəsində nəzərdən keçirək.

**Mövzu:** Ad bildirən sözlər.

**Məzmun standartı:** 4.1.5. Ad, əlamət və hərəkət bildirən sözləri tanıyır, fərqləndirir.

**Təlim nəticəsi:** Ad bildirən sözləri digər sözlərdən fərqləndirir, bu sözlərin hansı suala cavab verdiyini müəyyən edir.

**İnteqrasiya:** təsviri incəsənət – 2.2.2 ;

**İş formaları:** kollektiv və qruplarla iş;

**İş metodları:** beyin həmləsi, müzakirə, anlayışın çıxarılması;

**Resurslar:** kompüter, proyektor, işçi vərəqləri.

**Dərsin gedişi**

Motivasiya məqsədilə şagirdlərə şəkillər göstərilir və onlara ad verilməsi təklif olunur. (şək.1)

Şagirdlərin fərziyyələri dinlənildikdən sonra tədqiqat sualı elan olunur.

**Tədqiqat sualı:** Ad bildirən sözlər necə müəyyən olunur ?

Tədqiqatın aparılması üçün şagirdlər 3 qrupa bölünür və onlara işçi vərəqləri paylanır.




**şəkil 1**

**İşçi vərəqi № 1 ( "Bakı" qrupu)**

1. "Dayımın evi Bakıdadır." cümləsində ad bildirən sözlər hansı suala cavab verir?
2. Sözlərdən hansı həm ad, həm hərəkət bildirir?

**İşçi vərəqi № 2 ("Günəş" qrupu)**

1. Şeirdə yaxınmənalı ad bildirən sözləri tapın.
2. "Lalə" sözünü *kim?* və *nə?* suallarına cavab verən sözlər kimi cümlədə işlədin.

## İşçi vərəqi № 3 (“Kür” qrupu)

1. ”Şagird dəftərini müəllimə göstərdi” cümləsində canlı və cansız varlıqları bildirən sözləri tapın.
2. Cümlədə nöqtələrin əvəzinə yer bildirən ad yazın.

   *Kür çayı ------------- tökülür.*

Qruplar tədqiqatı bitirdikdən sonra işlərini təqdim edirlər. Hər qrupun işi müzakirə olunduqdan sonra meyarlar cədvəlinə görə qiymətləndirilir.

| **meyarlar** / **qruplar** | **əməkdaşlıq** (qrup daxilində vəzifə bölgüsü nə əməl etmək) | **davranış** (digər qruplara işləməyə mane olmamaq) | **tapşırığın cavabını izah və təqdim etmək** | **digər qrupları dinləmək, sual vermək, əlavələr etmək** | **yekun** |
|---|---|---|---|---|---|
| **“Bakı”** | | | | | |
| **“Günəş”** | | | | | |
| **“Kür”** | | | | | |

**Nəticə və ümumiləşdirmə.** Bu mərhələdə şagirdlərin öyrəndikləri yeni biliklər ümumiləşdirilir. Şagirdlər öyrənirlər ki, ad bildirən sözlər həm canlı, həm də cansız varlıqlara aid olur. İnsan adları bildirən sözlər *kim?*, heyvan və cansız əşyaları bilirən sözlər *nə?*, yer adlarını bildirən sözlər *hara?* suallarına cavab verir.

Dərsin sonunda formativ qiymətləndirmə aparılır.

Fəal təlim metodlarının tədris prosesinə daxil edilməsi şagirdlərdə lazımi təfəkkür əməliyyatlarının və yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına, təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Əgər şagird müstəqil yeni biliklər kəşf edirsə, onda dərsə yaradıcı münasibət yaranır, əldə etdiyi bilikləri möhkəm mənimsəyir.


FORMATIV QIYMƏTLƏNDIRMƏ

| | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|
| Fərqləndirmə | Ad bildirən sözləri digər sözlərdən fərqləndirməkdə çətinlik çəkir | Ad bildirən sözləri digər sözlərdən müəllimin köməyi ilə fərqləndirir | Ad bildirən sözləri digər sözlərdən əsasən fərqləndirir | Ad bildirən sözləri digər sözlərdən düzgün fərqləndirir |
| Təyin etmə | Ad bildirən sözlərin hansı suala cavab verdiyini təyin etməkdə çətinlik çəkir | Ad bildirən sözlərin hansı suala cavab verdiyini müəllimin köməyi ilə təyin edir | Ad bildirən sözlərin hansı suala cavab verdiyini əsasən təyin edir | Ad bildirən sözlərin hansı suala cavab verdiyini düzgün təyin edir |

Şagirdin mövqeyi tədqiqatçı mövqeyidir. O, problemlərlə üzləşərkən onları müstəqil tədqiqat prosesində həll edir. Şagirdlər təlim prosesinin iştirakçısı, tədqiqatçı kimi çıxış edir, fəal axtarış prosesində bilikləri mənimsəyirlər. Bu prosesdə müəllim fasilitator kimi problemli vəziyyətləri planlı şəkildə təşkil edir, şagirdlərin qarşısına tədqiqat suallarının çıxmasına şərait yaradır, onların həllinə kömək göstərir.


**ədəbiyyat**

1. Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənn proqramı (kurikulumu).
2. Süleymanova A. Təhsilin əsasları. Bakı, 2014.
3. Veysova Z. Fənn müəllimləri üçün ixtisasartırma təhsilinin 2-ci modulu üzrə “Ümumi orta təhsil səviyyəsində yeni fənn kurikulumlarının tətbiqi üzrə” təlim kursunun iştirakçıları üçün təlim materialı. Bakı: “İnkişaf” EM, 2012.



**ИНТЕРАКТИВНОЕ ОБУЧЕНИЕ РАЗВИВАЕТ МЫШЛЕНИЕ УЧЕНИКА**

**резюме**

В статье речь идет об интерактивном обучении. Активное обучение представляет собой такую организацию и ведение учебного процесса, которая направлена на всесторонюю активизацию учебно-познавательной деятельности обучающихся посредством широкого, желательно комплексного, использования как педагогических (дидактических), так и организационно-управленческих средств. Так же приводится пример одного урока.



**INTERACTIVE TRAINING DEVELOPS THE STUDENT'S THINKING**

**summary**

The article is about interactive learning. Active learning is the organization and conduct of the learning process, which is aimed at the full activation of the educational and cognitive activities of the students through a broad, preferably complex, use of both pedagogical (didactic) and organizational and managerial means. An example of one lesson is also given.

# RİYAZİYYAT TƏLİMİNDƏ İNKİŞAFETDİRİCİ OYUNLAR VƏ MƏNTİQİ ÇALIŞMALARDAN İSTİFADƏNİN XÜSUSİYYƏTLƏRİ

**Azadə Kərimova,**
ADPU-nun dissertantı,
**İlhamə Zeynalova,**
Gəncə Dövlət Universitetinin dissertantı



**açar sözlər:** ibtidai siniflər, riyaziyyat təlimi, müstəqil təfəkkür qabiliyyətləri, didaktik oyunlar, əyləncəli oyunlar, məntiqi oyunlar, öyrədici, nəzarətedici, ümumiləşdirici oyunlar;

**ключевые слова:** начальные классы, обучение математике, независимое мышление, дидактические игры, развлекательные игры, логические игры, обучающие, контролируюущие, итоговые игры;

**key words:** initial classes, mathematical training, independent thinking, didactic games,entertaining games, logic games, training, controlling, final games.



Müasir didaktikanın əsas vəzifəsi təlim prosesində şagirdlərin tərbiyəsi, idrak maraqlarının artrılması, təfəkkür müstəqilliyinin yüksəldilməsidir. Görkəmli pedaqoq K.D.Uşinski göstərirdi ki, təlim işi üçün təfəkkür müstəqilliyi böyük əhəmiyyət kəsb edir. O, yazırdı: “Heç bir müəllim unutmamalıdır ki, onun ən başlıca vəzifəsi fənnin özünü öyrətməkdən daha çox uşaqları əqli əməyə alışdırmaqdan ibarət olmalıdır. Ona görə də şagirdlərdə müstəqil təfəkkür qabiliyyətlərinin tərbiyə edilməsinə daha çox diqqət yetirilməlidir”. Onun fikrincə, təlim prosesində şagirdlərə bu və ya digər biliyin verilməsi deyil, müstəqil surətdə bilik öyrənmək bacarığını inkişaf etdirməkdən ibarətdir. Müəllimin köməyi olmadan şagird yalnız kitabdan deyil, həm də onu əhatə edən mühitdən, həyati hadisələrdən məlumat toplamaq və faydalı biliklər almaq bacarığına yiyələnməlidirlər. Məhz belə olduqda insan bütün ömrü boyu öyrənməyə təşəbbüs göstərər ki, bunu da bizə peyğəmbərimiz Məhəmməd (s.ə.s.) tövsiyə etmişdir. K.D.Uşinskinin didaktikasından çıxarılan başlıca nəticə ondan ibarətdir ki, uşaqlar mümkün qədər müstəqil düşünməli, çalışmalı, müəllim isə rəhbərlik etməli, zəruri materiallar verməlidir.

Kiçikyaşlı məktəblilərin əsas fəaliyyət növü təlimdir. Bu prosesdə şagirdlər yeni bilik və bacarıqlar əldə edirlər. Həmin biliklərin şüurlu dərk edilməsində təfəkkürün müstəqilliyi də mühüm rol oynayır. Bu, aşağıdakı xüsusiyyətləri ilə özünü göstərir:

1) başqasının köməyi olmadan qarşıya müəyyən problemin, sualın, məqsədin qoyulmasında;

2) qarşısına qoyduğu məqsədə çatmaq, suala cavab vermək, problemi həll etmək üçün kənardan göstəriş olmadan vasitə, yol tapmasında və müəyyən nəticəyə gəlməsində;

3) bu və ya digər cisim və hadisəni törədən səbəblər haqqında müəyyən mülahizələr yürütməsində;

4) yiyələndiyi bilikləri, mənimsədiyi qanun və qaydaları digər idrak obyektlərində tətbiq etməsində.

Təlim prosesinin düzgün təşkili ilə şagirdlərdə müstəqil təfəkkürü inkişaf etdirmək qayğısına qaldıqda göstərilən xüsusiyyətlər şagirdlərin təlim fəaliyyətində özünü büruzə verir. Bu zaman şagirdlər kifayət qədər sərbəst olur, şablonlardan uzaqlaşırlar. Onların fəaliyyətində müstəqil düşüncəyə istinad edən hərəkətlər üstündür. Şagirdlər təlim materialının məzmununu kitabdakı hazır ifadələrlə deyil, öz sözləri ilə şərh edirlər. Ona görə də şagirdlərin riyaziyyatdan

zəruri bilik və bacarıqların mənimsənilməsində müsbət motivlərin yaradılması mühüm əhəmiyyət kəsb edir. Bunu dərk edən qabaqcıl müəllimlər dərs prosesində didaktik oyunlar və düşündürücü, əyləncəli çalışmalardan istifadə etməklə şagirdlərin müstəqil, yaradıcı və inkişafetdirici fəaliyyətinə geniş yer verirlər. Riyaziyyat dərslərində əyləncəli, düşündürücü didaktik oyunlardan, məntiqi məsələlərdən səmərəli istifadə fənnə böyük maraq doğurmaqla yanaşı, şagirdlərin yorğunluğunun qarşısını alır, onların diqqətini və təfəkkürünü inkişaf etdirilir.

Riyaziyyat dərslərində əqli gərginliyin artırılması, dərs prosesində şagirdlərin öyrənilən materialla maraqlandırılması və fəallığının yüksəldilməsi müəllimlərin gündəlik qayğısına çevrilmişdir. Bununla əlaqədar olaraq şagirdlərin düşüncələrini fəallaşdıran, biliklərin müstəqil əldə edilməsinə yönələn təlimin yeni, səmərəli metod və priyomlarının axtarılması davam edir.

Riyaziyyat dərslərində vəhdətdə yerinə yetirilən təhsil-tərbiyə funksiyalarına malik oyunların böyük əhəmiyyəti vardır. Qabaqcıl müəllimlərin iş təcrübəsinin öyrənilməsi, pedaqoji ədəbiyyatın təhlili və tədqiqatlar göstərir ki, didaktik oyunlardan son vaxtlara kimi yalnız riyaziyyat dərnəkləri, riyaziyyat səhərcikləri, fənn toplantılarının aparılmasında istifadə edilmiş, tədris prosesində onların imkanları kifayət qədər qiymətləndirilməmişdir. Problemlə bağlı metodik işləmələrin olmaması, müəllimin vaxtının çatışmazlığı bu işə mənfi təsirini göstərmişdir. Təcrübəli müəllimlər tədris prosesində oyun elementlərindən istifadəni müdafiə edirlər. Oyun prosesində uşaqlarda diqqəti toplamaq, müstəqil düşünmək vərdişləri, bilik qazanmaq cəhdləri inkişaf edir. Didaktik oyun prosesində uşaqlar müstəqil yeni biliklər əldə edir, fəal olmayanlar da bir-birinə kömək göstərirlər. Oyun prosesində uşaqlar yeni anlayışları asanlıqla mənimsəyir, tanış olmayan situasiyaya istiqamətlənir, onların təsəvvrləri, fantaziyaları inkişaf edir.

Didaktik oyunlar təlimlə çox yaxşı uzlaşır. Dərsə didaktik oyunların daxil olunması təlim prosesini maraqlı, əyləncəli edir, uşaqlarda şən və işgüzar əhvali-ruhiyyə yaradır, tədris materialının öyrənilməsində çətinlikləri aradan qaldırır. Müxtəlif oyunların köməyi ilə bu və ya digər əqli məsələnin həlli şagirdlərin tədris fənninə marağını artırır. Oyuna şagirdin əqli inkişafının əvəzolunmaz vasitəsi kimi baxılmalıdır. Dərsdə oyun elementlərindən istifadə edilməsi heç də şagirdlərin riyazi biliklərə asan yiyələnmələri demək deyildir. Təlim və tərbiyə vasitəsi olan didaktik oyunlara tədrisin digər növləri ilə sıx əlaqədə olan yaradıcı fəaliyyət növü kimi baxmaq lazımdır. Didaktik oyunlardan istifadə edərkən uşaqların maraqlarının saxlanmasını izləmək vacibdir. Uşaqlarda oyuna maraq olmadıqda onları məcbur etmək doğru deyildir. Belə ki, məcburi oyun artıq özünün inkişafetdirici əhəmiyyətini itirir, maraqsız oyunda müəllim dərhal vəziyyəti dəyişən tədbirlərə, ifadəli nitqə əl atmalıdır. Emosional nitq uşaqlarda maraq oyada bilər. Müəllimin nitqi quru, monoton olarsa, uşaqlar məşğələyə etinasız yanaşacaqlar. Oyunda riyazi məzmun ön plana çəkildikdə o, şagirdlərin riyazi inkişafını təmin edir.

Bir çox didaktik oyunlar şagirdlərin biliklərinə sanki heç bir şey gətirmir, lakin onların böyük əhəmiyyəti ondan ibarətdir ki, didaktik oyunlar şagirdlərə bilikləri yeni şəraitdə tətbiq etməyi öyrədir. Onlar həlli əqli fəaliyyətin rəngarəng formalaının tətbiqini tələb edən məsələlərlə məşğul olurlar. Didaktik oyun əqli inkişaf vasitəsidir, ona görə də oyun prosesində müxtəlif əqli proseslər fəallaşır.

Didaktik oyunlarda qoyulan məsələlərin həlli diqqət, fəal fikri fəaliyyət, müqayisə və ümumiləşdirmələrin aparılmasını tələb edir. Oz növbəsində didaktik oyunlar materialın məzmunundan, təşkili yollarından, məktəblilərin hazırlıq səviyyəsindən, dərsin məqsədindən asılı olaraq müxtəlif (produktiv, reproduktiv, yaradıcı, konstruktiv, praktik, tərbiyəedici və s.) xarakter ala bilər. Son nəticədə məşğələnin oyun formalarında birgə əməkdaşlıq, yarış, özünüidarə, kollektiv vasitəsilə tərbiyə, uşaqların elmi-texniki yaradıcılığa cəlb edilmələri, hər bir şagirdin tədris və intizama məsuliyyət hissinin tərbiyəsi riyaziyyatın təlimi ideyalarını reallaşdırır.

Didaktik oyunlardan təlim-tərbiyə və inkişaf vasitəsi kimi istifadə etmək mümkündür. Didaktik materiallar və oyun fəaliyyəti tədris prosesində avtomatik olaraq şagirdlərin fəallığını müəyyən tərəfə istiqamətləndirdiyi üçün öyrədici təsirə malikdir. Bu bölgü şərti olsa da, didaktik oyunları adi oyunlardan və dərsin oyun formasından fərqləndirmək lazımdır.

Dərsin oyun forması şagirdləri riyazi fəaliyyətə cəlb etməyin, stimullaşdırmağın vasitəsi kimi müxtəlif oyun priyomlarının və situasiyaların köməyi ilə yaradılır.

Məşğələnin dərs formasında oyun priyomları və situasiyaları aşağıdakı əsas istiqamətlərdə reallaşdırılır: didaktik məqsəd şagirdlər qarşısında oyun məsələsi formasında qoyulur; onların tədris fəaliyyəti oyun qaydalarına tabe olan oyun vasitəsi kimi istifadə edilir; tədris fəaliyyətinə didaktik məsələni oyun məsələsinə çevirən yarış elementləri daxil edilir; didaktik tapşırıqların yerinə yetirilmə müvəffəqiyyəti oyunun nəticəsi ilə əlaqələndirilir. Riyazi məzmunlu didaktik oyunların təşkilində aşağıdakı pedaqoji aspektlərə diqqət yetirilməsi zəruridir:

1.Oyunun məqsədi. Oyun prosesində şagirdlər riyaziyyat üzrə hansı bilik və bacarıqlara yiyələnəcəklər? Oyunun hansı anına daha çox diqqət yetirmək lazımdır? Oyun prosesində daha hansı tərbiyəvi məqsədlər həyata keçirilir?

2. Oynayanların sayı. Hər bir oyun müəyyən minimum və maksimum sayda oyunçu tələb edir. Oyunun təşkilində bunları nəzərə almaq lazımdır.

3. Oyun üçün hansı didaktik materiallar və vəsaitlər lazımdır?

4. Uşaqların oyun qaydaları ilə tanışlığına minimum nə qədər vaxt sərf etməli?

5. Oyun üçün nə qədər vaxt nəzərdə tutulmuşdur? O, əyləncəli, maraqlı və cəlbedici olacaqmı? Şagirdlər ona bir daha qayıtmağı arzu edəcəklərmi?

6. Oyunda bütün şagirdlərin iştirakını necə təmin etməli?

7. Bütün şagirdlərin oyuna qoşulmalarını aydınlaşdırmaq üçün uşaqlar üzərində müşahidəni necə təşkil etməli?

8. Uşaqların fəallığını və marağını yüksəltmək üçün oyuna hansı dəyişiklikləri əlavə etmək lazımdır?

9. Oyundan sonra uşaqlara hansı nəticəni söyləmək lazımdır (oyunun ən yaxşı anları, oyunda yol verilən nöqsanlar, riyazi biliklərin mənimsənilməsinin nəticələri, oyun iştirakçılarının qiymətləri, intizamın pozulması haqqında xəbərdarlıq və s.)?

Dərsin müxtəlif mərhələlərində didaktik oyunlardan istifadə edilməsi məqsədəuyğundur. Belə ki, məsələn, yeni biliklərin mənimsənilməsində didaktik oyunların imkanlarından istifadədə təlimin ənənəvi formalarına daha çox üstünlük verilir. Ona görə məşğələnin oyun forması təlimin nəticələrinin yoxlanılmasında, vərdişlərin əldə edilməsində, bacarıqların formalaşdırılmasında daha çox tətbiq edilir. Oyun prosesində şagirdlərdə mütəşəkkillik, məqsədyönlülük, təlimə müsbət münasibət yaranır.

Dərsin strukturunda didaktik oyunların yerinin müəyyən edilməsi, oyun elementləri ilə təlimin birləşməsi müəllimin didaktik oyunların funksiyalarını və onların təsnifatını düzgün başa düşməsindən çox asılıdır. İlk növbədə sinifdə kollektiv oyunları dərsin didaktik vəzifələri üzrə bölmək lazımdır. Bunlar *öyrədici, nəzarətedici, ümumiləşdirici* oyunlardır.

Əgər şagird oyunda iştirak edərək yeni bilik, bacarıq və vərdişlərə yiyələnərsə və ya oyuna hazırlıq prosesində onları əldə etmək məcburiyyətində qalırsa, onda belə oyunlar *öyrədici oyunlar* adlanır.

Nəzərə almaq lazımdır ki, idrak fəaliyyətinin motivi yalnız oyunda deyil, həm də riyazi materialın məzmununda nə qədər dəqiq ifadə edilərsə, biliklərin mənimsənilmə nəticəsi o qədər yaxşı olacaqdır.

Əgər didaktik məqsəd təkrarlamaqdan, möhkəmləndirmədən, əvvəllər əldə edilmiş biliklərin yoxlanılmasından ibarət olarsa, belə oyunlara *nəzarətedici oyunlar* deyilir. Belə oyunlarda iştirak etmək üçün hər bir şagirdə müəyyən riyazi hazırlıq zəruridir.

*Ümumiləşdirici oyunlar* biliklərin inteqrasiyasını tələb edir. Onlar fənlərarası əlaqələrin yaradılmasına imkan verir, müxtəlif tədris situasiyalarında fəaliyyət göstərmək bacarıqlarının əldə edilməsinə istiqamətlənir.

Didaktik oyunların səciyyəvi xüsusiyyəti və mühüm əlaməti ondan ibarətdir ki, onların dayanıqlı strukturu vardır. Bu da onu hər hansı digər fəaliyyət növlərindən fərqləndirir. Didaktik

oyunların əsas struktur komponentləri aşağıdakılardır: oyunun adı (ideyası), qaydası, oyun fəaliyyəti, idrak məzmunu –didaktik vəzifələri, təchizat, oyunun nəticəsi.

Təlimin dəqiq müəyyən edilmiş məqsədinin olması və ona uyğun əsaslandırıla bilən, aşkar şəkildə ayrılan və tədris-idrak istiqaməti ilə xarakterizə olunan pedaqoji nəticələrin olması didaktik oyunları digər oyunlardan fərqləndirən əlamətlərdir.

Didaktik oyunların struktur konponentlərinin mahiyyətini şərh edək. *Oyunun ideyası* ilk struktur komponent olaraq, oyunun adında ifadə edilir, tədris prosesində həll olunan didaktik vəzifələrdə qoyulur. Oyunun ideyası çox vaxt onun idrak xarakterini verir, oyun iştirakçılarına biliklərə münasibətdə müəyyən tələblər verir.

Hər bir didaktik oyunda əməliyyatların ardıcıllığını və şagirdlərin intizamını müəyyən edən, dərsdə işgüzar şəraitin yaranmasına imkan verən qaydalar vardır. Ona görə də didaktik oyun qaydaları dərsin məqsədini və şagirdlərin fərdi imkanlarını nəzərə almaqla hazırlanmalıdır. Bununla da müstəqillik, təkidlilik, fikri fəallıq göstərilməsi üçün şərait yaradılır. Nəticədə hər bir şagirdin müvəffəqiyyət qazanması üçün imkanlar artır. Oyun qaydaları öz davranışını idarə etməyi, kollektivin tələblərinə tabe olmağı tərbiyələndirir.

Didaktik oyunların mühüm komponentləri olan əməliyyatlar qaydalarla nizamlanır, şagirdlərin idrak fəallığına şərait yaradır. Onlara öz qabiliyyətlərini göstərməyə, oyunun məqsədinə çatmaq üçün bilik, bacarıq və vərdişləri tətbiq etməyə imkan verir. Oyun əməliyyatları çox vaxt məsələnin şifahi həllini qabaqlayır. Müəllim oyunu lazımi didaktik məcraya istiqamətləndirir. Onun gedişini rəngarəng priyomlarla fəallaşdırır, oyuna marağı dəstəkləyir, geridə qalanları ruhlandırır.

Didaktik oyunların əsasını onun struktur elementlərinin keçdiyi idrak məzmunu təşkil edir. İdrak məzmunu oyunda nəzərdə tutulan tədris probleminin həllində tətbiq edilən bilik və bacarıqların mənimsənilməsindən ibarətdir.

Didaktik oyunlar dərsin təchizatını da (texniki vasitələr, diapozitivlər, kodopozitivlər və diafilmlər) özündə birləşdirir. Buraya, həmçinin, müxtəlif əyani vəsaitlər də (cədvəllər, modellər, paylama materialları, qalib komandaya verilən bayraqlar və s.) daxildir.

Didaktik oyunların finalı ona bitkinlik verir. O, özünü qoyulan tədris məsələsinin həlli formasında göstərir, şagirdlərə mənəvi, əqli məmnunluq verir. Oyunun nəticəsi müəllim üçün həmişə şagirdlərin əldə etdikləri nailiyyətlərin, biliklərin mənimsənilməsinin və ya onların tətbiqi səviyyəsinin göstəricisidir.

Didaktik oyunların bütün struktur elementləri qarşılıqlı əlaqədədir. Onların bəzilərinin olmaması oyunu pozur. Oyun əməliyyatları, qaydalar olmadan onu təşkil etmək mümkün deyil. O, özünün səciyyəvi formasını itirir, sadəcə çalışmaların, göstərişlərin yerinə yetrilməsi prosesinə çevrilir. Ona görə də didaktik oyun daxil olan dərsə hazırlaşdıqda onun gedişinin xarakteristikasını tərtib etmək, vaxt məhdudiyyəti qoymaq, şagirdlərin bilik səviyyəsi və yaş xüsusiyyətlərini nəzərə almaq, fənlərarası əlaqələri reallaşdırmaq lazımdır.

Oyun elementlərinin vəhdəti və qarşılıqlı təsiri onun mütəşəkkilliyini, səmərəliliyini yüksəldir, arzu olunan nəticəyə gətirir.

Dərsdə didaktik oyun məqsəd deyil, təlim və tərbiyə vasitəsidir. Oyunu əyləncə ilə qarışdırmaq, həzz almaq naminə məmnunluq gətirən fəaliyyətə çevirmək olmaz. Didaktik oyuna tədris işinin digər növləri ilə qarşılıqlı əlaqədə, onu yaradıcı fəaliyyətə çevirən vasitə kimi baxmaq lazımdır. *Didaktik oyun* anlayışında onun pedaqoji istiqamətləri qeyd edilir:

1. Oyun qaydaları dəqiq ifadə edilməli, materialın riyazi məzmunu şagirdlərin başa düşəcəkləri dildə olmalıdır. Əks halda, oyun maraq doğurmayacaq, formal keçəcəkdir.

2. Oyun fikri fəaliyyətə kifayət qədər qida verməlidir. Əks halda o, pedaqoji məqsədlərin yerinə yetirilməsinə təsir göstərməyəcək, riyazi diqqəti inkişaf etdirməyəcəkdir.

3. Oyunda istifadə edilən didaktik materiallar əlverişli olmalıdır.

4. Komandaların yarışı ilə əlaqədar oyunların aparılmasına, onun nəticələrinə bütün şagird kollektivi və ya seçilmiş şəxslər tərəfindən nəzarət edilməlidir. Yarışın nəticələrinin hesaba alınması şəffaf və ədalətli olmalıdır.

**ədəbiyyat**

1. Adıgözəlov A.S. Məktəbdə riyaziyyatın tədrisi metodikası. Bakı: ADPU-nun nəşriyyatı, 2015.
2. Kərimov Y.Ş. Təlim metodları. Bakı: "RS Poliqraf" MMC, 2009.
3. Veysova Z. Fəal-interaktiv təlim. (müəllim üçün vəsait). YUNİSEF, 2007.

**ОСОБЕННОСТИ ИСПОЛЬЗОВАНИЯ РАЗВИВАЮЩИХ ИГР, РАЗВЛЕКАТЕЛЬНЫХ И ЛОГИЧЕСКИХ УПРАЖНЕНИЙ В ОБУЧЕНИИ МАТЕМАТИКЕ В НАЧАЛЬНЫХ КЛАССАХ**

**резюме**

В статье рассказывается об особенностях использования развивающих игр, развлекательных и логических упражнений в обучении математике в начальных классах. Отмечается педагогические аспекты, которые следует учитывать при организации математических дидактических игр.

**PECULIARITIES OF USING DEVELOPING GAMES, ENTERTAINING AND LOGICAL EXERCISES IN TEACHING MATHEMATICS IN PRIMARY CLASSES**

**summary**

The article describes the features of the use of developing games, entertaining and logical exercises in teaching mathematics in primary classes. Pedagogical aspects are noted, which should be taken into account when organizing mathematical didactic games.

# İBTİDAİ SİNİFLƏRDƏ QEYRİ-STANDART DƏRSLƏRİN TƏŞKİLİNƏ DAİR

**Humay Cəbiyeva,**
ARTİ-nin baş mütəxəssisi



**açar sözlər:** qeyri-standart dərs, dərsin səmərəliliyi, dərs-ekskursiya, nağıl-tapşırıq, xalça sexi, xana, əyanilik, yaradıcılıq;

**ключевые слова:** нестандартный урок, эффективность урока, урок-экскурсия, задача-сказка, ковровый цех, хана–ковроткаческий станок, наглядность, творчество;

**key words:** non-standard lesson, effectiveness of the lesson, lesson-excursion, task-fairy tale, bucket workshop, han – kowtrow machine, visibility, creativity.

Təlimin səmərəsi onun hansı formada təşkil olunmasından asılıdır. Buna görə də təlimin səmərəli formalarının seçilməsi böyük əhəmiyyətə malikdir.

Təlimin təşkili formalarından biri qeyri-standart dərslərdir. Belə dərslər, mahiyyət etibarilə, standart quruluşa malik olmayan, improvizə edilmiş dərslərdir. Belə dərslərin yaranması təhsilin demokratik əsaslarda qurulmasının nəticəsidir.

Qeyri-standart dərslər şagirdlərdə dərsə maraq yaratmağa, idrak proseslərini (diqqət, düşüncə, təxəyyül, yaddaş və s.), yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə, lazım gəldikdə bir fəaliyyətdən digərinə keçməyə imkan verir. Qeyri-standart dərslərin formaları müxtəlifdır: – ŞHK (Şən və Hazırcavablar Klubu), dərs-ekskursiya,dərs-oyun, dərs-müsabiqə, dərs-nağıl, dərs-yarış, yaradıcı dərslər, inteqrativ dərslər və s. Bu formalardan həm yeni, həm də ümumiləşdirici dərslərdə istifadə etmək olar.

Şagirdlər qeyri-standart dərsə əsaslı şəkildə hazırlanmalı, onun məqsədi, gedişi barədə məlumatlandırılmalı, onlara qabaqlayıcı tapşırıqlar verilməlidir.

**Dərs-ekskursiya** şagirdləri fəaliyyətin müxtəlif növlərinə cəlb edir, onların idrak fəallığını, bacarıqlarını inkişaf etdirir. Dərsin bu formasında şagirdlər real həyatla dərs arasında əlaqə yaradırlar. Əyanilik, elmilik, müyəssərlik, nəzəri və praktik xarakterli didaktik prinsiplər dərs-eks-

kursiyada reallaşır. Müəllim ekskursiyanın məqsəd və vəzifələrini müəyyənləşdirməli, ona uyğun plan tərtib etməlidir.

Dərs-ekskursiya üçün məkanın seçilməsi də əsas şərtdir. Bu zaman təlim materialı ilə yanaşı, şagirdlərin marağı da nəzərə alınmalıdır. Əgər ekskursiya muzeydə, teatrda, rəsm qalereyasında və s. yerlərdə keçiriləcəksə, müəllim əvvəlcədən həmin təşkilatlarla əlaqə saxlamalı, onun vaxtını, ekskursiyanın mahiyyəti barədə məlumatı dəqiqləşdirməlidir. Ekskursiya zamanı müəllim çalışmalıdır ki, şagirdlər yalnız məlumatla yüklənməsinlər. Şagirdlər müşahidə edilən əşyanı diqqətlə nəzərdən keçirməli, əl ilə toxunmalı, iyləməli, əşya barədə onlarda tam təsəvvür yaradılmalıdır. Heydər Əliyev adına liseyin ibtidai sinif müəllimi, əməkdar müəllim Hökümə Xələflinin təşkil etdiyi "Xalça muzeyinə səyahət" adlı dərs-ekskursiyanı nəzərdən keçirək:

**Sinif:** III ;

**Fənn:** Azərbaycan dili;

**Standart:** 1.1.1., 2.1.1.;

**Mövzu:** "Bahalı xalça".

Azərbaycan mədəniyyətinin ən qədim nümunələrindən biri olan xalçalarımız haqqında daha ətraflı məlumat almaq, müxtəlif çeşidli xalçalarla tanış olmaq məqsədilə şagirdlər Xalça muzeyinə getdilər. Muzeyin şöbə müdiri Aygün Əliyeva iplər təbii boyalarla rəngləndiyi üçün xalçaların üzərindəki naxışların uzun illər solmaması, bir əsr əvvəl Qarabağda aparılan qazıntılar zamanı 2500 yaşlı Azərbaycan xalçasının tapılması, hazırda Sankt-Peterburqda, Ermitajda saxlanması barədə geniş məlumat verdi.

Uşaqlara xalçalar üçün ipliklərin rənglənməsində istifadə olunan təbii bitkilərin şəkillərindən ibarət stend nümayiş etdirildi. Şagirdlər Quba, Bakı, Şirvan, Şamaxı, Qarabağ və digər bölgələrimizin xalçaları ilə tanış oldular, həmin xalçaların üzərindəki naxışlar, onların mənaları haqqında geniş məlumat aldılar. Onlar buta naxışının 99 növünün olduğunu öyrəndilər. Azərbaycan xalqının milli mədəniyyətinin əvəzsiz nümunəsi olan xalçalarla tanışlıq onlarda xoş təəssürat yaratdı.

Xalçanın xanada toxunma prosesi şagirdlərə nümayiş etdirildi. *Əriş, arğac, ilmə, yun yumaqlar,* Azərbaycan xalçalarında istifadə olunan naxışlarla ("buta","insan","ceyran","dəvə", "ulduz" və s.) əyani tanışlıq onları məmnun etdi. Şagirdlər öz təəssüratları əsasında esse yazdılar.

**Dərs-ekskursiya.** Bakı Avropa liseyinin ibtidai sinif müəllimi P. Qədimovanın "Sayların müəyyənləşdirilməsi və müxtəlif formalarda (barqraf, diaqram və ya cədvəl) göstərilməsi" mövzusunda dərs-ekskursiyanı nəzərdən keçirək.

**Sinif:** IV

**Fənn:** riyaziyyat;

**Standart:** 5.1.1.;

**Mövzu:** "Sayların müəyyənləşdirilməsi və müxtəlif formalarda göstərilməsi" mövzusuna dair məlumatları araşdırıb təqdim edin.

Dərs-ekskursiya təhsil ocağına yaxın ərazidə yerləşən parkda təşkil edilmişdir. Şagirdlər dərsliyin VI bölməsində "Məlumatı araşdırın və təqdim edin" mövzusunda deyilənləri müxtəlif qrafik formalarda (barqraf, diaqram, cədvəl və s.) təqdimetmə, verilmiş rəqəmlərə görə ədədi ortanı, ən böyük fərqi, ən çox təkrarlanan nəticəni müəyyənləşdirmə bacarıqlarını göstərdilər.

Tapşırıqlar məntiqi, tənqidi və yaradıcı təfəkkürə uyğun tərtib edilmiş və əvvəlcədən şagirdlərə izah olunmuşdu. Sonra şagirdlər 4 qrupa bölündülər. Onlar müəyyən edilmiş vaxt ərzində üç tapşırıq yerinə yetirməli idilər:

1) Şagirdlər öz aralarında müzakirə prosesində nəyi araşdıracaqlarını müəyyənləşdirməli və işi 2 formada (barqraf və ya diaqram, barqraf və ya cədvəl) təqdim etməlidirlər.

2) Toplanılan məlumatlarda ədədi ortanı, ən böyük fərqi, ən çox təkrarlanan müvafiq nəticəni müəyyənləşdirməlidirlər.

3) Topladıqları məlumatlar əsasında belə məsələ qurmalıdırlar: “Gün ərzində parka cəmi 1850 nəfər adam gəlmişdi. Qadınların sayı uşaqların sayından 200 nəfər çox, kişilərin sayı isə uşaqların sayından 150 nəfər az idi. Gün ərzində parka neçə nəfər uşaq gəlmişdi?”. Tam, hissə modelinə uyğun məsələ qurulur.

Şagirdlər qruplara bölünürlər.Hər bir qrupa tapşırıq verilir:

I qrup : Park daxilindəki vəhşi və ev heyvanlarının, quşların fiqurlarının sayını müəyyənləşdirin. Məlumatı barqraf şəklində təqdim edin.

II qrup : Gün ərzində parka daxil olan kişi, qadın və uşaqların təxmini sayını müəyyənləşdirin. Məlumatı cədvəl şəklində təqdim edin.

III qrup : Parkın ərazisində olan, cərəyanla və cərəyansız işləyən attraksionların sayını müəyyənləşdirin. Məlumatı barqraf şəklində təqdim edin.

IV qrup : Parkın ərazisindəki dekorativ bitkilər, güllər və ağacların sayını müəyyənləşdirin. Toplanan məlumatları diaqram şəklində təqdim edin.

Müəyyən olunmuş vaxt ərzində tədqiqat aparılır, nəticələr təqdim edilir və qiymətləndirilir.

**Nağıl-tapşırıq.** Qeyri-standart dərsin bu növü mövzu ümumiləşdirilərkən aparılır. Dərs şagirdlərə tanış olan nağıllar əsasında keçilir.

Nağıl və riyaziyyat bir-biri ilə uyğun olmayan anlayışlardır, lakin nağıl forması riyazi məsələlərə qeyri-adi, əyləncəli vəziyyətlərdən istifadə etməklə materialı mənimsəməyə imkan verir. Nağılların köməyi ilə şagirdlərdə dərsə maraq yaratmaq olar. Nağıl qəhrəmanlarına kömək məqsədilə təşkil olunan dərs əslində müəyyən məzmun standartlarının reallaşdırılmasına, riyazi bilik və bacarıqların formalaşdırılmasına xidmət edir.

“Zəngi” liseyinin ibtidai sinif müəllimi İlahə Rüstəmovanın iş təcrübəsindən:

**“Su pərisi” nağılı.** Biri var idi, biri yox idi, bir su pərisi var idi. Bir gün su pərisi dənizin dərinliklərindən suyun üzünə çıxdı. Ətrafa baxdı, yenilikləri, gözəllikləri gördü. Öyrəndi ki, hər bir inkişafın mənbəyində elm, bilik durur. Su pərisi qərara aldı ki, o da biliklərə yiyələnsin.



Su pərisi əvvəlcə saymağı öyrənmək istədi. Gəlin bu işdə ona kömək edək.

- Şəkildə neçə su ilbizi var?
- Neçə xərçəng var?
- Neçə dəniz atı var?
- Neçə böyük balıq var?
- Neçə kiçik balıq var?
- Kiçik balıqların sayı çoxdur, yoxsa böyük balıqların?

Şagirdlər suallara əsasən şəkil üzrə tapşırığı yerinə yetirirlər. Onlar guya Su pərisinə kömək edirlər, əslində isə saymağı öyrənirlər. Su pərisi sayla bağlı öyrəndiyi biliklər haqqında dostlarına xəbər verdi. Dostları çox sevindilər.

– Uşaqların Su pərisinə nə dediklərini bilmək istəyirsinizsə, misalları həll edib, sözü tapın.

19–11= **8** **f**
19–12= **7** **ə**
20–19= **1** **a**
22+8= **30** **r**
6+8= **14** **i**
15+5= **20** **n**

| 1 | 8 | 7 | 30 | 14 | |
|---|---|---|---|---|---|
| **a** | **f** | **ə** | **r** | **i** | **n** |

– Su pərisi bilik qazanmaq istəyəndə siz ona kömək etdiniz. Onun da sizə sözü var. Tapın görək, o, nə demək istəyir?

20–8–11= **1....lər**

19–9–2= **8.....tə**
19–5–7= **7......kür**
8+6+6= **20** **......şək**

| 8 | 20 | 7 | 1 |
|---|---|---|---|
| **tə** | **şək** | **kür** | **lər** |

Beləliklə, nağıl-tapşırıqlar vasitəsilə şagirddlərdə hesablama bacarıqları inkişaf etdirilir. Təlim prosesində qeyri-standart dərslərə müraciət olunması şagirdlərdə təlimə marağı artırır, onların dərsdə fəal iştirakını təmin edir.

**ədəbiyyat**


1. Bəkirova E., Quliyeva-Rüstəmova İ. Riyaziyyatdan didaktik materiallar. (I sinif ). Bakı, 2010.
2. http://muallim.edu.az/content/?category=arxiv&issue=16-2017&content_id=32.
3. http://xn--i1abbnckbmcl9fb.xnp1.
4. http://pedsovet.su/metodika/6519_urok_eksursia.
5. https://open-lesson.net/4339/.


**ОБ ОРГАНИЗАЦИИ НЕСТАНДАРТНЫХ УРОКОВ В НАЧАЛЬНЫХ КЛАССАХ**


**резюме**

В статье представлено организация нестандартных уроков в начальных классах. Отмечается, что использование нестандартных уроков в процессе обучения создает огромные возможности для эффективной организации деятельности учителя и познавательной деятельности учащихся.


**ABOUT ORGANIZATION OF NON-STANDARD LESSONS IN INITIAL CLASSES**


**summary**

The article presents the organization of the non-standard lessons in primary classes. The use of the non-standard lessons in the learning process creates wide opportunities for the effective organization of teacher activities and the cognitive activity of students.


# MÜRƏKKƏB CÜMLƏNİN TƏDRİSİ PROSESİNDƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI


**Fatma Əliquliyeva,**
ADPU-nun magistrantı





**açar sözlər:** sintaksis, mürəkkəb cümlə, morfologiya, düşüncə, anlayış;
**ключевые слова**: синтаксис, составное предложение, мышление, морфология, концепция;
**key words:** syntax, compound sentence, thinking, morphology, concept.


Şagirdlər məktəbə gəldikləri ilk gündən cümlə ilə praktik şəkildə tanış olurlar. Professor Y.Ş. Kərimov qeyd edir ki, "Cümlə haqqında praktik bacarıq və vərdişlər uşağın dil açdığı dövrdən yaranmağa başlayır. Uşaq hər hansı bir əşyanı göstərib, onu almağı tələb edirsə, artıq cümlə qurur." (1)

İbtidai siniflərdə mətndən cümlə seçərək sözlərə ayırmaq, sözlərdən cümlələr düzəltmək prosesində şagirdlərin təsəvvürləri genişlənir.

I–II sinif şagirdləri mətni oxuyarkən tez-tez mürəkkəb cümlələrlə qarşılaşsalar da, mətnin məzmununu danışarkən onlardan istifadə etsələr də, bu haqda ilk anlayışı III sinifdə alırlar.

"Dil qaydaları" məzmun xəttində sintaksis bölməsi üzrə mənimsənilən, çətin reallaşdırılan standartlardan, təlim nəticələrindən biri də mürəkkəb cümlə haqqında biliklərdir. Müəllim dərsdə şagirdlərə izah etməlidir ki, mürəkkəb cümlə sadəcə olaraq ayrı-ayrı cümlələrin birləş-

məsindən ibarət deyil. Sadə cümlələr yalnız məna, forma və intonasiyasına görə birləşib, mürəkkəb cümlə əmələ gətirir.

İbtidai siniflərdə mürəkkəb cümlənin tədrisi bir neçə cəhətdən əhəmiyyətlidir: hər şeydən əvvəl, o, III–IV sinif şagirdlərinin şifahi və yazılı nitqini inkişaf etdirir; onların təfəkkürünü, dərketmə qabiliyyətini formalaşdırır; müstəqilliyini artırır, sintaksisdən alınan nəzəri məlumatların təcrübədə tətbiqini intensivləşdirir, morfologiya ilə sintaksis bölmələri arasındakı münasibətləri fərqləndirməyə imkan yaradır. Biz nitqimizi yalnız sadə cümlələrlə ifadə edə bilmərik. Elə fikirlər var ki, onları sadə cümlələrlə verdikdə əlavə sözlər tələb oluna bilər. Bu, mürəkkəb cümlənin ibtidai siniflərdə səmərəli tədrisinin zəruriliyini göstərir. Professor Y.Ş.Kərimov bu zəruriliyi belə əsaslandırır: "Mürəkkəb cümlə üzrə çalışmalar rəngarəng olmalıdır: mətndən mürəkkəb cümlələrin seçilməsi, mürəkkəb cümlənin tərkibindəki sadə cümlələrin ayrılması, qarışıq verilmiş sadə cümlələrdən mürəkkəb cümlənin düzəldilməsi, həmin sadə cümləyə uyğun cümlə tapıb, mürəkkəb cümlənin tərtib edilməsi, mürəkkəb cümlədəki fikrin sadə cümləyə çevrilməsi və müstəqil mürəkkəb cümlənin qurulması"(1).

Təcrübə göstərir ki, mürəkkəb cümlənin tədrisində çətinlik törədən başlıca məsələ onunla sadə cümlə arasındakı oxşar və fərqli cəhətlərin şagirdlərə başa salınmamasıdır. III–IV sinif şagirdlərinə çatdırılmalıdır ki, sadə və mürəkkəb cümlələr arasındakı oxşar cəhətlər onların *predikativlik, intonasiyalılıq, modallıq* əlamətləri ilə yanaşı, həm də zaman, şəxs kateqoriyalarına malik olmasıdır.

Fərqli cəhətlər isə sadə cümlənin bir, mürəkkəb cümlənin iki qrammatik əsasa malik olması, sadə cümlənin sonunda səs tonunun alçalması, mürəkkəb cümləni təşkil edən birinci komponentin sonunda isə yüksəlməsi, dinləyiciyə fikrin bitmədiyini, hələ davam etdiriləcəyini bildirməsidir. İkinci komponentin axırına doğru səs tonu alçalır, başqa sözlə – mürəkkəb cümlənin sonuncu komponentində intonasiyaya əməl olunur.

III sinif üçün "Dil qaydaları" məzmun xətti üzrə təlim məqsədlərində oxuyuruq: "4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir".

**Təlim məqsədləri:**

• Əsas nitq hissələrini (isim, sifət, say və s.) fərqləndirir və müvafiq terminlə adlandırır.
• Cümlənin baş üzvlərini (mübtəda, xəbər) fərqləndirir və müvafiq terminlə adlandırır.

4.1.6. Cümlənin formalaşmasında baş və ikinci dərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir.

**Təlim məqsədləri:**

• Cümlə üzvünün sualını müəyyən edir.
• Cümlə üzvü rolunda çıxış edən söz birləşmələrini müəyyən edir.

4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir.

**Təlim məqsədləri:**

• Nəqli, sual və əmr cümlələrini fərqləndirir.
• Cümləni növündən asılı olaraq, düzgün intonasiya ilə tələffüz edir.
• Cümləni növündən asılı olaraq, müvafiq durğu işarəsi ilə tamamlayır" (4, səh. 13).

Göründüyü kimi, burada şagirdin cümlənin formalaşmasında baş və ikinci dərəcəli üzvlərin rolunu izah etməsi təlim məqsədi kimi tələb olunur.

IV sinifdə isə intonasiyaya ***və*** bitişdiricisi, ***amma, ancaq, lakin*** qarşılıq bildirən, ziddiyyət əlaqəli bağlayıcılarla əmələ gələn tabesiz mürəkkəb cümlələr üzərində iş aparılır. Müəllimlər onu nəzərə almalıdırlar ki, tabesiz mürəkkəb cümlənin tərkib hissələri eyni hüquqlu, müstəqil görünsə də, sintaktik-semantik bütövlük təşkil edir ki, burada tərkib hissələr bir-birindən qarşılıqlı surətdə asılıdır.

Bu asılılıq isə müxtəlif məna əlaqələrində özünü əks etdirir.

Tabeli mürəkkəb cümlələri təşkil edən komponentlərin bərabərhüquqlu olmaması, onlar arasındakı asılılığın birtərəfliyi, komponentlərin bağlanmasında tabeedici bağlayıcılardan və intonasiyadan istifadə olunması xarakterik xüsusiyyətlərdir. Budaq cümlədə zaman, mübtəda,

tamamlıq və zərfliyin baş cümlədəkinə görə müəyyənləşdirilməsi, sualın ona əsasən verilməsi cümlələrin növlərini fərqləndirən başlıca cəhətlərdir. Belə bir nəzəri hazırlığa malik olmadan III–IV siniflərdə mürəkkəb cümlə haqqında praktik iş aparmaq, şagirdləri bu barədə sadə bilik, bacarıq və vərdişlərlə silahlandırmaq qeyri-mümkündür.

Tədqiqatlar göstərir ki, tabeli və tabesiz mürəkkəb cümlələrin ümumi və xüsusi cəhətlərini nəzərə alaraq, IV sinifdə mürəkkəb cümlənin tədrisi aşağıdakı prinsiplərə əsaslanmalıdır:

• mürəkkəb cümlənin tədrisinin praktik xarakter daşıması;

• mürəkkəb cümlənin sadə cümlələrin məna və intonasiya cəhətdən birləşməsindən yarandığını nəzərə alaraq, onun tədrisində intonasiya üzrə işin əsas götürülməsi;

• mürəkkəb cümlənin tədrisində durğu işarələrinin düzgün işlədilməsinin təmin olunması;

• mürəkkəb cümlənin qrammatik və quruluşca təhlilinə xüsusi yer verilməsi, eyni zamanda onun iki və daha artıq qrammatik əsasa malik olmasının müəyyənləşdirilməsi;

• mürəkkəb cümlənin tədrisinin nitq inkişafı istiqamətində aparılması.

Bu prinsiplərin həyata keçirilməsinə müəyyən tələblər verilir:

• Şagirdlərə yalnız iki sadə cümlənin birləşməsindən yaranan mürəkkəb cümlələr təqdim olunmalıdır.

• Mürəkkəb cümlələr üzərində iş şagirdlərin sadə cümlələr haqqındakı biliklərinə istinadən, müqayisəli aparılmalıdır.

• Mürəkkəb cümlə şagirdlərə sadə cümlənin inkişaf etmiş forması kimi təqdim olunmalıdır.

• Mürəkkəb cümlənin tərkibindəki komponentlərin sintaktik cəhətdən əlaqələndirilməsi şagirdlərə sadə cümlədə sözlərin əlaqələndirilməsinə xas olan qanunauyğunluq əsasında izah edilməlidir.

III–IV siniflərdə mürəkkəb cümlələr üzərində işin belə təşkili şagirdlərin qrammatikadan aldıqları bilikləri dərinləşdirməklə, bütövlükdə dili şüurlu mənimsəməyə geniş imkanlar yaradır, onun məntiqini, qrammatik əlaqələr sistemini, nitq təcrübəsində müxtəlif formalarda tətbiqini aydınlaşdırır.

Bütün bunlar III–IV siniflərdə şagirdlərin aşağıdakı biliklərə yiyələnmələrini təmin edir:

• Mürəkkəb cümlə iki və daha artıq sadə cümlənin (bağlayıcısız, bağlayıcılı) birləşməsindən yaranır. Bağlayıcısız mürəkkəb cümləları əmələ gətirən sadə cümlələrin arasında, bağlayıcılı mürəkkəb cümlələrdə ***ki*** bağlayıcısından sonra, ***amma, ancaq, lakin, çünki*** bağlayıcılarından əvvəl vergül qoyulur. Sadə cümlələri bir-birinə bağlayan ***və*** bağlayıcının işləndiyi mürəkkəb cümlələrdə vergüldən istifadə edilmir.

• Mürəkkəb cümlənin bir ümumi intonasiyası olur.

• Mürəkkəb cümlənin tərkibindəki hər bir sadə cümlənin öz mübtədası və xəbəri olur.

Beləliklə, ibtidai siniflərdə mürəkkəb cümlənin tədrisi prosesində yaranan çətinliklərin aradan qaldırılması şagirdlərin bu sahədə bilikləri mənimsəmələri baxımından çox əhəmiyyətlidir.

**ədəbiyyat**

1. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə təhsil proqrami (kurikulumu). (I–XI siniflər). Bakı , 2013.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013, oktyabr ayının 24-ü.
3. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: "Nasir", 2003.
4. Qurbanov V. Azərbaycan dili tədrisinin aktual problemləri. Bakı, 2005.
5. Müəllim üçün metodik vəsait. ( III sinif). Bakı, 2014.
6. Ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün "Azərbaycan dili" dərslikləri.
7. Ümumtəhsil məktəblərinin I–XI sinifləri üçün Azərbaycan dili proqramı. Bakı, 2002.

**ТРУДНОСТИ В СВЯЗИ С ПРЕПОДАВАНИЕМ СЛОЖНЫХ ПРЕДЛОЖЕНИЙ И ПУТИ ИХ ПРЕОДОЛЕНИЯ**

**резюме**

В статье рассказывается о трудностях в преподавании сложных предложений и о путях их преодоления. Отмечается, что преподавание сложного предложения в начальных классах имеет свои ососбенности: во-первых, он развивает письменную и вербальную речь учеников, формирует их мышление, способность постигать; увеличивает свою независимость, усиливает применение теоретических знаний из синтаксиса. Это открывает широкие возможности для различия отношений между морфологией и синтаксисом.

**DIFFICULTIES IN CONNECTION WITH TEACHING OF COMPLEX PROPOSALS AND THE WAYS OF THEIR OVERCOMING**

**summary**

The article describes the difficulties in teaching complex sentences and ways to overcome them. It is noted that the teaching of a complex sentence in the primary classes has its own peculiarities: first, it develops the written and verbal speech of the pupils of the third and fourth grades; forms their thinking, ability to play; increases its independence, strengthens the application of theoretical knowledge from the syntax. This opens up wide opportunities for the difference between the relationship between morphology and syntax.

## ***AFORİZMLƏR***

***İnsanın zəkası verdiyi cavablardan deyil, soruşduğu suallardan da məlum olur.***

**Şevalye de Levis**

***

***Fitri zəka hər hansı təhsili əvəz edə bilər, amma heç bir təhsil fitri zəkanı əvəz edə bilməz.***

**Artur Şopenhauer**

***

***Sizə ağlınız hökm edirsə, padşahsınız, vücudunuz hökm edirsə, kölə.***

**Mark Porsi Katon**

***

***Komaların xarabalıq olduğu yerdə saraylar təhlükəsizlikdə ucala bilməz.***

**Bencamin Dizraeli**

***

***Ağıllı o adamdır ki, sahib olmadığı şeylərə görə kədərlənmir, sahib olduqlarına görə sevinir.***

**Demokrit**

***

***Var-dövlət yaxşı qulluqçu, lakin pis ağadır.***

**Frensis Bekon**

# ŞAGİRDİN "PSİXOLOJİ ƏRAZİSİ"

**Məhəbbət Əliyeva,**
"Məktəbəqədər və ibtidai təhsil" jurnalının əməkdaşı
E-mail: maxabbat.aliyeva@mail.ru



**açar sözlər:** məktəb, müəllimin peşəkarlığı və psixoloji hazırlığı, şagird psixologiyası, münaqişələrin konstruktiv yolla həlli;
**ключевые слова**: школа, профессионализм и психологическая подготовка учителя, психология ученикая, конструктивное разрешение конфликтов;
**key words**: school, professionalism and psychological preparation of the teacher, student psychology, constructive resolution of conflicts.

*Müəllim, hər hansı zəkanı tamamilə hazır məlumatlarla dolduran təlimçi deyil, tələbələrin öz fikirlərini inkişaf etdirmələri üçün onları fəaliyyətə qoşan insan olmalıdır.*
**A.Karrel**

Məktəbin qarşısına qoyduğu əsas məqsədlərdən biri də şagirdləri tərbiyələndirməkdir. Bəzi şagirdlər məktəbdə qayda-qanuna riayət etmir, nizam-intizama tabe olmurlar. Bu zaman onları cəza gözləyir. Müəllim hadisənin başvermə səbəbini aydınlaşdırmalı, şagirdlə fərdi söhbət aparmalı, gözlənilən nəticə alınmadıqda onun valideynini məktəbə dəvət edərək, məsləhət verməlidir.

Məktəblərdə şagirdlərə cismani cəzanın tətbiqi bəzi ölkələrdə çoxdan ləğv edilmişdir. "Polşada cismani cəza 200 il əvvəl ləğv olunub. Belə bir qanun Hollandiyada 1850-ci, Fransada 1888-ci, Finlandiyada 1889-cu, Norveçdə 1935-ci, İsveçdə 1958-ci, Danimarkada isə 1968-ci ildə qəbul edilib". [3, səh. 25]. Bununla yanaşı, ABŞ-ın bir çox ştatlarında, Sinqapurda, Cənubi Koreyada uşaqların cəzalandırılmasına qadağa qoyulmayıb, İngiltərə isə cismani cəzanın tətbiq edildiyi ən qəddar ölkə hesab olunur. Belə hesab olunur ki, qorxunun tərbiyəetmə xüsusiyyəti var. Bu fikir dinimizdə də, beynəlxalq təcrübədə də öz təsdiqini tapmışdır. Şagirdlərə cəza verilməsi Sovet hakimiyyəti illərində ləğv olunmuşdu, lakin qeyri-qanuni tətbiq edilirdi. Müasir dövrdə də cismani cəza, qeyri-qanuni şəkildə olsa da, tətbiq edilir.

Müəllimin hər bir şagirdə fərdi yanaşma tərzi olmalıdır. "Şagirdlərin "psixoloji ərazisi" toxunulmazdır, amma buna riayət edən azdır. Bu "ərazi"də baş verən hadisələrə müdaxilə etmək, onların "rəngini", "havasını" dəyişmək üçün müəllimə qadağa qoyulmayıb, əksinə, o, fərdi yanaşma metodu ilə şagirdinin "psixoloji ərazisinə" asanlıqla "daxil ola bilər". [3, səh. 26] Şagird müstəqil olmaq, öz ağlı və düşüncəsi ilə qərar vermək istəyir. Ona bu istiqamətdə ən yaxın köməkçi müəllimdir. Peşə səriştəliliyinin görünməyən tərəflərindən biri də məhz budur.

Xarakterin müəyyən edilməsi üçün geyim də bir vasitədir. Yeri gəlmişkən, müəllim geyimi haqqında da fikir söyləmək yerinə düşərdi. Geyimə görə insan xarakterini müəyyənləşdirmək mümkündür. Müəllim də geyim-keçimində qoyulan tələbləri gözləməlidir. Bu, onun sözünün səmimiyyəti, tədris etdiyi fənnin keyfiyyəti üçün də bir önəm daşıyır. Müəllim geyim-keçimi ilə məktəbə, siniə öz diktəsini edir. Onun sözünün keçərli olması, əməlinin düzgünlüyü, vacibliyi üçün bu, mühüm şərtdir.

Ulu öndər Heydər Əliyev demişdir: "Bizim ölkənin gələcək taleyi gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır". Pedaqoq dərk etməlidir ki, şagirdə fiziki cəza verməklə onda heç vaxt dərsə maraq oyatmayacaq. Biz şəxsiyyətyönümlü təhsildən, əməkdaşlıq pedaqogikasından danışırıqsa, müəllimin şagirdə əl qaldırması qəbulolunmaz haldır. Belə müəllimlər, adətən, şagirdə əl qaldırmalarının səbəbini onların həddindən artıq nadinc olmaları, qayda-qanuna riayət

etməmələri, heç bir tərbiyə vasitəsinin onlara təsir göstərməməsi ilə əlaqələndirərək deyirlər ki, belə uşaqlara düzgün istiqamət vermək üçün məktəbin, müəllimin əlində kifayət qədər təsirli vasitələr yoxdur. Fikrimcə, bu əsaslandırmalar da müəllimin şagirdə əl qaldırması üçün əsas verə bilməz. Bu məsələdə müəllimin səriştəliliyi, onun uşaq psixologiyasını, hər bir şagirdin xarakterini dərindən bilməsi mühüm əhəmiyyət kəsb edir. Müasir müəllim hər bir vəziyyətdən çıxış yolu tapmağı bacarmalı, yalnız şagirdlərə deyil, valideynlərə də fərdi yanaşmalıdır. Bu istiqamətdə geniş maarifləndirmə işləri aparılmalı, həm valideynlərə, həm də şagirdlərə ətraflı məlumat verilməlidir.

Tərbiyə işində məsuliyyəti yalnız məktəbin üzərinə qoymaq düzgün olmaz. Bəzi valideynlər övladlarını məktəbə yola salmaqla, onların müxtəlif ehtiyaclarını ödəməklə işlərinin bitdiyini düşünürlər, lakin unutmayaq ki, məktəb–şagird–valideyn üçbucağında valideynin də üzərinə böyük məsuliyyət düşür. Uşağa fiziki cəza verilməsi zəif xarakterli, qorxaq insanın formalaşmasına gətirib çıxarır. Fiziki cəza uşaqları nəzarətdə saxlamaq üçün çox istifadə edilən metodlardan biridir. Təəssüf ki, bu tip “tərbiyə” metodundan müntəzəm istifadə olunur. Müasir dövrdə insan sərbəst düşünə bilmək, hər vəziyyətə uyğunlaşmaq bacarığına malik olmalıdır. Fiziki şiddət, cəza şəraitində böyüyən uşaq daha kinli olur. Uşaq dəcəllik üstündə döyülərsə, etdiyinin qarşılığını ödəmiş olduğunu düşünür, mənfi hərəkətlərini düzəltmək üçün səy göstərməyə ehtiyac hiss etmir. Fiziki cəza tətbiq edilərkən uşaqda kin, aqressiya hissləri formalaşır. O, əməlinin pis bir şey olduğunu bilsə də, özünü günahkar hesab etmək əvəzinə cəza verəni günahlandırır, ona olan etibarını itirir.

**Nadinc, qayda-qanuna riayət etməyən şagirdi necə cəzalandırmaq lazımdır?**

Psixologiya üzrə fəlsəfə elmləri doktoru Elmina Kazımzadə qeyd etmişdir: “Müəllimin peşəkarlığı elə həddə olmalıdır ki, münaqişə qeyri-konstruktiv yolla həllini tapmasın”.

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Aqiyə Naxçıvanlı çıxışlarından birində qeyd etmişdir ki, dərsi pozan şagird üçün nəzərdə tutulan inzibati cəzalar qanunvericilikdə mütləq öz əksini tapmalıdır. Onun sözlərinə görə, bu cəzalar şagirdin maddi cəhətdən cəzalandırılması, dərsdən kənarlaşdırılması, müəllimlə hər hansı problemi yarandıqda sinfinin dəyişdirilməsi şəklində ola bilər. Bəzi ölkələrdə öyrənənin dərsə davamiyyəti və digər hallarla bağlı problemlər yarandıqda, onlar orta, ali məktəblərə müəyyən miqdarda pul köçürürlər. Millət vəkili hesab edir ki, inzibati cəzanın nədən ibarət ola biləcəyini ilk növbədə məktəb rəhbərləri fikirləşməlidirlər. Onun fikrincə, inkişaf etmiş cəmiyyətdə şagird üçün cəza tədbirləri tətbiq etmək düzgün deyil.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tərbiyə və məktəbdənkənar tərbiyə şöbəsinin müdiri Ağababa İbrahimov bildirir ki, dərs prosesini pozan şagird hər hansı inzibati cəzaya məruz qala, cərimələnə bilər. Dərs prosesi pozulursa, müəllim, sinif rəhbəri, məktəb direktoru günahlandırılır, lakin məsələnin mahiyyətinə varılmır. Nəzərə alınmır ki, belə uşaqlar sinifdə digər şagirdlərin tərbiyəsini də pozurlar. Bu, çox vacib məsələdir. Qanunvericilikdə buna qarşı hansı inzibati tədbirlər nəzərdə tutulub? Şagird hansı formada cəzalandırılmalıdır? Fiziki cəza verilərək, yaxud cərimələnərək? Müasir Təhsil və Tədrisə Yardım Mərkəzinin Proqram rəhbəri Elmina Kazımzadə demişdir ki, Azərbaycanda təhsilin şəxsiyyətyönümlü olduğunu nəzərə alaraq, bu nəticəyə gəlirik ki, məktəblinin təhsil müəssisəsində, xüsusilə, dərs vaxtı fiziki cəzaya məruz qalması qəbulolunmaz haldır. O, dərsi pozan şagirdin cərimələnərək cəzalandırılması təklifini də dəstəkləmədiyini qeyd etmişdir. Onun sözlərinə görə, ümumiyyətlə, cəza növlərinin hazırlanmasından çox, şagird və müəllim arasında bu arzuolunmaz halların yaşanmasının qarşısını almaq istiqamətində təkliflər hazırlanmalıdır. Əvvəl fikirləşmək lazımdır ki, müəllimlə şagird arasında belə münaqişələr hansı səbəbdən yaranır? Bu səbəblər aşkara çıxarılmalıdır. Bundan sonra bu münaqişələrin həllinin qarşısının konstruktiv yolla alınması üzərində düşünmək lazımdır. Müəllim o qədər peşəkar olmalıdır ki, şagirdlə münaqişəni fiziki cəza ilə yox, konstruktiv yolla aradan qaldıra bilsin. Yalnız bu zaman arzuolunmaz halların qarşısı alına bilər.

Beynəlxalq Uşaq Hüquqları Konvensiyasında, ölkəmizdə qəbul olunmuş "Uşaq hüquqları haqqında", "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında da uşaqlara münasibətdə ayrı-seçkilik, fiziki cəza və s. kimi "tərbiyə vasitələri" yolverilməz sayılır.

Məktəblini dərsi pozduğuna görə cərimə etmək düzgün olmaz. Nəzərə almaq lazımdır ki, onun hər hansı qazanc mənbəyi yoxdur. Belə halda şagird ata-anasından çəkinər, cəriməni ödəmək üçün müxtəlif qanunsuz yollara, hətta cinayətə əl ata bilər. Şagird yalnız məktəbin əmlakına zərər vurduğu halda, valideynin xəbəri olmaqla cərimələnə bilər.

Ümumiyyətlə, heç bir halda müəllimin şagirdə fiziki təzyiq göstərməsinə haqq qazandırmaq olmaz. Belə halların baş verməsinin əsas səbəblərindən biri müəllimin səriştəsizliyidir. Biz akademik hazırlığı yüksək olan müəllimə yaxşı müəllim deyirik, lakin unutmayaq ki, bilik müəllim səriştəliliyinin yalnız bir komponentidir. Əsas səriştələrdən biri, bəlkə də ən vacibi onun sinfi idarə etmək, uşaqları tərbiyələndirmək bacarığıdır. Müasir məktəbdə müəllim səriştəsinin artırılması yolunda ciddi addımlar atılmalıdır. Müəllim sinifdə baş verə biləcək hər bir vəziyyətdə düzgün davranmağa hazır olmalıdır.

**ədəbiyyat**


1. Beynəlxalq Uşaq Hüquqları Konvensiyası. 20 noyabr, 1989.
2. BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası. Bakı, 21 iyul, 1992.
3. Məmmədli İ. Nur. Bakı: "BBS Konsaltinq Xidmətləri Ltd", 2008.


**«ПСИХОЛОГИЧЕСКАЯ ЗОНА» УЧЕНИКА**


**резюме**

В статье рассказывается о подходе учителя к недисциплинированным ученикам. Обсуждается подход учителя к ученику с методом индивидуального подхода, с целью влиять к «психологической зоне» ребенка. В статье также содержится информация о применении физических наказаний в разных странах мира. В статье упоминаются негативные факторы, которые развиваются в ученической личности создаваемые физическим наказанием .


**"PSYCHOLOGICAL AREA" OF THE PUPIL**


**summary**

The article describes the approach of the teacher to a non-disciplined pupil. The approach of the teacher to the pupil is discussed with the method of the individual approach, with the aim of influencing the person to the "psychological field" of the child. The article also contains information on the use of physical punishment in various countries of the world. The article mentions negative factors in the developing student personality created by physical punishment.


## ***DAHİLƏR AĞIL HAQQINDA***

***Ağıl insana onunla yaşamaq üçün verilir.***

**Vissarion Belinski**

***

***Ağılı kamilləşdirmək üçün öyrənməkdən çox düşünmək lazımdır.***

**Rene Dekart**

***

***Uşaqlarınıza verə biləcəyiniz ən qiymətli töhfə ağıldır. Qalan şeyləri onlar özləri də əldə edə bilərlər.***

**İmmanuil Kant**

***

***Görünür, dünyada ən ədalətlə paylanmış nemət ağıldır, çünki heç kəs öz ağlından gileylənmir.***

**Mari Monteqyu**

# TƏRBİYƏ ELƏ BİR XƏZİNƏDİR Kİ, AÇARI MİLLİ ƏNƏNƏLƏRDİR.

**Səadət Həsənova,**
ARTİ-nin aparıcı elmi işçisi,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
E-mail: hasanovaseadet51@gmail.com

**açar sözlər :** tərbiyə, xəzinə, açar, milli ənənə, müasir sistem, bilikli, ağıllı;
**ключевые слова:** образование, сокровище, ключ, национальная традиция, современная система, грамотный, умный;
**key words:** education, treasure, key, national tradition, modern system, literate, clever.

Adət və ənənələr hər bir xalqın mənəvi mədəniyyətinin ayrılmaz hissəsidir. Xalqın mənəviyyatı, mədəniyyəti onun adət-ənənələrində öz əksini tapır.

Elm sübut etmişdir ki, keçmişdə müxtəlif xalqların həyatında adət, ənənə və mərasimlərin yaranması üçün bir sıra obyektiv səbəblər olmuşdur.

İnsanların ictimai və şəxsi həyatında, ailədə, işlədikləri kollektivdə, cəmiyyətdə baş verən, yadda saxlanılması zəruri hesab olunan bir sıra mühüm hadisələr çox qədim tarixə malikdir. Adət və ənənələrin yaranması ibtidai icma quruluşu dövründə, insanların ilk dəfə cəmiyyət formasında birləşməsi zamanı başlamışdır. O zaman insanların dəstələr, kollektivlər halında birləşmələri, qəbilə və tayfaların meydana gəlməsi, onların arasında müxtəlif münasibətlərin yaranması nəticəsində adətlərin, ənənələrin bünövrəsi qoyulmuşdur.

O da məlumdur ki, insanın istər ictimai, istərsə də şəxsi həyatının elə bir sahəsi yoxdur ki, ailə ənənələri ilə baglı olmasın, çünki insan dünyaya gəldikdə cəmiyyətin ilkin təşkili formalarından biri olan ailədə böyüyür, həmin mühitdə müəyyən təsəvvürlərə, bilik, bacarıq və vərdişlərə yiyələnir. Məhz bu mühitin müxtəlifliyi, özünəməxsusluğu, istehsal münasibətlərinin, inkişaf səviyyəsinin qeyri-bərabərliyi ailə adət-ənənələrinin təbii yolla yaranmasına səbəb olmuşdur. Dünya xalqlarının ailə münasibətlərinin, adət və ənənələrinin, milli, mənəvi, məişət həyatının özünəməxsusluğu ilə fərqlənməsi də bir qanunauyğunluqdur. Zaman keçdikcə onun formaları, adət-ənənələri dəyişmiş, yeni forma və məzmun kəsb etmişdir. Adət-ənənə və mərasimlər öz forma, məna, ifadə xüsusiyyətləri ilə insanların etik, emosional və estetik hisslərinə güclü təsir göstərmiş, onları qurub-yaratmağa, qəhrəmanlıq göstərməyə sövq etmişdir.

Bayram və mərasimlərin mahiyyətini dərk etmək üçün əvvəlcə bu anlayışlarla əlaqədar bəzi məsələləri aydınlaşdırmaq lazımdır, çünki istər danışıq dilində, istərsə də ədəbiyyatda onların mənası çox vaxt eyniləşdirilir. *Adət-ənənə, mərasim, ayin* və s. anlayışlar arasında ciddi fərq qoymaq bir qədər çətindir.

***Bayram*** anlayışı altında tarixi, əmək, dövlət və mülki hadisələrin xatirəsi ilə bağlı olaraq təşkil edilmiş şənlik və ya təntənə başa düşülür. Ənənənin təzahür forması olan bayramlar, adətən, dünya, qitə, dövlət, xalq miqyasında və ya müəyyən inzibati-etnoqrafik qrup, kollektiv daxilində qeyd edilir. Bayramın bəzi hallarda bir neçə gün davam etməsi xarakterikdir. Hər bir bayramın özünəməxsus mərasimləri, ayinləri, adətləri mövcuddur.

***Adət*** – ərəbcə ***adat*** sözündən götürülmüşdür. Bu söz hər hansı bir xalqın həyatında qədimdən bəri qəbul edilmiş ***qayda, dəb*** mənalarını ifadə edir. O, müəyyən mərasim və qaydaları icra

etmək yolu kimi başa düşülür. ***Adət etmək*** məfhumu altında isə bir şeyi çox təkrar edərək ona alışmaq, öyrəşmək nəzərdə tutulur. Adət hamı tərəfindən qəbul edilmiş ümumi birgəyaşayış qaydalarının, qarşılıqlı münasibətlərin təzahür forması olub, sabitləşmiş ənənəvi normalara əsaslanır. Adətlər ictimai rəyin təsiri altında yaranıb, nəsildən nəslə keçir və cəmiyyətdə onlara ciddi riayət olunur. Mövcud cəmiyyətdə elə adətlər də var ki, onların saxlanmasına ehtiyac qalmır. Onların bəziləri yeni məzmun, forma qəbul edib vətəndaşlıq qazanır, yaxud tədricən aradan çıxır.

***Ənənə*** sözü ərəb dilindən götürülüb, *nəsildən nəslə keçən adət* deməkdir. Latınca *ənənə* t r a d i t i o sözündən götürülüb, *ötürmək, keçirmək* deməkdir. O, *adət* sözündən fərqli olaraq, məzmun etibarilə daha geniş mənada işlədilir. Ənənə cəmiyyətin və insan həyatının inkişafına təsir göstərən adət, dəb və mərasimlərin məcmusudur. Ənənələr xüsusi ictimai hadisə olub, uzun müddət cəmiyyətdə davam edir. Onlar həyatın müxtəlif sahələrini (iqtisadi, milli, mədəni, inqilabi, məişət, peşə və s.) əhatə edir. Ənənələr ictimai şüurun müxtəlif sahələrində (əxlaq, siyasət, din, elm və s.), eləcə də istehsalatda özünü büruzə verir. Bayramlar, adətlər, mərasimlər ənənəni əyaniləşdirmə vasitələri olub, ona forma və xarici görkəm verir. Ənənələr bir kollektiv, müəssisə və ölkə daxilində yaranır, müəyyən normalar çərçivəsində tənzimlənir. Respublikamızda keçirilən yeni bayramlar, mərasimlər və s. buna misal ola bilər.

Bayramların, adət və ənənələrin icra edilməsi qaydalarına ***mərasim*** deyilir (*mərasim* – ərəb dilində *rəsmi ayin, təntənə, şənlik* deməkdir). Mərasim üçün müəyyən şənliyin, təntənənin, hərəkətlərin, musiqinin və rəmzi cəhətlərin olması xarakterikdir.

Adət və ənənələrin başlıca xüsusiyyəti nəsildən nəslə keçmə ardıcıllığıdır. Ardıcıllıq – inkişafın ayrılmaz hissəsidir. Köhnə ilə yeni arasındakı əlaqə, ardıcıllıq ictimai inkişafın obyektiv qanunauygunluğudur. Yenilik heç də köhnəni tam məhv etməklə deyil, əksinə, onun mütərəqqi cəhətlərini qoruyub saxlamaqla yaranır.

Son zamanlar respublikamızda gənc nəslin milli ənənələr əsasında tərbiyə olunmasına mühüm problemlərdən biri kimi baxılır. Ənənə nəsildən nəslə mexaniki olaraq keçmir. Onları yaratmaq, inkişaf etdirmək, insanların şüuruna, əqidəsinə yeritmək lazımdır. Əsas vəzifə ən yaxşı ənənələri inkişaf etdirmək, möhkəmləndirmək, onların təbliğinə, hər kəsin gözündə yüksəlməsinə nail olmaqdan ibarətdir.

Milli adət-ənənələr xalqın məişətini, mədəniyyətini özündə əks etdirir. Ona görə də gənc nəslin hərtərəfli inkişafında, fəal həyat mövqeyi tutmasında, keçmişin zərərli adətlərinə qarşı mübarizədə mühüm tərbiyə vasitəsi olan adət-ənənələrə böyük əhəmiyyət verilir.

Cəmiyyətimizin iqtisadi və siyasi həyatında olduğu kimi, insanların mənəviyyatında, əxlaqında, adət-ənənələrində də müəyyən dəyişikliklər baş verir. İnkişafın ümumi ahənginə uyğun olaraq yeni münasibətlər, məişət normaları, adət və ənənələr yaranır, ailə tərbiyəsinin rolu daha da artır.

İnsan ilk əxlaqi tərbiyəni, namusluluq, doğruçuluq, işguzarlıq, yaxşılıq, pislik, xeyirxahlıq, bədxahlıq, şərəfsizlik, yalançılıq, tənbəllik və s. anlayışların mahiyyətini uşaqlıq dövründə, əsasən, ailə mühitində dərk edir. Müsbət xüsusiyyətlər onun idealına, əqidəsinə çevrilir. Ona görə də uşaqların mənəvi saflığı qayğısına qalmağa ilk günlərdən başlamaq valideynlərin başlıca vəzifəsidir. Mənəvi keyfiyyətlərin bünövrəsi ilk günlərdən qoyulur. Onlar, adətən, hər bir işdə böyükləri təqlid etməyə çalışırlar. Aqillərin dedikləri kimi, nəsihətlərin yolu uzun, nümunənin yolu isə qısadır. Böyük rus pedaqoqu K.D.Uşinski nümunənin əhəmiyyətindən bəhs edərək yazırdı ki, uşaq əqli və əxlaqi cəhətdən bilavasitə şəxsiyyətin təsiri altında tərbiyə olunur, inkişaf edir. Heç bir rəsmiyyətçilik, intizam, nizamnamə, rejimin tətbiqi insan şəxsiyyətinin təsirini əvəz edə bilməz. Bu, gənc ruh üçün elə səmərəli günəş şüasıdır ki, onu heç şeylə əvəz etmək mümkün deyil.

Məktəb ənənələri gözəl nəsil tərbiyələndirməkdə öz həyatiliyini çoxdan sübut etmiş, tərbiyə sistemində mənəvi hüquq qazanmışdır. Məktəb ənənələri vasitəsilə nəsillər arasında əlaqə yaradılır, keçmiş nəslin yaratmış olduğu müsbət nə varsa, yeni nəslə ötürülür. Həm də müasirlə-

rin işində, davranışında, dünyagörüşündə faydalı olan hər şey müəllim tərəfindən ənənənin köməyi ilə şagirdlərə çatdırılır. İllərdən bəri həyata keçirilən “İlk zəng”, “Müəllim günü”, “Əlifba bayramı”, “Məzunlarla görüş”, “Mahnı bayramı” kimi tədbirlər və tarixi günlərin qeyd olunması məktəb, ailə, ictimaiyyət arasında faydalı əməkdaşlığa geniş imkan yaradır.

Ənənələr insan fəaliyyətinin bütün sahələrini əhatə etməklə kütləvi xarakter daşıyır. İnsanların həyat tərzi, mədəni səviyyəsi, dünyagörüşü, ictimai, iqtisadi, siyasi, mədəni əlaqələri genişləndikcə ənənələrin milli xarakteri dəyişib, beynəlmiləl səviyyəyə keçir.

Milli ənənələr qabaqcıl, mütərəqqi, faydalı, yaxud mühafizəkar, köhnəlmiş, zərərli ola bilər. Bu səbəbdən insanlar arasında ikiləşmə, qarşıdurma prosesi baş verir. Buna baxmayaraq, milli mənəviyyatımızın tarixi inkişafı yüksələn xətt üzrə gedir. Ümummilli lider Heydər Əliyev adət-ənənələri yüksək qiymətləndirmişdir. Tarixin ibrət dərsləri, insanların sosial həyatı, məşğuliyyət tərzi göstərir ki, bir sıra hallarda cəmiyyətdə maddi səviyyə yüksək, mənəviyyat isə kasıb və bayağı olur. Yaxud əksinə, sosial rifahın olmadığı mühitdə yüksək mənəvi amillərin tərbiyəsinə xüsusi diqqət yetirilir. Bəzən həm iqtisadi həyat, həm də mənəviyyat çox aşağı səviyyədə, bəzən isə hər iki cəhət yüksək olur.

Bəs mənəvi naqislik və əxlaqi səviyyəsizlikdən çıxış yolu nədədir? İnsana qiymət vermək, onun mənliyinə hörmət etmək müasir dövrdə hər vaxt olduğundan daha zəruridir. Azadlıq, bərabərlik, qardaşlıq kimi əxlaqi keyfiyyətlər, mənəvi mövqe, vətəndaşlıq borcu, vicdan, sosial vəzifə, məsuliyyət kimi ictimai-siyasi prinsiplər və tələblər sanki öz dəyərini itirib. Bazar iqtisadiyyatına keçidlə bağlı, demək olar ki, mənəvi dəyərlərimiz yaddan çıxıb. Əxlaq pula, sərvətə satılmamalı, iqtisadi, siyasi münasibətlərdə, məişətdə, cəmiyyətdə qarşılıqlı şəxsi əlaqələrdə, ünsiyyətdə mənəvi amillər unudulmamalıdır.

İnsanların mənəvi aləminin emosional zənginliyində müsbət həyəcan və yaşantılar,ümid və ideallar mühüm rol oynayır. Odur ki, müstəqil Azərbaycanın mənəvi tərəqqisi, xalqın əxlaqi təkmilləşməsi üçün sosial-iqtisadi həyatın tənəzzülünün qarşısını almaqla yanaşı, milli-əxlaqi sərvətlərimizi, müsbət ailə ənənələrini qorumalı, inkişaf etdirməliyik.

Bütün bunlar üçün biz xalqımızın tarixindəki mütərəqqi əxlaqi təcrübəyə, müdriklərimizin ibrətamiz tövsiyələrinə, bütövlükdə keçmiş mənəvi nailiyyətlərimizə əsaslanmalı, milli xüsusiyyətləri dirçəltməli, onlardan faydalanmalıyıq. Xalqın mənəvi tərəqqisinə nail olmaq üçün ictimai həyatda əxlaqi prinsiplərin tətbiqi sahələrini genişləndirməli, mənəvi sərvətləri, milli mədəni dəyərləri qorumalı və təbliğ etməliyik.

Ədalətli, mərhəmətli olmaq, xeyirxah işlər görmək ulu babalardan xalqımıza miras qalmış keyfiyyətlərdir. Hələ XIII əsrdə, elm və mədəniyyət xadimi Xacə Əli Nizamül-Mülk “Siyasətnamə” əsərində hakimyyət başında duranlara tövsiyə edirdi ki, işsizlərə iş vermək, onları bəşəri nemətlərdən məhrum etməmək, layiqli adamları irəli çəkmək, bədməzhəb adamlara vəzifə tapşırmamaq, onları hakimiyyətdən uzaqlaşdırmaq lazımdır. Nizamül-Mülk onu da deyirdi ki, bütün zamanlarda vəzifəni etiqadı təmiz, əsli-nəsli məlum, əlidüz, gözütox adama tapşırmışlar. Nəticədə dövlətin malı zay olmamışdır.

Azərbaycanın XIII əsr ensiklopedik dühası Nəsirəddin Tusi də “Əxlaqi-Nasiri” traktatında insandakı kamillik və naqislik, xeyir və şər haqqında qiymətli fikirlər söyləmişdir. O, fəziləti rəzalətə, xeyri şərə qarşı qoyur, əxlaqı saflaşdırmağı ən şərəfli sənət sayırdı. N.Tusi əxlaqın təmizlənməsi, söz demək, oturub-durmaq, yemək, hərəkət və sükut, ədalət, sədaqət qaydaları haqqında dəyərli mülahizələr irəli sürmüşdür.

“Quran-i-Kərim”də də mənəviyyat, əxlaqi keyfiyyətlər barədə saysız-hesabsız məsləhətlər, ibrətamiz tövsiyələr, müdrik göstərişlər vardır: “Allah fəsad çıxaranları sevməz”, “Allah həddini aşanları sevməz”, “Həddini aşanları əzab gözləyir”, “And içdinizsə, ona sadiq qalın”, “Xeyirxah iş görən kəslərə qorxu yoxdur, onlar məyus olmayacaqlar”.

Görkəmli şəxsiyyətlər xalqımızın milli-mənəvi dirçəlişinə, əqli oyanışına kömək göstərmək, dünyaya açıq gözlə baxmaq üçün insanların elmə, savada yiyələnmələrinə xüsusi diqqət

yetirmiş, bu sahədə həm nəzəri, həm də əməli cəhətdən xeyirxah işlər görmüşlər. Böyük mütəfəkkir və dramaturq M.F.Axundov xalqa real köməyi nəzərdə tutaraq yazırdı:

Üzündən göz yaşı silmək nə gərək?
Əlac et, tökməsin qanını ürək.

Onun əxlaqi müddəası isə belə idi: "Pis şəxslər pis sözlər danışarlar, yaxşı sözlər yaxşı şəxslərə məxsusdur".

Mənəviyyatımızın şərəfli və nəcabətli ənənələrini qorumalı, yaşatmalıyıq. Sadə insanlar tarix boyu etik normalara, mənəvi tələblərə, davranış qaydalarına, insani münasibətlərə riayət etmişlər. Hamımızın şahidi olduğumuz, müşahidə etdiyimiz və qiymətləndirdiyimiz belə mənəviyyat qaydaları vardır: "Böyük gələndə kiçik ayağa qalxar", "Kişi mənzilin qapısını açıb, içəri daxil olanda qadın və uşaqlar onun pişvazına çıxarlar", "Ev tikənə el-oba kömək edər", "Xonça hazırlayana qonum-qonşu əl tutar" və s.

Məlumdur ki, səxavət, xeyriyyəçilik, kasıba, kimsəsizə əl tutub qayğı göstərmək xalqımızın adətidir. Bu sahədə Hacı Zeynalabdin Tağıyev ənənələrini yaşatmaq və davam etdirmək lazımdır. Vaxtilə kəndlərdə, rayonlarda bəzi imkanlı adamlar öz hesabına bulaqlar tikdirər, arx qazdırar, su çəkdirərdilər. Zeynalabdin Tağıyev bu sahədə böyük işlər görmüşdür. Niyə imkanlı adamların daha çox olduğu indiki zamanda belə ənənələri yaşatmırıq? İnsanlarda bu ənənələrə müsbət münasibət tərbiyə etmək gərəkdir.

Milli ənənələrlə tərbiyə ailədə, uşaq bağçasında, orta ümumtəhsil məktəblərində, ali təhsil ocaqlarında, əmək kollektivlərində, ictimai həyatda, insan münasibətlərində bərqərar edilib reallaşdırılmalıdır.

Fərəhli haldır ki, son illərdə respublikamızın bir sıra tanınmış filoloq, pedaqoq və psixoloqları dövri mətbuatda çap etdirdikləri əsərlərində, məqalələrində milli ənənələrin mahiyyəti üzərində dayanmış, milli-əxlaqi dəyərlərin formalaşdırılması məsələlərinə xüsusi diqqət yetirmişlər. Son zamanlar milli ənənələrin sosial məzmununa verilən tələblər daha da artdığı üçün tərbiyə probleminin nəzəri və təcrübi məsələləri ilə məşğul olan mütəxəssislərin qarşısında təxirəsalınmaz vəzifələr qoyulmuşdur. Şübhəsiz, həmin vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsində milli əxlaq tərbiyəsinin nəzəri, metodik məsələlərinə həsr olunan elmi-tədqiqat əsərləri də mühüm rol oynaya bilər.

Bəşər tarixində bütün təhsil sistemlərində məktəb ötürücü mexanizm rolunu oynamışdır. Bu baxımdan təhsil və təlimin milli zəmin üzərində qurulmasına nail olmalıyıq. Ölkəmizin gələcəyi böyüməkdə olan nəslin, gələcək şəxsiyyətin bu gün necə təlim alması və tərbiyə edilməsindən asılıdır. Milli ənənələrə əsaslansaq, təlim-tərbiyədə uğurlu nəticələrə nail ola bilərik.

Məlumdur ki, milli ailə ənənələri insanın mənəvi cəhətdən təşəkkül tapmasında mühüm rol oynayan əsas amillərdəndir. Bu məsələ həmişə bəşəriyyətin diqqət mərkəzində olmuş və elm adamlarını düşündürmüşdür. Xalqın ailə tərbiyəsi sahəsində qazandığı təcrübələr əsrlərin süzgəcindən keçərək, faydalı ideya və fikirlər toplusu kimi meydana çıxmışdır. Digər müsəlman xalqları kimi, azərbaycanlıların da ailə ənənələrinin təşəkkül tapmasında Quran-i-Kərimin, milli əxlaqi dəyərlərin böyük rolu olmuşdur.

Xalq əsrlərin sınağından çıxan bütün milli ənənələri həm əməli işlərlə, həm də yaratdığı folklor nümunələri vasitəsilə nəsillərə ötürmüş, əsrlər keçdikcə bu praktik irs zənginləşmişdir.

Bir həqiqətdir ki, böyüməkdə olan nəslin təhsili, tərbiyəsi, peşələrə yiyələnməsi və həyata hazırlanması milli-mənəvi dəyərlərin əsasını təşkil edir, çünki yetkin insanın fəaliyyəti onun elmi və mədəni nailiyyətləri, milli vətəndaşlıq özünüdərki əsasında formalaşır. Xalqın bütün sərvətləri kimi, milli-mənəvi sərvətlərdən də kor-koranə yox, dövlət səviyyəsində, qanunlar əsasında istifadə edilməlidir. Milli ənənələrimiz şifahi xalq ədəbiyyatında, həmçinin Nizami Gəncəvi, Nəsirəddin Tusi, Əvhədi Marağayi, Xətib Təbrizi, Məhəmməd Füzuli və digər görkəmli mütəfəkkirlərin yaradıcılğında toplanıb. Bu milli ənənələr müasir tələblər səviyyəsində sistemə salınmalı, ayrı-ayrı əsərlərdəki ("Məxzənül-əsrar","Əxlaqi-Nasiri","Cami-Cəm", "Mətləül-etiqad" və s.) milli ənənələr tədqiqatlarda təhlil edilməlidir. Onu da qeyd etmək lazımdır ki, nəsihət

vermәklә, ideya irәli sürmәklә iş hәll olunmur. Hәr bir ideya әmәli nәticәdә öz tәtbiqini tapmalıdır.

Bu gün insanların hәyatını, mәişәtini bәzәyәn adәt-әnәnәlәr bәşәr tarixinin ilk dövrlәrindәn tәşәkkül tapmış, inkişaf etmiş vә formalaşmışdır. İnsanın ictimai vә mәişәt hәyatının müәyyәn sahәlәrini adәt-әnәnәlәrsiz tәsәvvür etmәk mümkün deyil.

Adәt-әnәnәlәrin tarixi zәrurәtlә әlaqәdar olaraq yaranması ibtidai icma quruluşu dövründәn, insanların ilk dәfә cәmiyyәt formasında birlәşmәsi ilә başlanmışdır. O zaman ayrı-ayrı fәrdlәrin dәstәlәr, kollektivlәr halında birlәşmәsi, qәbilә vә tayfaların meydana gәlmәsi, onların arasında müxtәlif münasibәtlәrin yaranması nәticәsindә adәt-әnәnәlәrin bünövrәsi qoyulmuşdur.

Qәbilә daxilindә elә davranış qaydaları, mәnәvi vә әxlaqi normalar yaranmışdır ki, kollektiv bunlarsız yaşaya, inkişaf edә bilmәzdi. Tәbiәtlә mübarizәdә, kollektiv istehsal prosesindә, qәdim insanların әmәk birliyi vә birgә yaşayışı әsasında yeni adәtlәr yaranırdı ki, bunlar da bir çox mәrasimlәrin cәmindәn ibarәt idi. Elә o dövrdәn başlayaraq hәr kәs şәxsi hәyatında, ictimai münasibәtlәrdә hәm özünün, hәm dә kollektivin mәnafeyini әks etdirәn, hamı tәrәfindәn bәyәnilәrәk tәdricәn adәtә çevrilәn birgәyaşayış normalarına riayәt etmәli olmuşdur. Adәtlәrdә tәsbit olunmuş norma vә qaydalar insanlar tәrәfindәn şüurlu surәtdә mәnimsәnildikdәn sonra kollektiv qarşısında onların mәnәvi vәzifәsinә çevrilmiş, vәrdiş halı alaraq nәsildәn nәslә keçmişdir. İnsanlar hәmişә gözәlliyә, tәntәnәyә, әylәncә vә oyunlara meyil etmiş, hәr bir şәxsin mәdәniyyәti, dünyabaxışı bu proseslә әlaqәlәndirilmiş, bununla da adәt-әnәnәlәr dәrin ideya mәzmunu kәsb etmişdir. Burada insanları birlәşdirmәk, onları hadisәlәrin fәal iştirakçısına çevirmәk, müәyyәn qayda-qanun yaratmaq, onları gәlәcәk nәslә müqәddәs miras kimi çatdırmaq tәlәbatları da mühüm rol oynamışdır.

Xalqımızın adәt vә әnәnәlәri, ictimai şüurun başqa formaları kimi, varlığın inikasıdır. Bu adәt-әnәnlәr cәmiyyәtlә bәrabәr tәşәkkül edәrәk, onun inkişafında müәyyәn rol oynamışdır. Adәt-әnәnәlәr tarixi-ictimai kateqoriya olduğu üçün zaman keçdikcә mәzmun vә xarakterinә görә dәyişir. Müsbәt әnәnәlәr böyümәkdә olan gәnc nәsli öz xalqının min illәr әrzindә әldә etdiyi hәyat tәrzi, iş metodları, mübarizә formaları, mәişәt qaydaları, davranış normaları vә s. ilә tanış edir. Gәnc nәsil xalqın ibrәtamiz keçmişinә, bu gününә hörmәt ruhunda tәrbiyәlәndiyindәn klassik pedaqoqlar, mütәfәkkirlәr vә ictimai xadimlәr әnәnәlәrin tәrbiyәvi roluna, qüdrәtinә xüsusi diqqәt yetirmişlәr. Qәdim yunan filosofu Platon “allahların bayramları” ilә tәrbiyәni ayrılmaz hesab etmişdir, çünki çoxallahlılığın hakim olduğu qәdim Yunanıstanda allahların şәrәfinә 3–4 ildәn bir әnәnәvi bayramlar (olimpiadalar) keçirmәk, onlardan tәrbiyәvi mәqsәdlәr üçün istifadә etmәk geniş vüsәt almışdı. Dionisin (şәrab vә bitkiçilik allahının) şәrәfinә yazda 4 gün davam edәn dini bayram Afina ailәlәrindә qeyd olunmaqla yanaşı, mәktәb tәqvimlәrinә dә daxil edilmişdi. Әnәnәyә görә, hәmin ay mәktәbә diqqәtsiz olan valideynlәr müәllimlә hesablaşmalı, şagirdlәr müәllimlәr üçün bәxşişlәr hazırlamalı, müәllimlәr isә, hörmәt әlamәti olaraq, şagirdlәri öz evlәrinә nahara dәvәt etmәli idilәr.

Qәdim yunan mәktәblәrindә keçirilәn әnәnәvi bayramlarda şagirdlәr vә mәktәblәr arasında tәdris-tәrbiyә mahiyyәti daşıyan yarışlar keçirılırdi. Valideynlәr şagirdlәrin әnәnәvi bayramlara hazırlanmalarında yaxından iştirak edir, bәzi işlәrin görulmәsindә onlara nәzәri vә әmәli yardım göstәrirdilәr. Sokrat kimi böyük filosoflar öz әsәrlәrini ilk dәfә bu әnәnәvi şәnliklәrdә oxuyurdular. Qәdim yunan hökmdarı Solon bu әnәnәvi yarışları belә izah etmişdir: “Cәnab, görünür, siz gözәl tәşkil olunmuş dövlәt haqqında aydın tәsәvvürә malik deyilsiniz, yoxsa onun gözәl adәt-әnәnәlәrini mәzәmmәtlәmәzdini. Biz bu yarışları ona görә tәşkil etmirik ki, orada gәnclәr müәyyәn mükafatlar alsınlar. Biz bunu elә böyük işin xatirinә edirik ki, orada bütün dövlәtin mәnafeyi vardır”.

Dövrün xüsusiyyәtlәrindәn asılı olaraq, adәt-әnәnәlәr öz mahiyyәtinә, mәzmununa görә (mütәrәqqi vә zәrәrli) iki yerә ayrılır. Elә adәt-әnәnәlәr mövcuddur ki, onlar ibtidai icma dövründә yaranmış, min illәr boyu bir sıra dәyişikliklәrә uğrayaraq, dövrümüzә qәdәr gәlib çat-

mışdır. Bəzi adətlər isə müəyyən dövrün tələbi kimi meydana çıxır. Bu qəbildən olan adətlər bəzən uzunömürlü olur, bəzən isə sonrakı nəsillər tərəfindən bəyənilmir. Bunun əsas səbəbləri ya həmin adətlərin zərərli olması, ya da dövrün tələblərinə cavab verməməsidir.

Bəs qədim ümumxalq bayramları hansılardır? Bunların bir çoxu təbiətlə (bahar, yaylağa köçmə, məhsul, əkinçilik bayramları və s.) əlaqədardır. Bundan başqa qonaqpərvərlik, böyüklərə və valideynlərə hörmət, keçmişin mədəni irsini əziz tutmaq, başqa millətlərə hörmət, əməksevərlik, kimsəsizlərə, imkansızlara yardım və s. xalqımıza xas olan ənənələrdir.

Bayramlar, əsasən, üç qrupa bölünür:

- ümumdövlət, inqilabi bayramlar;
- əmək bayramları;
- mülki adətlərin qeyd olunduğu, ailə-məişət bayram və mərasimləri ( ad günü, yubileylər, matəm mərasimləri və s.).

Bunlardan əlavə, milli bayramımız olan Novruzu, dini bayramları (Orucluq və Qurban) xüsusilə qeyd etmək lazımdır.

Deməli, adət-ənənələr həyatın tələblərinə, sorğularına cavab kimi yaranır və cəmiyyətin mənəvi həyatının mühüm hissəsini təşkil etməklə, ona fəal təsir göstərir.

Qədim yunan fəlsəfəsinin görkəmli nümayəndələri cəmiyyət həyatında adət və ənənələrin rolunu yüksək qiymətləndirmişlər.Platon bayramları dövlətin sabitlik əlaməti hesab edərək göstərirdi ki, tərbiyədə buraxılan qüsurları onların vasitəsilə düzəltmək mümkündür. Aristotelə görə isə, insan təbiətən yalnız zəhmət çəkməyi deyil, əylənməyi, bayram etməyi də xoşlayır.

Unutmayaq ki, bu gün milli adət-ənənələrimizi uşaqlara aşılamasaq, onlar yaddan çıxar, özümüzə, xalqımıza yabançı olarıq. Gözlərimiz görə-görə xalqımızın cılızlaşmasına, mənəvi yoxsulluğuna səbəb olarıq. Buna yol verməmək üçün kimliyindən, peşəsindən, tutduğu vəzifəsindən asılı olmayaraq, damarlarından azərbaycanlı qanı axan hər bir insan bu haqda ciddi düşünməlidir. Düşünməlidir ki, azərbaycançılığımızı yaşatmaq üçün hansı milli adət-ənənələrimiz vardır?! Odur ki, indi hamımız, Səməd Vurğunun dediyi kimi, "hərbi cəldliklə işləməli", xalqımızın adət-ənənələrini gələcək nəsillərə çatdırmağa çalışmalıyıq, yoxsa gələcək nəsillər bizi bağışlamaz.

**ədəbiyyat**


1. Abbasov A., Həsənova S. Az söylə, söz söylə. Bakı: "Maarif", 1992.
2. Bakıxanov A. Nəsihətlər. Bakı: "Yazıçı", 1982.
3. Kərimov Y.Təlim metodları. Bakı: "RS Poliqraf" MMC, 2007.
4. Nəvvab M. Nəsihətnamə. Bakı: "Yazıçı", 2015.
5. Nizaminin hikmət və nəsihətləri. Bakı: "Elm", 2016.
6. Şükürov A. İslam, adət və ənənə. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2014.


**ОБРАЗОВАНИЕ – ЭТО СОКРОВИЩЕ, КОТОРОЕ КЛЮЧОМ ЯВЛЯЮТСЯ НАЦИОНАЛЬНЫЕ ТРАДИЦИИ**

**резюме**


В статье рассказывается о воспитании, об использовании в нем национальных традиций. Приводится примеры о воспитании из произведений восточных и западных классиков, из Корана. В статье так же разъясняется понятия *традиция, обряд, ритуал* и рассказывается о древних национальных праздниках Азербайджана ( Новруз – праздник весны, переселение в летние пастбища в горах, праздник урожая и т.д.). Так же отмечается религиозные праздники как Оруджлуг ( пост), Курбан ( жертвоприношение).


**EDUCATION IS A TREASURE, WHICH IS THE KEY TO NATIONAL TRADITIONS.**

**summary**


The article tells about education, about the use of national traditions in it. Examples are given of the upbringing of works of Eastern and Western classics, from the Koran. The article also explains the concept of tradition, ritual and tells about the ancient national holidays of Azerbaijan (the spring holiday, migration to summer pastures in the mountains, harvest festival, etc.). Religious holidays like Orujlug (fasting), Kurban (sacrifice) are also celebrated.

# EKOLOJİ MƏDƏNİYYƏTİN FORMALAŞDIRILMASI UŞAQ ŞƏXSİYYƏTİNİN SOSİALLAŞMASININ MÜHÜM AMİLİ KİMİ

**Sona Sadıqova,**
ADPU-nun baş müəllimi,
dosent, pedaqogika üzrə fəlsəfə doktoru



**açar sözlər:** məktəbəqədər təhsil, uşaq, tərbiyə, ekoloji mədəniyyət, sosiallaşma;
**ключевые слова:** дошкольное образование, дети, экологическая культура, социализация;
**key words:** preschool education, child upbringing, ecological culture, socialization.

Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hüquq və vəzifələrlə əlaqədar vətəndaşların ekoloji mədəniyyətinin inkişaf etdirilməsi alim, müəllim və tərbiyəçilər qarşısında mühüm vəzifə kimi qoyulmuşdur. *Ekologiya* sözünü elmi termin kimi ilk dəfə 1866-cı ildə alman bioloqu Ernest Henkel işlətmiş, sonralar təbiətşünaslıq sahəsində çalışan bir çox alimlər onu elm kimi inkişaf etdirmişlər. Təbiətin qorunmasına həmişə diqqət yetirilmişdir. Bunun səbəbi odur ki, Allah təbiətdəki bütün nemətləri insan üçün yaratmışdır. İnsan Allahın verdiyi bu nemətləri məhv etməməli, öz rifahı naminə qoruyub saxlamalıdır.

Məhəmməd Peyğəmbər (s.ə.s.) quşların yuvasını uçurmağı, yaşıllıqları korlamağı, ağacları sındırmağı qadağan edərək deyirdi ki, uşaqların yaxşı insan kimi böyümələri bizim verdiyimiz tərbiyənin düzgünlüyündən asılıdır.Heç kim dünyaya vəhşi, ya da mələk kimi gəlmir. Onun əsl insan olması, necə yaşaması tərbiyədən asılıdır. Buna görə də peyğəmbər hələ kiçik yaşlardan uşaqlarda həya hissinin tərbiyə olunmasını zəruri sayaraq deyirdi ki, insan övladı yalnız həya sayəsində şəxsiyyət olur. İnsan həyalı böyüməlidir, çünki o, nəcibliyin əsasıdır. Həya və inam bir beşikdə iki körpə kimidir. Həya bəzəkdir, həya edib pis işdən çəkinmək mərhəmətdir, kəramətdir.

Peyğəmbərin fikrincə, kim başqasının torpağını zorla əlindən alırsa, Tanrıya qarşı çıxmış sayılır. Tanrıya qarşı çıxanın isə cəzası ağır olur.

Ekologiyanın qorunması haqqında şifahi xalq ədəbiyyatımızda da gözəl nümunələr var: "Balalı quşun yuvasını dağıtmazlar", "Bar verən ağacı kəsməzlər" "Axar suyun qurumasın", "Kölgən sıx olsun", "Yanan çırağın sönməsin" və s. Bununla əlaqədar bir bayatı da göstərək:

Maral durduğu yerdə,
Boynun burduğu yerdə,
Ovçu, əlin qurusun,
Maral vurduğun yerdə.

Bu nümunələrdən aydın olur ki, hələ ata-babalarımız öz öyüd-nəsihətlərində insanları təbiəti qorumağa çağırırdı. Əgər biz təbiəti qorumasaq, təbiət bunun qisasını bizdən alacaq. Təmiz, saf bulaqlar quruyacaq, ağaclar məhv olacaq və s. Biz təbiətdən qidalanır, həm də sağlamlığımızı qoruyuruq. Həyat intensiv surətdə inkişaf edir, insan isə onun daşıyıcısıdır.

Azərbaycanın ekologiyası dövlət tərəfindən qorunur. Hələ XX əsrin 20-ci illərində təbiəti qorumaq haqqında bir neçə dekret verilmişdir.

Müstəqillik dövründə də ekologiyanın qorunmasına dair ciddi qərarlar verildi. Meşələrin salınması, təbiətin, quşların, heyvanların qorunmasına xüsusi diqqət yetirilməsi məsləhət görüldü. Azərbaycan Respublikası Konstitusiyasının II fəslinin 48-ci maddəsində deyilir ki, ətraf mühitin mühafizəsi hər bir vətəndaşın borcudur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006-cı il, sentyabr ayının 26-da Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaş-

dırılmasına dair 2006–2010-cu illər üçün kompleks tədbirlər planın hazırlanması haqqında sərəncam imzalamışdır. Prezidentin sərəncamına görə 2010-cu il ekologiya ili elan olunmuşdu.

Ekoloji mədəniyyətin formalaşdırılması məqsədyönlü, mütəşəkkil prosesdir. Burada uşaqlara təbiətin qorunmasına dair bilik, bacarıq və vərdişlər sistemi mənimsədilməlidir. Doğma yurda, torpağa dərin məhəbbət uşaqlara erkən aşılanmalıdır. Bununla əlaqədar tərbiyəçinin qarşısında bir sıra vəzifələr durur. Əgər tərbiyəçi özü təbiəti sevirsə, onu uşaqlara da sevdirə biləcək.

Hər fəslin öz gözəlliyi var. Tərbiyəçi ayrı-ayrı fəsillərin özünəməxsus xüsusiyyətlərini uşaqlara başa salmalıdır. Uşaqlar bəzən çəyirtkənin, qarışqanın ayağını qırıb, onun hərəkətini, çapalamasını müşahidə edirlər. Bunu görən yaşlılar dərhal uşaqlarla söhbət aparmalı, onların da canlı olduğunu, ağrı hiss etdiklərini başa salmalıdırlar.

Tərbiyəçi uşaqları gəzintiyə aparır. O, uşaqlardan birinin təzə açılmış gülü dərdiyini, əzib atdığını görür. Bu zaman tərbiyəçi usagı başa salır ki, əgər hər uşaq bir gülü dərsə, şəhərimizi gözəlləşdirən parklarda heç nə qalmaz. O güllər yerində qalanda hamının zövqünü oxşayır. Ona görə də gülləri, meyvə ağaclarının çiçəklərini dərmək, budaqlarını qırmaq olmaz.

Alimlər son zamanlar apardıqları tədqiqatlardan belə nəticəyə gəlmişlər ki, kiçik yaşlarında canlılara qarşı amansız olan uşaqlar böyüyəndə daha da qəddarlaşırlar.

Ekoloji tərbiyənin başlıca komponenti sayılan insan təbiətin bir hissəsi olduğunu dərk etməlidir. Qədim yunan filosofu Sokrat deyirdi ki, dünyadakı möcüzələrin ən böyüyü insandır. Təbiət insana ən qiymətli sərvət olan ağıl vermişdir. İnsan öz ağlının gücü ilə təbiətin qanunlarını anlayır, ən güclü, vəhşi heyvanları özünə ram edir. İnsan öz zəkası ilə təbiəti sadəcə seyr etmir, onu öyrənməklə kifayətlənmir. Təbiətin qanunlarını və qanunauyğunluqlarını dərk edir, təbiətin özünü, onu flora və faunasını dəyişdirir. Təbiətin qorunması bu gün də öz əhəmiyyətini itirməmişdir.

Ekoloji mədəniyyətin formalaşdırılmasının müxtəlif vasitə və yollarından səmərəli, düşünülmüş şəkildə istifadə olunmalıdır.

Uşaq, yeniyetmə və gənclərin hissi aləminə təsir göstərməklə təbiəti, onun gözəlliklərini qorumaq əzmi, xeyirxahlıq hissləri formalaşdırmaq istiqamətində məşğələdənkənar tədbirlər, əyləncələr təşkil etmək olar.

Uşağın sosial inkişafında əsas məqsəd onun mahiyyətinin mənimsənilməsinə və ətraf mühitə uyğunlaşmaya can atmaqdır. Məktəbəqədər dövrdə psixofizioloji funksiyaların yeni xüsusiyyətlərə (iradilik, verballıq, vasitəlilik və s.) malik sosiallaşdırılmış səviyyəsi inkişaf edir.

Hər bir yaş mərhələsində məktəbəqədər yaşlı uşaqlarda şəxsi inkişaf problemlərin həllinə inkan yaradan mexanizmlər inkişaf etməyə başlayır. *Şəxsiyyət* anlayışı *sosiallaşma* an-layışı ilə sıx bağlıdır. Sosiallaşma anlayışının əsasında ailə, məktəbəqədər təhsil müəssisəsi, məktəb, qeyri-rəsmi təşkilatlar, istehsalat, əmək kollektivləri durur. Onlar insanların ümumiləşməsini əks etdirir və burada fəal şəkildə insanın sosiallaşması prosesi gedir. İnsanın ziddiyyətli sosial cəmiyyətə cəlb edilməsi şəxsiyyətin müxtəlif vəziyyətlərdə sosial istiqamətləndirilməsi zərurətinə gətirib çıxarır. Psixi fəallıq, fərdin ətraf aləmlə qarşılıqlı təsiri zamanı reallığın dərk olunması tələbatı bu situasiyaları xarakterizə edir. Bu, fərdin öz "mən"ini dərk etmə tələbatıdır.

Uşaq mikrososiumdan mənəvi dəyərləri əxz edərək, onları öz şüurunun süzgəcindən keçirir və cəmiyyətin təcrübəsini, mədəniyyətini mənimsəyir. Sosiallaşma fərdin təcrübəni fəal şəkildə mənimsəməsi prosesi və onun nəticəsidir. Onun əsasında mənəvi tərbiyə və inkişaf sahəsində uşaqların sosial-şəxsi təcrübə əldə etmələri baş verir.

D.İ.Feldşteyn uşaq şəxsiyyətinin sosial inkişafı konsepsiyasında qeyd etmişdir ki, şəxsiyyətin sosiallaşmasının ən mühüm meyarı onun uyğunlaşma səviyyəsi deyil, müstəqilliyidir. O, sosiallaşmanın, cəmiyyətin sosial problemləri, tələbatları, reallıq tərəfindən obyektiv şəkildə verilən mürəkkəb sosiallaşma – fərdiləşmə prosesini müəyyənləşdirir. "Bu proses uşaq şəxsiyyəti və psixikasının immanent özünüinkişafı kimi çıxış edir".

"Sosiallaşma" termini Amerika sosiolqu F.H.Qiddinqs tərəfindən 1887-ci ildə "Sosiallaşmanın nəzəriyyəsi" kitabında işlədilmişdir. Sosiallaşmanın daha geniş xarakteristikasını vermək cəhdini bir neçə il sonar J.Q.Tard həyata keçirmişdir. O, sosiallaşmanın fərdin cəmiyyəti təşkil edən digər fərdlərə oxşar dil, təhsil, tərbiyəyə nail olmaqla millətə, xalqa qarışması kimi xarakterizə edirdi. E.Dürkgeymə görə, cəmiyyət sosiallaşma prosesində mənimsənilən, ümumi qəbul olunmuş norma və dəyərlərin köməyi ilə yaşayır. Q. Spenser hesab edirdi ki, insan sosial institutları (siyasi, dini, ailə və s.) keçməsi sayəsində sosial varlığa çevrilir.

M.Mid, Ç.X.Kuli sosiallaşma və rolların mənimsənilməsi prosesi arasında müqayisə aparmışlar. Onlar sosiallaşmanın üç mərhələsini ayırd etmişlər:

- imitasiya – müşahidə edilən hərəkətlərin mexaniki təkrarlanması;
- oyun – roldan rola keçid;
- qrupşəkilli üzvlük – öz rolunun qrupun gözü ilə mənimsənilməsi.

J.Piaje koqnitiv inkişaf konsepsiyasını uşaq şəxsiyyətinin sosiallaşmasının ardıcıl mərhələləri kimi ifadə etmişdir:

- 2 yaşa qədər – sensomotor;
- 2–7 yaş arası – proporsional;
- 7–11 yaş arası – konkret-operasion;
- 12 yaşdan sonra – rəsmi operasion.

A.Y.Petrovski "sosiallaşma terminini fəaliyyət, ünsiyyət prosesində həyata keçirilən, fərdlərin sosial təcrübəni mənimsəməsi və fəal şəkildə tətbiqinin nəticəsi olan proses kimi izah edir.

V.V.Davıdovaya görə, sosiallaşma– fərdin təcrübəni, sosial münasibətlər və əlaqələr sistemini mənimsəməsi, öz təcrübəsində fəal tətbiq etməsi prosesidir. K.K.Platonovun fikrincə, sosiallaşma – ictimai idrakı əks etdirən və sosial cəhətdən əhəmiyyətli olan şəxsi keyfiyyətlərin tərbiyəsi prosesində qazanılmasıdır.

*Məktəbəqədər yaşlı uşaqların ətraf aləmə münasibəti anlayışında* problem baxımından iki cəhətə xüsusi diqqət yetirilməlidir. Bunlardan birincisi, həyatının 3-cü ilindən başlayaraq, uşağın ətraf aləmə göstərdiyi marağın istiqaməti, ikincisi isə ətraf aləm haqqında qavrayışların təzahürüdür. Məktəbəqədər dövrdə uşaqların ətraf aləmə marağı təbii sayılmalıdır. Maraq, uşaqlıq dövründən başlayaraq, şəxsiyyətin ümumi inkişafı, oyun, təlim və əmək fəaliyyəti prosesinə, yetkinlik yaşına qədər mürəkkəb yol keçir.

Uşağın ilkin maraqları onun maddi, həmçinin sosial tələbatının ödənilməsinə yönəlir. Uşaq böyüdükcə onda ətraf mühitə bələdləşmə tələbatı doğur. Bu əsasda o, erkən yaşdan bilavasitə gördüyü cisimlərlə maraqlanmağa başlayır. Yeni, parlaq rəngli cisimlərə diqqət yetirir, lakin bu ilk maraqlar davamsız və keçici olur.

Deməli, marağın səmtinə və obyektinə müvafiq olaraq, təbiətlə tanışlıq zamanı estetik hiss, həyəcan oyanmasının dinamikası da nəzərə alınmalıdır. Ümumi estetik hisslərin qüvvəsi, müxtəlifliyi və zənginliyi hər bir uşağın emosional yaddaşından, psixikasının estetik təəssüratlarından, onu həyəcanlandıran anlardan asılıdır. Məktəbəqədər yaşlı uşaqlarda müxtəlif səpgili estetik hisslər ətraf mühitlə tanışlıq prosesində daha da fəallaşır.

L.S.Vıqotskinin tədqiqatlarına əsaslanaraq deyə bilərik ki, orta qrupda yalnız ətraf aləmin gözəlliyini müşahidə qabiliyyətini inkişaf etdirmək azdır, həm də onu yaratmağa həvəs tərbiyələndirilməlidir.

E.M.Zalkind belə hesab edirdi ki, ətraf aləmə müsbət münasibət uşaqların aldıqları biliklərlə təbiəti mühafizə təcrübəsi arasında qarşılıqlı əlaqə vasitəsilə yaradılmalıdır.

Uşaq həyatının ilk ilindən başlayaraq, onun hisslərini inkişaf etdirmək əqli tərbiyəsindən az rol oynamır. Yeni biliklərin mənimsənilməsi, müvafiq bacarıqların aşılanması gələcəkdə uşağın insanlara, ətraf aləmə münasibətinin xarakterini şərtləndirir.

Uşağın emosional həssaslığı sosial hisslərlə sıx bağlıdır. Sosial hisslər erkən dövrdən başlayaraq uşağın həyatının əsas mahiyyətini, fəaliyyətini, ətraf aləmə münasibətini müəyyən edir.

Bütün həyat hadisələri bir-biri ilə əlaqədar olmaqla şərtlənir. Məktəbəqədər yaşlı uşaqlar bu əlaqələri başa düşürlərmi? Psixoloqların tədqiqatları göstərir ki, bu yaşda uşaqlarda məntiqi düşüncənin sadə formaları toplanmağa başlayır. Onlar belə hesab edirlər ki, uşaqlar hadisələri yaradan səbəbləri də başa düşməyə qabildirlər. Bunun üçün aşağıdakı cəhətləri bilmək vacibdir:

- uşaqların hadisəyə münasibəti;
- hadisələrin qarşılıqlı əlaqəsi, münasibətləri ilə tanışlıq.

Ətraf aləmlə tanışlıq prosesində uşaqların hər hansı həyat hadisəsindən fərəhlənmələri, bitki və heyvanat aləmi haqqında daha çox öyrənməyə maraq göstərmələri təbii sayılmalıdır. Bu prosesdə yaranan hisslər həyəcanlarla, həzzlərlə bağlıdır. Uşaq seyr etdiyi hər hansı mənzərədən təəccüblənir, fərəhlənir, həzz alır. Bu hisslərin mənbəyi isə bizi əhatə edən aləmdədir, təbiətdədir.

Təbiətdə olan gözəlliklər, rənglərin çalarları, təbiət hadisələri, onlara xas olan harmoniya, simmetriya, dinamika, ritm, səslərin ahəngi və s. uşaqlara təsir edir və onların sosial aləminin zənginləşməsinə zəmin yaradır.

K.D.Uşinskinin təbirincə, təbiət heyrətamiz dərəcədə tərbiyəedici təsirə malikdir. Doğrudan da, təbiətin təsir qüvvəsi çoxsahəli və dinamikdir. Aydın məsələdir ki, uşaqları əhatə edən vətənin təbiətidir. Bu cəhətdən təbiətlə ilk ünsiyyət onlarda vətənə məhəbbət oyadır.Təbiətlə ilk tanışlıq həm də vətənlə ilk tanışlıqdır. Doğma Vətənin, torpağın məktəbəqədər yaşlı uşaqlarda yaratdığı ülvi hisslər, emosional münasibət çoxmənalı, geniş və əhatəlidir. İnsanlarla, təbiətlə ünsiyyətdən yaranan bu hisslər mahiyyətinə görə əxlaqi, estetik və sosial səciyyə daşıyır.

Məktəbəqədər dövrdə ətraf aləm lövhələri, hadisələri, təbiətin florası və faunası, bizi əhatə edən bütün gerçəklik, əşya və hadisələrlə tanışlıq zamanı uşaqlarda emosional həssaslığın yaranması halları nəzərə alınmalıdır. Hər bir valideyn, tərbiyəçi unutmamalıdır ki, həyat hadisələri rəngarəng olduğu kimi, onların doğurduğu hisslər, emosional hallar da müxtəlifdir.

Doğma torpağa, mədəniyyətə, dilə məhəbbət – uşağın öz ailəsinə, evinə, bağçasına məhəbbətindən başlayır. Bu məhəbbət tədricən böyüyərək, doğma ölkəyə, onun tarixi keçmişinə, bu gününə, bütün bəşəriyyətə məhəbbətə çevrilir.

Uşağı bütün həyatı boyu məhəbbət hissinin müşayiət etməsi çox vacibdir. Məktəbəqədər təhsil müəssisəsindən başlayaraq uşağın cəmiyyətdəki vətəndaş mövqeyinə qədər sosiallaşma dərəcəsi onun düzgün formalaşmasını təmin edir.

Böyük məktəbəqədər yaş dövründə uşaq ətraf aləmi daha dərindən qavramağa başlayır, pedaqoqların köməyi ilə onun qanunauyğunluqlarını mənimsəyir. Uşaq bağçasının sosial mühiti nəinki məktəbəqədər yaşlı uşaqların tərbiyə olunması vasitəsilə sosiallaşma prosesini təmin edir, həm də uşaqlarda fərdiliyin inkişafına kömək göstərir.

Hazırda cəmiyyətdə ünsiyyət mədəniyyətinin, xeyirxahlığın çatışmazlığı, insanların bir-birinə diqqətsizliyi şəraitində pedaqoqlar uşaqlarda kobudluq, emosional laqeydlik kimi neqativ təzahürlərin profilaktika və korreksiyası problemləri ilə üzləşirlər.

Sosiallaşma prosesinin səmərəli şəkildə inkişaf etdirilməsi üçün aşağıdakı istiqamətlər seçilməlidir:

- uşaqlarla iş;
- valideynlərlə qarşılıqlı əlaqə;
- pedaqoqlarla iş.

Uşaqlarla sosiallaşma sahəsində iş apararkən aşağıdakı aspektlərə diqqət yetirilməlidir:

- erkən yaşlı uşaqların adaptasiyası;
- böyük məktəbəqədər yaş dövründə hisslərin anlaşılmasına yönəlmiş müştərək oyunlar;
- məktəbəhazırlıq qruplarında şəxsiyyətlərarası münasibətlərin müəyyənləşdirilməsi və korreksiyası.

Ekoloji mədəniyyətin formalaşması üzrə aparılan işlərdə müvafiq qanunvericilik sənədlərinə – BMT-nin ətraf mühit və inkişaf Bəyannaməsinə (1992), Azərbaycan Respublikasının Kon-

stitusiyasının 79-cu maddəsinə əsaslanmaq lazımdır. Bu sahədə məktəbəqədər təhsil müəssisəsinin, məktəbin və ictimaiyyətin səylərini birləşdirmək vacib şərtdir.


**ədəbiyyat**

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: "Hüquq ədəbiyyatı", 2009.
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu), Bakı, 2013.
3. Məktəbəqədər təhsilin standartları və proqramı. Bakı, 2010.
4. Kərimov Y.Ş. Uşağın məktəbə hazırlanmasının ümumpedaqoji məsələləri (Altıyaşlı uşağın məktəbə hazırlanması). Bakı: "Maarif", 1980.
5. Həmzəyev M.Ə. Altıyaşlıların təlimə psixoloji hazırlığı haqqında. Bakı, "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnalı, 1985, №4.
6. Əhmədova A., Əliyeva Ş.Q. Uşaqların emosional aləminin inkişafı. Bakı: "Elm və təhsil", 2012.
7. Доронова Т. Н. и др. Из детство в отрочество (программа для родителей и воспитателей по развитию детей 4 –7 лет. Москва , 2002.
8. Кларина Л.М. Познание окружающего мира: какое содержание делает его развивающим? Св.СТРАПУ им Терцена Сив. 2000.
9. Солодянкина О.В.Социальное развитие ребенка дошкольного возраста. Методическое пособие. Издательство: АРКТИ, 2006.



**ФОРМИРОВАНИЕ ЭКОЛОГИЧЕСКОЙ КУЛЬТУРЫ КАК ВАЖНЫЙ ФАКТОР СОЦИАЛИЗАЦИИ ДЕТСКОЙ ЛИЧНОСТИ**

**резюме**

В статье рассказывается о формировании экологической культуры как важный фактор социализации детской личности. Отмечается возрастные особенности социализации, устанавливаются направления в области эффективного развития процесса социализации. Социальное развитие и воспитание дошкольников должны быть одним из ключевых компонентов проектов государственного образования. Возрастающий интерес к проблеме социализации связан с изменениями в общественной жизни и изменениями в обществе. Так же отмечается, работа по формированию экологической культуры должна основываться на соответствующем законодательстве – Декларации ООН об окружающей среде и развитии (1992), статье 79 Конституции Азербайджанской Республики.



**FORMATION OF ENVIRONMENTAL CULTURE AS IMPORTANT FACTOR OF SOCIALIZATION OF THE CHILD PERSON**

**summary**

The article describes the formation of ecological culture as an important factor in the socialization of children's personality. The age features of socialization are noted, directions are set in the field of effective development of the process of socialization. Social development and the upbringing of preschool children should be one of the key components of public education projects. The growing interest in the problem of socialization is associated with changes in public life and changes in society. It is also noted that work on the formation of ecological culture should be based on the relevant legislation - the UN Declaration on Environment and Development (1992), Article 79 of the Constitution of the Republic of Azerbaijan.

# İBTİDAİ SİNİFLƏRDƏ TƏRBİYƏVİ İŞİN MAHİYYƏTİ VƏ PEDAQOJİ-PSİXOLOJİ ƏSƏRLƏRDƏ BU BARƏDƏ FİKİRLƏRİN TƏHLİLİ

**Fəridə Məmmədzadə,**
Bakı Mühəndislik Universiteti,
E- mail: feridememmedzade08@gmail.com



Tərbiyə hələ qədim zamanlardan cəmiyyətin vacib funksiyalarından biri olmuşdur. Hər bir cəmiyyətin inkişafı üçün onun tarixi təcrübələrinin bir nəsildən digərinə ötürülməsi əsasdır. Cəmiyyət inkişaf etdikcə tərbiyənin məzmunu, məqsədi, formaları da dəyişir. Nə qədər ki, cəmiyyət mövcuddur, tərbiyə davamlı bir proses olaraq qalmaqdadır. Tərbiyənin məqsədi şagirdin mədəni, hərtərəfli inkişafı, onda özünürealizə imkanlarının yaradılmasıdır. Tərbiyənin həyata keçirilməsi üçün əmək, oyun, idman, yaradıcılıq, ünsiyyət bacarıqlarını əsas vasitələr kimi göstərmək olar. K.D.Uşinski yazmışdır: "Xalqın öz ənənələri əsasında yaradılmış tərbiyənin gücü digər xalqlardan götürülmüş müxtəlif ideyalardan, sistemləşdirilmiş tərbiyəvi ideyalardan daha güclüdür."

İnsanın hərtərəfli inkişafı, əqli kamilliyi və əxlaqi saflığı üçün tələb olunan ən yüksək elmi-mənəvi dəyərlər tərbiyənin məzmununu təşkil edir. Tərbiyə sistemi ibtidaidən aliliyə, sadədən mürəkkəbə, yaxından uzağa, millilikdən ümumbəşəriliyə, adilikdən kamilliyə prinsipləri əsasında qurulur. [3, səh.3]. Uzun illər idi ki, ibtidai siniflərin fəaliyyəti uşaqlara, əsasən, ilkin təhsil vermək, onlarda ətraf mühit haqqında təsəvvür yaratmaqla kifayətlənirdi. Bir sıra pedaqoqlar bu məsələyə münasibətdə öz ideyalarını irəli sürmüş və fərqli fikirlər söyləmişlər. 1940–1960-cı illərdə M.A.Danilov, B.P.Yesipov, İ.Y.Lerner, M.N.Skatkinin elmi işlərində ibtidai siniflərdə təhsil və tərbiyənin mahiyyəti, xarakteri haqqında yeni yanaşma müəyyənləşdirildi. Bunun əsasında məktəbə gəldikləri ilk gündən uşaqları müəllimin avtoritar hakimiyyətindən azad etmək fikri dayanırdı. Bunun üçün, məktəblilərdə azad fikrin inkişafına, müstəqilliyə və yaradıcılığa diqqət etmək lazımdır.

Şagirdlər məktəbə gəldikləri ilk günlərdən onlarda mənəvi keyfiyyətlərin tərbiyəsi, şəxsiyyət kimi inkişafının istiqamətləri müəyyən olunmalıdır. Bu məqsədlə aparılan məqsədyönlü tərbiyənin rolu böyükdür.

Tərbiyə işinin həyata keçirilməsi, inkişafı üçün təlim, tərbiyə, təhsil haqqında verilmiş qərar və qətnamələrdə təhsilin qarşısında qoyulmuş müasir vəzifələr öz əksini tapmışdır.Verilmiş bu qərarlarda pedaqoji prosesdə texniki, ictimai, siyasi təhsil, təlim-tərbiyə əlaqələndirilir.

Y.A.Komenski yalnız nəyi öyrətmək və öyrənmək deyil, həm də necə öyrətməyin yollarını araşdırmışdır. Onun fikrincə, tədris materialları mərkəzləşmiş şəkildə verilməlidir. Hələ kiçik yaşlarından uşaqlara səliqə, doğruçuluq, insanlara məhəbbət təlqin edilməlidir. Kiçikyaşlı uşaqların tərbiyəsində valideynlərə kömək məqsədilə Y.A.Komenski "Ana qucağı məktəbi" adlı əsərini yazmış və bu əsərdə tərbiyə işinin məzmununu açıqlamışdır.

*Tərbiyə* anlayışına pedaqoq və psixoloqların, filosofların müxtəlif yanaşmaları olmuşdur. Bir çox tədqiqatçıların qənaətə gəldikləri aşağıdakı ümumi cəhətləri göstərmək olar:

• tərbiyə olunanlara təsirin məqsədyönlülüyü;
• uşaqlar tərəfindən müəyyən normaların mənimsənilməsi üçün şəraitin yaradılması;
• tərbiyə olunanlara təsirin sosial istiqaməti;
• insan tərəfindən sosial rolların kompleks mənimsənilməsi və s. [1, səh. 21].

*Tərbiyə* anlayışı pedaqoqların məqsədyönlü fəaliyyəti kimi başa düşülür. Bu fəaliyyət uşaqlarda müəyyən keyfiyyətlər sisteminin formalaşdırılmasını nəzərdə tutur.

Şagirdlərlə tərbiyə işi sinif, sinifdənxaric və həmçinin məktəbdənkənar fəaliyyət formalarında həyata keçirilir. O, eyni zamanda tərbiyə edənin müntəzəm təhsillənməsi ilə əlaqədardır. Tərbiyədə nümunə əsas şərtdir. Bu mənada tərbiyə edənin özündən yaxşı nümunə ola bilməz. Onun qüsursuz şəxsiyyət olması vacibdir.

M.Dobralyubovun fikrincə, müəllim o vaxt bədbəxt günə düşür ki, uşaqlar onun əxlaqi ləyaqətinə şübhə ilə yanaşırlar. Tərbiyə edənin özünün əməllərində bir uyarlıq, yaxınlıq, vəhdət olmalıdır ki, qarşı tərəf onun səmimiyyətinə inansın.

Platon qeyd etmişdir ki, yaxşı vətəndaş yetişdirmək üçün savaddan çox uşaqların əxlaqi baxımdan yetişmələrinin qayğısına qalmaq lazımdır. Təlimə o qədər diqqət yetiririk ki, bəzən tərbiyə məsələləri arxa plana keçir. Bu isə tərbiyəvi işə mənfi təsir göstərir. Tərbiyəsizliyi biliksizlikdən daha qəbahətli hesab etsək, heç də yanılmarıq. Tərbiyə insanın yalnız zəkasını deyil, davranışını, ünsiyyətini, münasibət tərzini formalaşdırır.

"Tərbiyə prosesi uşaqların sosiallaşmasına təkan verir. Uşaqların sosiallaşması hər bir pedaqoqun fəaliyyətinin strateji məqsədidir, çünki dərsdə əldə olunmuş biliklər insanın sosial cəhətdən yetişməsi üçün baza kimi qəbul edilə bilər. Uşağın sosiallaşmasına pedaqoqlarla valideynlərin ünsiyyətinin xarakteri də mühüm təsir göstərir. Bu planda pedaqoji vasitələrin düzgün seçilməsi əhəmiyyətlidir". [1, səh.21].

İbtidai siniflərdə uşaqlara ilkin olaraq davranış qaydaları öyrədilir. Tərbiyə işinin istiqamətini düzgün müəyyənləşdirmək üçün hər bir uşağa fərdi yanaşılmalı, onun psixologiyası, ailə vəziyyəti nəzərə alınmalıdır. Məktəb uşaqlara bilik verməklə yanaşı, həm də tərbiyə prosesinin həyata keçirildiyi bir müəssisədir. Tərbiyəvi işin səmərəsi tərbiyə verənin əxlaqi saflığından, mənəvi bütövlüyündən çox asılıdır. Yaxşı əməllərlə nümunə olmaqla yanaşı, mənfi hallara qarşı biganə qalmamaq da çox önəmlidir. Tərbiyənin əsas obyekti olan uşaqlarda hər zaman küçədə, məktəbdə və digər yerlərdə qarşılaşdıqları hadisələrə şübhə, sual və tərəddüdlər ola bilər. Oxuduqları kitablar da onların tərbiyəsinə təsir edən amillərdəndir. Ona görə də bu kitabların məzmununa, ideyasına diqqət yetirmək lazımdır. Yaxşı nəsil yetişdirmək istəyirsinizsə, uşaqların mütaliəsi üçün onların mənəviyyatını zənginləşdirəcək, pis əməllərdən uzaqlaşdıracaq kitablar seçilməlidir. Müəyyən dövrdən sonra uşaqların dost seçiminə, dəyər verdiyi keyfiyyətlərə diqqət yetirərək onların tərbiyəsində mənfi və ya müsbət cəhətləri təhlil etmək mümkündür. Tərbiyə yalnız şəxsiyyətin formalaşdırılması üçün deyil, həmçinin fərdiliyin inkişafı üçün şəraitin yaradılmasını da nəzərdə tutur. Tərbiyənin əsas vasitələrindən biri uşağın sosial şəxsiyyət kimi yetişməsinin müəyyənləşdirilməsidir.

Son dövrün qlobal problemlərindən biri də valideynlərlə övladlar, başqa sözlə, əvvəlki nəsillə yeni nəsil arasında mövcud olan mədəni fərqlər və onların mənfi nəticələridir. Düzgün istiqamət seçərək aradan qaldırmaq olar. Bəzən maddi imkanı zəif olan, sadə bir ailədə böyümüş uşaq ali məktəbə qəbul olunduqdan sonra özünü valideynlərindən üstün tutub, ata-ana ilə məsləhətləşməyi lazım bilmir. Uşaqların bir qismi orta məktəbdə oxuyarkən radikal fikirlərə, zərərli vərdişlərə yiyələnirlər. Onların mənfi davranışlarının kökündə düzgün qurulmayan tərbiyəvi işin, vaxtında verilməli faydalı nəsihətlərin olmaması durur. İbtidai siniflərdə şagirdlərlə aparılan tərbiyəvi işin, maarifləndirmənin istiqamətləri düzgün tətbiq edildikdə, bu bəlalardan qurtarmaq mümkündür. Beləliklə, böyüklərin düzgün təlim-tərbiyə vermələri, gözəl nümunə olmaları övladların parlaq gələcəyinin əsas şərtlərindəndir.

Pedaqoqlar doğru qeyd edirlər ki, uşağa aşılanan ən mühüm vərdişlərdən biri də oxumaq və yazmaqdır. İnsan müəyyən bir məqsədə çatmaq üçün mütləq oxuyub-yazmağı öyrənməlidir. Təhsil bitkin bir sistem olmaqla, özündə təlim və tərbiyə qədər gələcək həyata hazırlıq yükü daşıyır. Müəllim hər bir şagirdi diqqətlə öyrənməli, tərbiyə işini onların fərdi xüsusiyyətləri əsasında qurmalıdır.

Tərbiyə ailədən gəlir, məktəbəqədər müəssisədə cilalanır, yenidən tədris prosesində zənginləşir, yaşlıların köməyi ilə ailədə, ünsiyyət prosesində davam etdirilir, ictimai mühitə öz təsirini göstərir. Burada məqsədə çatmağın yollarından biri tərbiyəçinin uşaqlara məhəbbətidir. Z.Əliyevanın qənaətinə görə, tərbiyə işində böyüməkdə olan nəslin formalaşdırılmasında mütəşəkkillik, məqsədyönlülük əsas prinsiplərindəndir. Tərbiyə olunanda həyata düzgün münasibət formalaşdırmaq, cəmiyyətin müəyyənləşdirdiyi əxlaq normaları və davranış qaydalarını aşılamaq əsasdır. Tərbiyə prosesinin nəticəsi isə hərtərəfli inkişaf etmiş cəmiyyətin tələblərinə uyğunlaşan insanlar formalaşdırmaqdan ibarətdir. Z.Əliyevanın fikrincə, təlim böyüməkdə olan nəsildə bilik, bacarıq, vərdişlər formalaşdırmaqla onlara obyektiv aləmdə baş verən hadisələri dərk etdirir. Tərbiyəvi iş prosesində isə əqidə, rəftar, adət-ənənələri mənimsətməklə cəmiyyətin müəyyənləşdirdiyi əxlaq normaları, davranış qaydaları mənimsədilir. Bunun nəticəsində də insanlarda onları əhatə edən hər şeyə obyektiv münasibət formalaşır.

**ədəbiyyat**

1. Əliyev P., Əhmədov H. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı: “Təhsil”, 2004.
2. Əliyeva Z. Pedaqogika. Bakı, 2004.
3. Qaralov Z. Tərbiyə . (II cild). Bakı, 2003.

## ***HİKMƏT DƏNİZİ...***

***İki şey var ki, sonu görünməz: ağıl və bilik.***

**Hz.Əli (ə)**

***Dünyada nə qədər kitab var belə,***
***Çalışıb, əlləşib gətirdim ələ.***
***Oxudum, oxudum, sonra da vardım,***
***Hər gizli xəzinədən bir dürr çıxardım.***

**N. Gəncəvi**

***Elm sərkərdə, təcrübə isə onun əsgəridir.***

**L. da Vinçi**

***Yaxşı kitabı ilk dəfə oxuyanda bizə elə gəlir ki, yeni dost qazanmışıq. Həmin kitabı təkrar oxumaq isə köhnə dostu yenidən görmək deməkdir.***

**F.Volter**

***Kitab insan ruhunun müqəddəs yazısıdır.***

**M.Qorki**

***Kəşf etmək hamının gördüyünü görmək, lakin heç kəsin ağlına gəlməyəni düşünmək deməkdir.***

**A.R.Dyerdi**

***Elmdir cümlə sənətin dəyəri,***
***Elmsiz sənətin nədir səməri?***

**A. Səhhət**

# İBTİDAİ SİNİFLƏRDƏ YAZI İŞLƏRİNƏ DAİR YENİ VƏSAİT

Şagirdlərdə Azərbaycan dili üzrə düzgün yazı və oxu vərdişlərinin formalaşdırılmasının əsası ibtidai siniflərdə qoyulur. Bu vərdişlərin yaranmasında imla, ifadə və inşalar (o cümlədən, esselər) çox böyük əhəmiyyət kəsb edir.

Artıq neçə illərdir ki, ümumtəhsil məktəblərinin ibtidai təhsil pilləsində dil dərsləri yeni fənn proqramları əsasında hazırlanmış dərsliklərlə aparılır. Bu dərsliklərdə 4 məzmun xətti: "Dinləyib-anlama və danışma", "Oxu", "Yazı" və "Qrammatik qaydalar" praktik istiqamətdə reallaşdırılır. Şagirdlərin dərsliklərdəki imla, ifadə, inşa xarakterli çalışmalarla yanaşı, təcrübi yolla qazandıqları bacarıqların tətbiqi məqsədilə yoxlama imla və ifadələrə də ehtiyac var. Bu yaxınlarda nəşr olunmuş "İmla, ifadə mətnləri, esse mövzuları" ("Elm və təhsil", Bakı, 2017) adlı vəsait məhz həmin ehtiyacları ödəmək üçün nəzərdə tutulmuşdur. Vəsaitin müəllifi Azərbaycan Respublikasının Əməkdar müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru **Bəsti Mehralıyevadır**.

Sevindirici haldır ki, vəsait estetik cəhətdən nəfis və göz oxşayan tərtibatla buraxılmışdır.

Vəsaitin didaktik sistemi elədir ki, burada I–IV siniflər üzrə Azərbaycan dili proqramına uyğun 350-dən artıq imla və ifadə mətnləri verilmişdir. İmlaların bir çoxunda qrammatik tapşırıqlar verilir. Hər sinif üzrə imla və ifadə mətnləri qruplaşdırılmış, çətinlik dərəcəsi, orfoqrafiya və orfoepiya üzrə şagirdlərin bilik səviyyəsi nəzərə alınmışdır.

Vəsaitdə didaktik xarakterli folklor nümunələri ilə yanaşı, klassik və müasir yazıçıların əsərlərindən nümunələrə də geniş yer verilmişdir. Burada təbiət və cəmiyyət barədə kifayət qədər informasiya verən, habelə şagirdlərə elmi dünyagörüşü aşılayan mətnlər vardır. Bu mənada vəsait uşaq ensiklopediyasını xatırladır.

Şagirdlərin müstəqil fəaliyyətinin təşkilində və yaradıcı təfəkkürlərinin inkişafında esselərin də xüsusi yeri vardır. Vəsaitdə cəmiyyət həyatının müxtəlif sahələrini əhatə edən 100-dən artıq esse mövzusu təqdim olunmuşdur. Bunlardan səmərəli şəkildə istifadə etmək müəllimin öhdəsinə düşür.

Vəsaitin əvvəlində imlaların növləri və qiymətləndirmə meyarları, aparılması yolları, orfoqrafiya qaydaları haqqında geniş məlumat verilməsi müəllimlərin öz işlərini düzgün qurmalarına yardım göstərir.

Rabitəli mətnlər imla, ifadə və inşa üçün nəzərdə tutulsa da, müəllim onları daha məzmunlu yazılara çevirməklə şagirdlərin müstəqil işini təşkil edə bilər.

B.Mehralıyeva böyük zəhmət tələb edən bu işin öhdəsindən layiqincə gələrək, çox lazımlı bir vəsait ərsəyə gətirmişdir. Vəsaitdəki materiallardan V sinif şagirdlərinin orfoqrafik-orfoepik biliklərini diaqnostik yolla yoxlayıb qiymətləndirmək məqsədilə də istifadə oluna bilər.

**Sevda Abasova,**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
ADPU-nun müəllimi

# Y.A.KOMENSKİNİN "ANA QUCAĞI MƏKTƏBİ" ƏSƏRİ VƏ ONUN ƏSAS İDEYALARININ AZƏRBAYCANDA YAYILMASI



Pedaqoji elmlər namizədi, dosent Mehriban Hüseyn qızı Şirzadovanın müəllifliyi ilə "Y.A.Komenskinin "Ana qucağı məktəbi" əsəri və onun əsas ideyalarının Azərbaycanda yayılması" kitabı çapdan çıxmışdır.

Maraqlı cəhət odur ki, müəllif əsəri anasına həsr etmişdir. Bu, valideynlərə böyük hörmət və məhəbbətin təzahürüdür.

Oxuculara təqdim edilmiş bu kitab iki hissədən ibarətdir.

I hissədə elmi pedaqogikanın banısı, böyük çex pedaqoqu Y.A.Komenskinin həyat və yaradıcılığı haqqında məlumat verilir, onun pedaqoji ideyalarının dünya pedaqogikasının, o cümlədən, Azərbaycan pedaqogikasının inkişafına göstərdiyi müsbət təsir vurğulanır. XIX əsrin sonlarından başlayaraq bu ideyaların Azərbaycanda geniş yayılmasından bəhs edilir. Əsərdə Y.A.Komenskinin pedaqoji ideyalarının Azərbaycanda təbliğində Qori seminariyasının tanınmış məzunları Teymur bəy Bayraməlibəyov və Nəriman Nərimanovun xidmətləri qeyd olunur.

""Ana qucağı məktəbi"ndə əsas ideyalar" bölməsində Y.A.Komenskinin 1628-ci ildə yazdığı "Ana qucağı məktəbi" əsərinin məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə istiqamətləndirildiyi və müəllifinə dünya şöhrəti qazandırdığı qeyd edilmişdir.

Müəllif Azərbaycan maarifçilərindən Səfərəli bəy Vəlibəyovun "Qüdrəti-xuda" əsərində, S.M.Qənizadənin "Körpə uşaqların tərbiyəsi" adlı silsilə məqalələrində irəli sürülən fikirləri ixtisarla oxuculara təqdim etmişdir.

Əsərin I hissəsində görkəmli şəxsiyyətlərin bu gün də aktual fikirlərindən sitatlar verilmişdir. Təqdirəlayiq cəhət odur ki, kitabda Y.A.Komenskinin "Böyük didaktika" əsərindəki pedaqoji fikirlərindən nümunələr göstərilmişdir:

*İnsan olmaq üçün adam təhsil almalıdır.*

***

*İntizamsız məktəb susuz dəyirmandır.*

***

*Ağac kök atdıqca möhkəm olar.*

***

*Dünyaya gələn bütün insanlar yalnız bir əsas məqsəd üçün yaranmışlar: İnsan olmaq, gələcək həyata ləyaqətlə hazırlaşmaq.*

***

*Təhsil, elm və tərbiyə natıcə etibarilə insanı müdrik etməlidir. Onu, əqli cəhətdən olduğu kimi, mənəvi cəhətdən də yüksəltməli, mərd və alicənab etməlidir.*

***

*Gəncliyə düzgün rəhbərlik etmək – dövləti yaratmaq və yenidən dəyişdirmək deməkdir.*

***

*Məktəbin əsas vəzifəsi cəmiyyətdə müdrikliyi yaymaqdan ibarətdir.*

Kitabda "Ana qucağı məktəbi" əsərindən dəyərli nümunələr verilmişdir:

*Ana qucağı məktəbində təmrinlər üçün ən faydalı ola bilən vəsait şəkilli kitablardır.*

***

*İnsana onun həyatı ərzində xeyir vermək üçün öyrədiləcək bütün biliklər birinci məktəbdə (yəni "Ana qucağı məktəbi"ndə) verilməlidir.*

***

*Kiçikyaşlı uşaqları daim iş görməyə, əməyə alışdırmaq lazımdır.*

***

*Uşaqlar Allah tərəfindən bizlərə bəxş edilmiş elə ləl-cəvahiratdır ki, heç bir xəzinə ilə müqayisə edilə bilməz.*

***

*Valideynlər öz övladlarının yalnız yeməkləri, yaxşı geyinmələri ilə deyil, həmçinin onların mənəviyyatının zənginləşməsi ilə də məşğul olmalıdırlar.*

***

*İki mühüm xüsusiyyət insanları heyvanlardan ayırır: bunlardan biri əql (ağıl), digəri isə nitqdir.*

***

*Öz toxumundan cücərmiş körpə bitkini, yaxşı inkişaf etməsi və dadlı məhsul verməsi üçün, başqa yerə, bostana köçürürlər. Uşaq da belədir. Ana qucağında tərbiyə alan, əqli və fiziki cəhətdən sağlam olan 6 yaşlı uşağı da, yaxşı inkişaf etməsi üçün, məktəbə, yəni müəllimin himayəsinə vermək lazımdır.*

***

*Uşaqlarda məktəbə, müəllimə sevgi və etibar hisslərinin tərbiyə olunması da valideynlərin vəzifələrindəndir.*

Qeyd olunur ki, S. M. Qənizadə yaradıcılığında, onun "Körpə uşaqların tərbiyəsi" adlı silsilə məqalələrində irəli sürülən bir çox fikirlər Y.A.Komenskinin fikirləri ilə üst-üstə düşür.

II hissə «О воспитании детей в первые шесть лет жизни» adlanır. «Материнская школа или о заботливом воспитании юношества в первые шесть лет» əsərindən seçilərək rus dilində verilmiş əlavə materiallar da pedaqoji biliklərin zənginləşdirilməsi üçün nəzərdə tutulmuşdur.

Müəllif kitabda Azərbaycan pedaqoqlarının körpə uşaqların təlim-tərbiyəsinə dair fikirlərindən də nümunələr göstərilmişdir.

**Kəklik Məmmədova,**
jurnalın əməkdaşı


## ***<u>Hörmətli oxucular!</u>***

**"Məktəbəqədər və ibtidai təhsil" jurnalının 2018-ci ildə normal fəaliyyət göstərməsi üçün Sizi abunə yazılışı kampaniyasına çağırırıq. İldə 4 nömrə nəşr olunur. Bir nüsxənin abunə haqqı 2 manat 50 qəpik, illik abunə haqqı 10 manatdır.**

**Abunə yazılışı respublikamızda fəaliyyət göstərən aşağıdakı mətbuat yayımı firmalarında həyata keçirilir:**

| | **telefon nömrələri:** |
|---|---|
| **"Azərmətbuatyayımı" ASC** | **440-39-83** |
| **"Qasid" ASC** | **493-23-19** |
| **"Qaya"** | **565-67-13** |
| **"Səma"** | **594-09-59** |
| **"X-press -Elita"** | **437-28-10** |
| **"Kaspi"** | **432-39-55** |

**Mətbuat tariximizdə özünəməxsus yeri olan jurnalımıza abunə yazılmağı unutmayın!**